BAYRAMLARINIZ MÜBARƏK!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 93 (10113) 27 may 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Xalqımızın və dövlətimizin əmin-amanlığı naminə etdiyiniz duaların Tanrı dərgahında qəbul olunması diləyi ilə...

## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir,hər birinizə ən səmimi arzularımı yetirirəm.

İslamın sonuncu səmavi din və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini təcəssüm etdirən Qurban bayramı günlərində milyonlarla müsəlman Həcc ziyarətində bir araya gəlir, birlik və bərabərliyin, nəcib amallar uğrunda hər cür fədakarlığa hazır olmanın qürur və sevincini yaşayır.

Hər il ölkəmizdə ümumxalq bayramı kimi qeyd olunan Qurban mərasimləri insanlar arasında həmrəylik, humanizm və mərhəmət duyğularını daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə bağlılığın, xeyirxah əməllərin təntənəsinə çevrilir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək günlərdə şəhidlərimizin ölməz xatirəsini bir daha minnətdarlıqla yad edir, xalqımızın və dövlətimizin əmin-amanlığı naminə etdiyiniz duaların Tanrı dərgahında qəbul olunması diləyi ilə ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# Donald Tramp İlham Əliyevi təbrik edib

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli Prezident Əliyev!

Müstəqillik Gününüz münasibətilə Sizi və əziz Azərbaycan xalqını təbrik etmək istəyirəm.

2025-ci ilin avqust ayında Vaşinqtonda keçirilmiş tarixi sülh sammitindən bəri biz münasibətlərimizi yenidən canlandırmaq üçün birlikdə çalışmışıq və bunun nəticəsi olaraq Vitse-prezident Vens 2026-cı il fevralın 10-da Bakıda Sizinlə Strateji Tərəfdaşlıq Xartiyamızı imzalamışdır. Biz regional əlaqələr, iqtisadi münasibətlər və təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə tərəfdaşlığımızı daha da dərinləşdiririk və bu istiqamətlərdə, həmçinin digər sahələrdə əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirik.

Birləşmiş Ştatlar Azərbaycan və Ermənistan arasındakı dayanıqlı sülhü dəstəkləməyə davam edir. Ötən ilin avqust ayında parafladığınız sülh sazişinin irəlilədilməsi istiqamətində Azərbaycanın göstərdiyi səylər, həmçinin sərhədlərin delimitasiyası üzrə davam edən proses, 2026-cı ilin yanvar ayında dörd erməni məhbusun azad olunması, Ermənistana yanacaq tədarükü və hər iki ölkənin vətəndaş cəmiyyətlərini bir araya gətirən "Sülh Körpüsü" təşəbbüsü bizi ruhlandırır.

Biz strateji tərəfdaşlığımızı gələcək illərdə və onilliklərdə daha da möhkəmləndirməyi səbirsizliklə gözləyirik.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Donald TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

# Azərbaycan və İran yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birinin yanındadır



Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon danışığı olub.

Dövlət başçıları müqəddəs Qurban bayramı münasibətilə bir-birilərinə təbriklərini çatdırıb, Azərbaycan və İran xalqlarına firavanlıq və ruzi-bərəkət arzulayıblar.

İran İslam Respublikasının Prezidenti ölkəsinin üzləşdiyi ağır günlərdə Azərbaycanın göstərdiyi humanitar yardımlara görə bir daha təşəkkürünü bildirib.

Prezident İlham Əliyev öz növbəsində qeyd edib ki, Azərbaycan və İran yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birinin yanındadır.

Telefon söhbəti zamanı ikitərəfli əlaqələrin inkişafı və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Prezident İlham Əliyevin sosial media hesablarında Qurban bayramı ilə bağlı paylaşım edilib




# Müstəqilliyimiz etibarlı əllərdədir



Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, bu xalq müstəqil yaşamağa layiq və qadirdir. Cümhuriyyət dövlətçilik tariximizdə sönməyən istiqlal məşəli yandırdı. Məhz həmin məşəl 1991-ci ildə yenidən alovlandı və Azərbaycan xalqı 71 ildən sonra dövlət müstəqilliyini bərpa etdi. Müstəqilliyimizin ilk illəri də ağır sınaqlarla yaddaşlarda iz saldı. Ermənistanın işğalçılıq siyasəti, daxili siyasi böhran və xaos ölkəni uçuruma aparırdı. Belə bir mürəkkəb zamanda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycan dövlətçiliyini xilas etdi. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində ölkədə sabitlik yaradıldı, dövlət institutları möhkəmləndirildi və müstəqilliyimizin qorunması təmin olundu.

Bu gün Azərbaycan Respublikası cümhuriyyətin siyasi və mənəvi varisi kimi onun ideallarını uğurla davam etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz öz tarixinin ən qüdrətli dövrünü yaşayır. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin edildi. Bu gün Şuşada, Laçında, Xankəndidə və işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycan bayrağı qürurla dalğalanır. İndi Azərbaycan regionun ən güclü dövlətlərindən biridir. Güclü ordu, müstəqil siyasət, dayanıqlı iqtisadiyyat və milli birlik ölkəmizin əsas dayaqlarıdır. 106 il öncə süqut etdirilən müstəqil Azərbaycan indi güclü, qüdrətli və sarsılmazdır. 1918-ci ildə qaldırılan istiqlal bayrağı bu gün suveren Azərbaycanın azad səmasında dalğalanırsa, bu, xalqımızın əyilməz ruhunun, dövlətçilik ənənələrinin və milli birliyinin təntənəsidir. Bu, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının arzularının reallığa çevrilməsi deməkdir.

8

# Gürcüstanın Prezidenti zati-aliləri cənab Mixeil Kavelaşviliyə

Hörmətli cənab Prezident!

Gürcüstanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və dost Gürcüstan xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Gürcüstan dostluq əlaqələrinin bugünkü yüksək səviyyəsi qonşu xalqlarımızın əsrlər boyu bir-birinə bəslədiyi dərin rəğbət, hörmət və etimaddan güc alır. Hazırda dövlətlərarası münasibətlərimizin dinamik və hərtərəfli inkişafı məmnunluq doğurur.

Keçən ay dost ölkənizə həyata keçirdiyim dövlət səfərinin nəticələrini, səfər zamanı göstərdiyiniz qonaqpərvərliyi və əsl dost münasibətini yüksək qiymətləndirir, qarşılıqlı anlaşma və səmimiyyət şəraitində keçən məhsuldar görüşümüzü, apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.

Siyasi əlaqələrimizin intensivliyi və ali səviyyədə fəal dialoqun mövcudluğu bütün sahələrdə əməkdaşlığımızın daha da dərinləşdirilməsi üçün əlverişli imkan yaradır.

İnanıram ki, dövlətlərimizin maraqları, xalqlarımızın mənafeyi və regionumuzun rifahı naminə sağlam təməllər üzərində qurulmuş və xoş ənənələrə əsaslanan Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı birgə səylərimizlə bundan sonra da möhkəmlənməyə və genişlənməyə davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost və qardaş Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2026-cı il*

# R.A.Əliyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rauf Asif oğlu Əliyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# 2026-cı il üçün Azərbaycan Respublikasının elm və mədəniyyət sahələrində Dövlət Mükafatlarının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Elm, texnologiya, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifinə əsasən **qərara alıram:**

2026-cı il üçün Azərbaycan Respublikasının elm və mədəniyyət sahələrində Dövlət Mükafatları aşağıdakı şəxslərə verilsin:

**Elm sahəsi üzrə**

Asəf Hacı oğlu Hacıyev - "Çoxölçülü reqressiya analizi və süni intellekt" kitabına görə

Tarix Meyrut oğlu Dostiyev - Orta əsr Gəncə və Şəmkir şəhər yerlərində aparılan arxeoloji qazıntılar əsasında əldə etdiyi fundamental elmi nəticələrə görə

**Mədəniyyət sahəsi üzrə**

Eldar Hidayət oğlu Mikayılzadə - "Azərbaycan xalçası - ilmələrin rəqsi", "Xəmsə" silsilələri və "Səmavi dinlər" triptixinə görə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# Apellyasiya məhkəmələri sədrlərinin, məhkəmə kollegiyası sədrinin, birinci instansiya məhkəmələri sədrlərinin və hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə uyğun olaraq,

**apellyasiya məhkəmələri üzrə:**

1.1. aşağıdakı hakimlər apellyasiya məhkəmələrinin sədrləri təyin edilsinlər:

Əkbərov Mübariz Dosməmməd oğlu - Bakı Apellyasiya Məhkəməsinin sədri

Paşayev Tofiq Temir oğlu - Sumqayıt Apellyasiya Məhkəməsinin sədri

Quliyev Nuru Nadir oğlu - Şəki Apellyasiya Məhkəməsinin sədri

Abdullayev Vəli Əsgər oğlu - Şirvan Apellyasiya Məhkəməsinin sədri;

**ağır cinayətlər məhkəmələri üzrə:**

1.2. Rəşad Şəmşir oğlu Əliyev Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin sədri təyin edilsin;

1.3. Rafail Əyyub oğlu Əliyev Şəki Ağır Cinayətlər Məhkəməsinin sədri təyin edilsin.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya məhkəmələri üzrə:**

2.1. Fikrət Cilingir oğlu Hüseynov Şirvan Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

**ağır cinayətlər məhkəmələri üzrə:**

2.2. Zaur Arif oğlu Hacıyev Bakı Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

2.3. Günel Kamil qızı Səmədova Bakı Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

2.4. Azər Ramiz oğlu Tağıyev Bakı şəhəri Səbail Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

**hərbi məhkəmələr üzrə:**

2.5. Taleh Məhəmmədəli oğlu Mustafayev Goranboy Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gəncə Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

**kommersiya məhkəmələri üzrə:**

2.6. Gündüz Əhməd oğlu Şirinov Samux Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Gəncə Kommersiya Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

2.7. Vahid Nəriman oğlu Sadıqov Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

2.8. Tərlan Vaqif oğlu Nüsrətov Cəbrayıl Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Xankəndi Şəhər Məhkəməsinin hakimi və sədri təyin edilsin;

2.9. Şəhriyar İbrahim oğlu Əliyev Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Kürdəmir Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

2.10. Nural Turab oğlu Əliyev Samux Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# "Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

2.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Mərkəzi Bankının sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə Dövlət Proqramında dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulmuş tədbirlərin icrası üçün tələb olunan vəsaitin dövlət büdcəsinin 2027-2030-cu illər üzrə proqnozlarında nəzərdə tutulması ilə bağlı zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# Yeni Şəhər Gündəliyi üzrə Nazirlər Görüşünün Sədrinin yekun çıxışı

## Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13)

*17 may 2026-cı il, Bakı, Azərbaycan Respublikası*

***Açılış***

- Zati-aliləri, hörmətli nazirlər, üzv dövlətlərin nümayəndələri, Birləşmiş Millətlər Təşkilatı sistemindən olan həmkarlar, yerli və regional hökumətlərin, vətəndaş cəmiyyətlərinin, akademik dairələrin üzvləri və digər tərəfdaşlar.

Sədr kimi, bugünkü Yeni Şəhər Gündəliyi üzrə Nazirlər Görüşü zamanı qaldırılan əsas məsələlərin xülasəsini təqdim etməkdən şərəf hissi duyuram.

İcazə verin, bugünkü müzakirələrə töhfə verən bütün nazirlərə, nümayəndə heyətlərinin rəhbərlərinə, panellərin iştirakçılarına və digər iştirakçılara təşəkkürümü bildirim.

Mən həmçinin nümayəndə heyətləri ilə birgə Azərbaycan hökumətinə və xalqına səmimi qonaqpərvərliyinə və 176 ölkədən 57 mindən çox iştirakçını bir araya gətirən və bu günə qədər Ümumdünya Şəhərsalma Forumunun ən böyük sessiyası olan WUF13 tədbirinin Bakıda uğurlu təşkilinə görə minnətdarlığımı bildirirəm.

Nazirlərin həm WUF13-ə hazırlıq prosesində təqdim olunan innovativ yanaşmaları, o cümlədən şəhərsalma ilə bağlı müzakirələrin əhəmiyyətini daha da artıran ilk Liderlərin Bəyanatları Seqmentini, həm də Azərbaycan və BMT-Məskunlaşma Proqramının Ümumdünya Şəhərsalma Forumunun gələcək sessiyalarına evsahibliyi etmək üçün operativ qaydalar üzərində əməkdaşlıq etmək niyyətini alqışladıqlarını da qeyd edirəm.

Biz həmçinin adekvat mənzil təminatı və davamlı şəhərsalma üzrə beynəlxalq əməkdaşlıq üçün bu vacib platformanın təşkil edilməsində Zati-aliləri Prezident İlham Əliyevin uzaqgörən liderliyini, eləcə də BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbaxın səylərini yüksək qiymətləndiririk.

***Əsas ümumi mesaj***

Bugünkü görüş çox mühüm bir vaxtda keçirildi. 2026-cı il Yeni Şəhər Gündəliyinin 20 illik icra dövrünün yarısının tamamlandığı mərhələdir. Kitoda qəbul edilməsindən 10 il sonra Yeni Şəhər Gündəliyi adekvat mənzil və inklüziv, təhlükəsiz, dayanıqlı və davamlı şəhərlər və insan məskənlərinin inkişafı üçün həlledici bir çərçivə olaraq qalır. Eyni zamanda bugünkü müzakirələr onu deməyə əsas verir ki, ikinci onillik yalnız yenilənmiş ambisiyalarla deyil, sürətləndirilmiş icra, daha güclü tərəfdaşlıq və insanların həyatında aydın görünən irəliləyişlə müəyyən edilməlidir.

Gün ərzində ortaya çıxan əsas mesaj budur: **mənzil sadəcə sığınacaq demək deyil. Bu, insan hüququ, ləyaqət və sosial inteqrasiya üçün təməl, fürsətlər üçün hərəkətverici qüvvə, iqlim dəyişikliyinə dayanıqlılıq və davamlı şəhər inkişafı üçün praktik bir həll yoludur.** WUF13-ün "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusunda əks olunduğu kimi, adekvat mənzil təminatı Yeni Şəhər Gündəliyinin insanların gündəlik həyatında tətbiqi üçün ən aydın və ən təxirəsalınmaz başlanğıc nöqtələrdən biridir.

**Milli bəyanatlardan əsas məqamlar**

Səhər sessiyası zamanı nazirlər və nümayəndə heyətlərinin rəhbərləri icranın ilk onilliyi dövründəki milli təcrübələrini bölüşüblər.

**Bir çox natiqlər milli inkişaf planları, mənzil siyasəti, ərazi planlaşdırılması qanunları, torpaqların idarə edilməsi siyasəti, inteqrasiya olunmuş ərazi çərçivə sənədləri,** Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə uyğunlaşdırılmış strategiyalar və milli hesabat prosesləri daxil olmaqla, davamlı şəhərsalma üçün milli siyasətin, hüquqi və planlaşdırma üzrə çərçivə sənədlərinin gücləndirilməsi sahəsində əldə edilmiş irəliləyişi vurğuladılar. Bəzi nümayəndə heyətləri, həmçinin genişmiqyaslı mənzil proqramları, əlverişli mənzil maliyyələşdirmə tədbirləri, infrastruktur investisiyaları, şəhərlərin bərpası, qeyri-rəsmi məskunlaşmaların təkmilləşdirilməsi, torpaq sahələrinin nizamlanması, iqlim dəyişmələrinə uyğunlaşmış planlaşdırma, rəqəmsal alətlər və daha güclü yerli idarəetmə sistemləri barədə məlumat veriblər.

**Eyni zamanda milli bəyanatlarda mövcud olan çağırışların miqyası barədə də danışılıb.** Natiqlər çıxışlarında planlaşdırma, infrastruktur, mənzil təchizatı və xidmət göstərilməsini qabaqlayan sürətli şəhərsalmadan bəhs ediblər. Mənzil əlçatanlığı və çatışmazlığı geniş yayılmış problem kimi qeyd edilib və onun azgəlirli ailələrə, ortagəlirli qruplara, gənclərə, ilk dəfə ev alanlara, qeyri-rəsmi işçilərə, miqrantlara, məcburi köçkün statuslu əhaliyə və həssas icmalara təsir etdiyi bildirilib. Bəzi bəyanatlarda gecəqonduların qalması, təhlükəsiz mülkiyyət, adekvat olmayan ilkin xidmətlər, iqlim və fəlakət riskləri, maliyyələşdirmə məhdudiyyətləri, məlumat boşluqları və qeyri-bərabər institusional potensial da vurğulanıb.

**Yeni Şəhər Gündəliyinin üç transformativ öhdəliyi arasında xüsusi diqqət sosial inteqrasiya və yoxsulluğun aradan qaldırılması üçün davamlı şəhər inkişafına yönəldilib.** Natiqlər mənzil təminatını yoxsulluğun azaldılması, inteqrasiya, sabitlik, ləyaqət və imkanlara çıxışla əlaqələndiriblər. Bir çoxları mənzil siyasətinin kənarda qalma riski ən çox olanlara, o cümlədən azgəlirli ailələrə, qadınlara, gənclərə, yaşlılara, əlilliyi olan şəxslərə, miqrantlara, qeyri-rəsmi işçilərə, məcburi köçkün əhaliyə, gecəqondu sakinlərinə, böhran və ya iqlim risklərinin təsirlərinə məruz qalan icmalara çatmalı olduğunu vurğulayıb. Evsizlik də davamlı diqqət tələb edən bir məsələ kimi qeyd olunub və bəzi nümayəndə heyətləri adekvat mənzilə çıxışı genişləndirmək üçün ölkə səviyyəsində həyata keçirilən səylər barədə fikirlərini bölüşüblər.

**Ekoloji cəhətdən davamlı və dayanıqlı şəhər inkişafı da əsas mövzu olub.** Bəzi nümayəndə heyətləri mənzil, şəhərsalma, iqlim dəyişmələri ilə mübarizə tədbirləri və davamlı inkişaf arasındakı sıx qarşılıqlı əlaqələri qeyd ediblər. Bu, xüsusilə mənzil sistemlərinin dəniz səviyyəsinin qalxmasına, ekstremal hava hadisələrinə və iqlim maliyyələşdirməsinə məhdud çıxışa getdikcə daha çox həssas olan İnkişaf etməkdə olan kiçik ada dövlətləri timsalında daha aydın görünür. Nazirlər həmçinin təmiz havanın təkcə ətraf mühit məsələsi olmadığını, həm də ictimai sağlamlıq, həyat şəraitinin səviyyəsi və davamlı şəhərsalma məsələsi olduğunu vurğulayıblar.

**Davamlı və inklüziv şəhər inkişafı və imkanlarına da digər iki öhdəlik qədər olmasa da, müəyyən diqqət yetirilib.** Bəzi natiqlərə görə, mənzil iş yerlərinə, dolanışıq vasitələrinə, məhsuldarlığa, mobilliyə və yerli iqtisadi inkişafa çıxışa təsir edir. Bununla belə, mənzil təminatının iqtisadi rolu daha az diqqət çəkib və Yeni Şəhər Gündəliyinin icrasının növbəti mərhələsində daha tam şəkildə həll edilməsi lazım ola bilər.

Milli bəyanatlarda mənzillə bağlı bir sıra mövzular da diqqət mərkəzində olub. **Əlçatanlıq, dayanıqlılıq, qeyri-rəsmi məskunlaşmalar və iqlimlə mənzil arasında əlaqə ən çox qaldırılan məsələlər arasında yer alıb.** Natiqlər mülkiyyət təhlükəsizliyini, əsas xidmətlərə çıxışı, ictimai və sosial mənzilləri və yaşayışa yararlılığı da vurğulayıblar. Məkan, əlçatanlıq və mədəni adekvatlıq da daxil olmaqla, adekvat mənzil təminatının digər aspektlərinə daha az toxunulub və bunların gələcəkdə aparılacaq müzakirələrin və icranın subyekti ola biləcəyi bildirilib.




**Bir daha vurğulanıb ki, mənzil məsələsini təcrid olunmuş şəkildə həll etmək mümkün deyil.** Natiqlər mənzili torpaq, infrastruktur, nəqliyyat, xidmətlər, iş yerləri, sosial müdafiə, ictimai məkanlar, iqlim tədbirləri və yerli iqtisadi inkişafla əlaqələndirən inteqrasiya olunmuş və məkan əsaslı yanaşmaların tətbiq olunmasına çağırıblar. Bəzi natiqlər həmçinin ikinci dərəcəli şəhərlər, kiçik şəhərlər, şəhər-kənd arasında olan əlaqələr və balanslaşdırılmış ərazi inkişafı barədə danışıblar. Bu xüsusda natiqlər həmçinin vurğulayıblar ki, davamlı və inklüziv şəhər inkişafında tarixi və mədəni irsinin qorunması nəzərə alınmalıdır.

**Milli və regional şəhər forumları qabaqcıl təcrübələrin mübadiləsi, tərəfdaşlıqların gücləndirilməsi və müxtəlif kontekstlərə** uyğunlaşdırıla və genişləndirilə bilən həll yollarının müəyyənləşdirilməsi üçün vacib platformalar kimi qiymətləndirilib. Natiqlər həmçinin hökumət, akademik dairələr, vətəndaş cəmiyyətləri, qeyri-hökumət təşkilatları, icmalar və özəl sektor arasında tərəfdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

**Bəzi natiqlər müharibələrin, münaqişələrin və fəlakətlərin şəhərlərə, mənzil, infrastruktur və təməl xidmətlərə təsirini, eləcə də köçkünlük və humanitar çətinliklər barədə danışıblar.** Nümayəndə heyətləri həmçinin münaqişədənsonrakı dövrdə aparılan yenidənqurma və bərpa proseslərinin vacibliyinə toxunublar. Bu xüsusda onlar oxşar kontekstlərdə aktual ola biləcək nümunə kimi, münaqişədənsonrakı yenidənqurma sahəsində Azərbaycanın təcrübəsini alqışlayıblar və bu səylərdə Azərbaycanla həmrəyliklərini ifadə ediblər. Nazirlər həmçinin WUF13-də Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı, Beynəlxalq Miqrasiya Təşkilatı və Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzi ilə birgə əməkdaşlıqla hazırladığı "Təhlükəsiz qayıdış üçün ağıllı, davamlı yaşayış məskənləri" təşəbbüsünün planlaşdırılan təqdimatını alqışlayıblar. WUF13-də davamlı bərpa üçün beynəlxalq səviyyədə tanınmış standartları müəyyən etməyi və həssas ölkələrin beynəlxalq inkişaf və iqlim maliyyələşdirməsinə daha geniş çıxışını asanlaşdırmağı hədəfləyən 4SRP təlimatlarını və meyarlarını hazırlamaq vəzifəsi daşıyan xüsusi bir işçi qrupunun yaradılmasının planlaşdırılmasına dəstək ifadə edilib.

**Səmərəli icranın əsas hərəkətverici amilləri arasında idarəetmə, planlaşdırma və maliyyələşdirmə xüsusi vurğulanıb.** Nümayəndə heyətləri daha yaxşı çoxsəviyyəli koordinasiya, səlahiyyətləndirilmiş yerli hökumətlər, daha güclü planlaşdırma sistemləri və daha proqnozlaşdırılabilən maliyyələşdirmənin tətbiq olunmasına çağırış ediblər. Layihənin hazırlanması, icrası və şəhər monitorinqinin dəstəklənməsi də daxil olmaqla, bacarıqların artırılması dəfələrlə vurğulanıb. Rəqəmsal texnologiyalar digər icra hərəkətverici qüvvələrinə nisbətən daha az qeyd edilib ki, bu da əlavə mübadilə, praktik tövsiyələr və bacarıqların inkişafının faydalı ola biləcəyi bir sahəni göstərir.

**Milli bəyanatlarda növbəti onilliyin öhdəliklərdən daha genişmiqyaslı şəkildə icraya keçməli olduğu vurğulanıb.** Bu, daha güclü maliyyə, daha güclü qurumlar və daha güclü tərəfdaşlıq tələb edəcəkdir. Bu, həmçinin milli öhdəlikləri insanların həyatında nəzərəçarpacaq irəliləyişlərə çevirməyə imkan verən praktik vasitələr, yerli potensial, məlumat sistemləri və hesabatlılıq mexanizmləri tələb edəcəkdir.

***Üç panel müzakirədən əsas məqamlar***

Günortadan sonrakı panellərdə bu müzakirələr Yeni Şəhər Gündəliyinin üç transformativ öhdəliyi prizmasından daha geniş təhlil edilib.

**Sosial inteqrasiya üçün mənzil və yoxsulluğun aradan qaldırılması mövzusunda keçirilən** birinci paneldə torpaq və mənzilin insan hüquqları və sosial və şəhər ədalətinin sütunları kimi qəbul edilməli olduğu vurğulanıb. Natiqlər bildiriblər ki, müzakirələr yalnız mənzillərin sayı ətrafında deyil, mənzilin keyfiyyəti, icmaların gücü və insanları iş, təhsil, xidmətlər və imkanlarla əlaqələndirən sosial infrastruktur məsələlərin həlli üçün aparılmalıdır.

Bu panel sessiyada mənzil, infrastruktur, yoxsulluğun azaldılması və dayanıqlılığı özündə ehtiva edən inteqrasiya olunmuş yanaşmalar vasitəsilə qeyri-rəsmi yaşayış məntəqələrinin təkmilləşdirilməsinin zəruriliyi vurğulanıb. Natiqlər həmçinin özəl investisiyaların mühüm rol oynadığını, lakin ictimai maraqlarla uyğunlaşdırılmalı və gentrifikasiyaya və ya əhalinin yerdəyişməsinə səbəb olmamalı olduğunu diqqətə çatdırıblar.

**Şəhərlərin inkişafı üçün mənzil təminatı və hamı üçün imkanlar mövzusunda keçirilən** ikinci panel sessiyada mənzil təminatı əsas iqtisadi və sosial infrastruktur kimi vurğulanıb. Natiqlər mənzil siyasətinin insan mərkəzli və tələbatyönümlü, iş yerləri, təhsil, səhiyyə, nəqliyyat, təhlükəsizlik, xidmətlər və yerli dolanışıqla əlaqəli olmalı olduğunu bildiriblər. Bu paneldə mənzil təminatının təcrid olunmuş layihələrdən miqyaslı, əlaqələndirilmiş şəhərmiqyaslı və ölkəmiqyaslı sistemlərə keçməli olduğu qeyd edilib.

İştirakçılar həmçinin əlverişli torpaq sahələrinin təqdim olunmasının, inklüziv və çevik maliyyələşdirmə sistemlərinin gücləndirilməsinin, qeyri-rəsmi yaşayış yerlərinin iqtisadi rolunun tanınmasının zəruruliyini vurğulayıblar. Ən kasıb sakinləri nəzərə alan şəhər hər kəs üçün daha yaxşı şəhərdir.

**Ekoloji cəhətdən davamlı və dayanıqlı şəhər inkişafı üçün mənzil məsələsinə həsr olunmuş** üçüncü panel sessiyada iqlim böhranının həm də mənzil böhranı olduğu vurğulanıb. Natiqlər qeyd ediblər ki, qeyri-rəsmi yaşayış məntəqələrində yaşayan 1 milyarddan artıq insan ekstremal hava hadisələrinə çox məruz qalır və adətən, əsas xidmətlərə çıxışdan məhrum olur. Bu panel sessiyada evlərin və infrastrukturun necə planlaşdırılması, tikilməsi, təkmilləşdirilməsi və yenidən qurulması ilə bağlı qərarların emissiyaları azalda, dayanıqlığı gücləndirə və eyni zamanda həyat keyfiyyətini yaxşılaşdıra biləcəyi diqqətə çatdırılıb.

İştirakçılar milli iqlim strategiyaları, Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr, Milli Uyğunlaşma Planları və uzunmüddətli strategiyalar da daxil olmaqla, mənzil siyasəti ilə iqlim siyasəti arasında daha sıx uyğunlaşmaya çağırış ediblər. Onlar həmçinin daha çox iqlim maliyyələşdirilməsinə, daha güclü yerli potensiala, daha yaxşı layihə hazırlığına, çoxsəviyyəli idarəetməyə və icmalar, yerli hökumətlər, inkişaf bankları, mənzil birlikləri və özəl sektorla tərəfdaşlığa ehtiyac olduğunu vurğulayıblar.

***Növbəti onillik üçün prioritetlər***

Gün ərzində aparılan müzakirələrdə Yeni Şəhər Gündəliyinin icrasının qalan onilliyi üçün bir neçə prioritet ortaya çıxıb.

**Birincisi, adekvat, əlverişli, təhlükəsiz və iqlim dəyişmələrinə davamlı mənzil təminatı, o cümlədən sosial mənzil, kirayə mənzil, ictimai mənzil təminatı, icmaəsaslı yanaşmalar, aşağı və ortagəlirli ailələrə dəstək vasitəsilə milli və yerli inkişaf strategiyalarının mərkəzində yerləşdirilməlidir.**

**İkincisi, öhdəliklər icra mexanizmləri ilə uyğunlaşdırılmalıdır.** Bu, daha aydın hesabatlılıq, texniki dəstək, layihənin hazırlanması, məlumat sistemləri və ölçülə bilən izləmə tələb edir.

**Üçüncüsü,** əlverişli mənzil təminatı maliyyəsi, bələdiyyə maliyyəsi, iqlim və inkişaf maliyyəsi, güzəştli maliyyə, qarışıq maliyyələşdirmə, özəl sektor tərəfdaşlığı, həssas ölkələr və regionlar üçün proqnozlaşdırılabilən dəstək daxil olmaqla, **şəhər maliyyələşdirilməsi gücləndirilməlidir.**

**Dördüncüsü, mənzil təminatı daha geniş şəhər və ərazi planlaşdırması ilə inteqrasiya olunmalı,** bu, onu torpaq, infrastruktur, xidmətlər, mobillik, iş yerləri, ictimai məkanlar, sosial siyasət, iqlim dəyişikliyinə davamlılıq və yerli iqtisadi inkişafla əlaqələndirməlidir.

**Beşincisi,** şəhərlər və icmalar enerjiyə qənaət edən binalar, su və sanitariya, davamlı mobillik, təmiz enerji, daşqınların idarə olunması, sahilyanı ərazilərin dayanıqlılığı, fəlakət risklərinin azaldılması və risklərə əsaslanan köçürülmə daxil olmaqla, **dayanıqlı, yaşıl və azkarbonlu infrastruktura daha çox investisiya qoyuluşuna ehtiyac duyurlar.**

**Altıncısı,** yerli hökumətlərin daha güclü çoxsəviyyəli idarəetmə, bələdiyyə potensialı, maliyyə mərkəzsizləşdirilməsi, iştirakçı planlaşdırma, şəhər və regionların qərar qəbuletmədə daha aydın rolları vasitəsilə səlahiyyətləri artırılmalıdır.

**Nəhayət,** icra insanlara yönəlmiş və inklüziv olaraq qalmalı, xüsusilə qadınlara, gənclərə, yaşlılara, əlilliyi olan şəxslərə, miqrantlara, köçkün əhaliyə, qeyri-rəsmi işçilərə, aztəminatlı ailələrə, gecəqondu sakinlərinə, torpaqsız icmalara, böhran və ya iqlim risklərinə məruz qalan icmalara xüsusi diqqət yetirilməlidir.

**Yekun**

**Zati-aliləri, həmkarlar.**

Bugünkü müzakirələr Yeni Şəhər Gündəliyinin yalnız aktual deyil, həm də zəruri olduğunu bir daha təsdiqlədi. İcranın ilk onilliyi mühüm təcrübələr, dərslər və tərəfdaşlıqlar yaratdı. İkinci onillik indi daha genişmiqyaslı şəkildə icra ilə müşayiət olunmalıdır.

Bu Nazirlər Görüşündən irəli gələn mesajlar WUF13, "Bakı Fəaliyyətə Çağırış" sənədi və 2026-cı il iyulun 16-17-də Nyu Yorkda keçiriləcək Yeni Şəhər Gündəliyinin aralıq icmalı ilə bağlı Baş Assambleyanın Yüksək Səviyyəli Görüşünə hazırlıqlarda geniş müzakirələrə yol açacaq.

Sədr kimi, bugünkü iclasdan bu aralıq dövrdən yalnız nəticələri qiymətləndirmək üçün deyil, həm də siyasi öhdəlikləri yeniləmək, icranı gücləndirmək və davamlı şəhər inkişafının mərkəzinə adekvat mənzil təminatını yerləşdirmək üçün istifadə etmək məqsədilə açıq bir çağırış eşidirəm.

Gəlin, 2036-cı ilə qədər şəhərləri və yaşayış məskənlərini inklüziv, təhlükəsiz, dayanıqlı və davamlı etmək üçün birlikdə çalışmaq istiqamətində bu dinamikanı Bakıdan Nyu Yorka aparaq və öhdəlikdən fəaliyyətə keçirək.

Çox sağ olun.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident, əziz İlham!

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə və Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

Ötən il oktyabrın 2-də Kopenhagendə görüşümüzdən və bu il mayın 21-də son telefon danışığımızdan sonra, - istər regional məsələlər üzrə dialoqumuz, istərsə də iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində əməkdaşlığımız olsun, - bütün sahələrdə ikitərəfli münasibətlərimizin tam potensialından istifadə etmək üçün onları normallaşdırmaq istiqamətində işləməyə davam etmək niyyətimi bir daha bildirmək istərdim.

Bu baxımdan, bu il 10 illiyini qeyd edən Fransız-Azərbaycan Universiteti ilə bağlı əməkdaşlığımızın nümunəvi xarakterini xüsusi vurğulamaq istəyirəm.

Ümid edirəm ki, tərəfdaşlıq ruhunda ikitərəfli münasibətlərimizin inkişafına mane olan son çətinliklərin öhdəsindən gələ biləcəyik.

Həmçinin fürsətdən istifadə edərək, regionun bütün xalqlarının rifahı naminə yeni bir səhifə açmağa imkan verəcək Ermənistan və Azərbaycan arasında sülh prosesinin davam etdirilməsinə və başa çatdırılmasına Fransanın tam dəstəyini bir daha vurğulamaq istərdim.

Cənab Prezident, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Emmanuel MAKRON,***
***Fransa Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

28 May - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Bir neçə həftə əvvəl telefon danışığımız zamanı qeyd etdiyim kimi, Almaniya ikitərəfli münasibətləri daha da genişləndirməkdə olduqca maraqlıdır. Çoxsaylı həll olunmamış münaqişələr, getdikcə sürətlənən iqlim dəyişikliyi və yeni geosiyasi gərginliklərlə səciyyələnən bu dövrdə biz birlikdə mühüm çağırışlarla üzləşirik.

Bu baxımdan Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində əldə olunan irəliləyiş xüsusilə ruhlandırıcıdır. Sizin regionda qalıcı sülhün bərqərar olması yolundakı səylərinizin tezliklə davamlı uğur qazanmasını arzu edirəm.

Azərbaycan xalqını milli bayram münasibətilə ürəkdən təbrik edir, Sizə və ailənizə ən səmimi arzularımı çatdırıram.

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün Azərbaycan xalqına İtaliya xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Dostluğun və səmərəli əməkdaşlığın çoxsaylı nümunələri, o cümlədən son zamanlardakı əlaqələrimiz Bakı ilə Roma arasında strateji tərəfdaşlığa olduqca konkret və müstəsna dəyər qazandırır. Bu tərəfdaşlıq son illərdə davamlı şəkildə inkişaf edib və başda enerji sahəsi olmaqla, qarşılıqlı maraq doğuran bir çox istiqamətləri əhatə edib.

Beynəlxalq vəziyyətin mürəkkəb çağırışlarının konstruktiv şəkildə həlli üçün dövlətlər arasında dialoqun və dinc əməkdaşlığın əhəmiyyətinə qətiyyətlə inanan və bunun vacib olduğunu hesab edən İtaliya Azərbaycan, Avropa İttifaqı və region ölkələri arasında sabitliyin, mehriban qonşuluq münasibətlərinin və qarşılıqlı etimadın təşviqinə yönəlmiş bütün təşəbbüsləri dəstəkləməyə davam edir.

Cənab Prezident, ölkənizə son səfərimi və əvvəlki görüşlərimizi böyük məmnuniyyətlə xatırlayaraq, Sizə, ailənizə, dost Azərbaycan xalqına rifah və firavanlıq arzularımı bir daha çatdırıram.

*Hörmətlə,*

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Azərbaycan ilə Avstriya arasında əla ikitərəfli münasibətlər mövcuddur. Azərbaycan və Ermənistan arasında hər iki ölkənin xalqlarının qarşılıqlı rifahı naminə davamlı sülh və təhlükəsizlik perspektivləri reallaşmağa yaxınlaşdıqca gələcək əməkdaşlıq imkanları artmaqda davam edəcək.

Çoxtərəfli kontekstdə, icazə verin, 2027-2028-ci illərdə BMT Təhlükəsizlik Şurasına üzvlük üçün Avstriyanın namizədliyinin Azərbaycan tərəfindən dəstəklənməsinə görə minnətdarlığımı bildirim.

Fürsətdən istifadə edərək, Sizə və ailənizə rifah diləyir, həmçinin Azərbaycan xalqının dinc və xoşbəxt gələcəyi ilə bağlı ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Aleksander Van der BELLEN,***
***Avstriya Respublikasının Federal Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, əziz dostum!

Serbiya Respublikası vətəndaşları adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi ürəkdən təbrik edir, ölkənizin və onun vətəndaşlarının gələcək rifahı, tərəqqisi, firavanlığı ilə bağlı ən xoş arzularımı bildirirəm.

Fürsətdən istifadə edərək Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı etimad, həmrəylik və strateji tərəfdaşlıqla xarakterizə olunan münasibətlərin inkişaf tempindən böyük məmnunluğumu ifadə edirəm.



Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü Sessiyasında iştirakım zamanı görüşümüzü xüsusi məmnunluq və minnətdarlıqla xatırlayıram. Yüksək qonaqpərvərlik və səmərəli müzakirələr ölkələrimiz arasında enerji, infrastruktur, investisiyalar və ümumi iqtisadi əlaqələr kimi əhəmiyyətli sahələrdə qarşılıqlı əməkdaşlığı daha da genişləndirmək üçün birgə səylərimizi bir daha təsdiqlədi.

Eyni zamanda ölkələrimiz arasında qarşılıqlı anlaşmanın və beynəlxalq hüquqa riayət olunmasının təsdiqi kimi yüksək qiymətləndirdiyimiz Serbiya Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasına verdiyi prinsipial və ardıcıl dəstəyə görə Azərbaycan Respublikasına səmimi təşəkkürümü bildirirəm. Serbiya Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə tam şəkildə sadiq qalır.

*Hörmətli cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Aleksandar VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Əziz Qardaşım!

Zati-alinizi və qardaş Azərbaycan xalqını ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı bildirməkdən böyük məmnunluq duyuram.

Xüsusilə qeyd etmək istərdim ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycanda bütün sahələrdə mühüm dəyişikliklər və genişmiqyaslı islahatlar həyata keçirilir, xalqın rifahı və həyat səviyyəsi yüksəlir, regionlarda böyük quruculuq və abadlıq işləri aparılır.

Bu yaxınlarda məhz Sizin təşəbbüsünüzlə gözəl və bənzərsiz Bakı şəhərində Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası olduqca yüksək səviyyədə və uğurla təşkil edildi. Bu, Azərbaycanın beynəlxalq aləmdə nüfuz və mövqeyinin getdikcə daha da möhkəmləndiyinin növbəti parlaq göstəricisidir.

Əlbəttə, son illərdə birgə və qətiyyətli səylərimiz nəticəsində ölkələrimiz arasında siyasi, iqtisadi-ticari, mədəni-humanitar və digər prioritet sahələrdə əməkdaşlığın sürətlə inkişaf etməsi, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin tamamilə yeni mərhələyə yüksəlməsi bizə böyük məmnunluq bəxş edir.

Sizinlə müntəzəm olaraq keçirdiyimiz səmərəli görüşlər və qarşılıqlı dialoq nəticəsində əldə edilən mühüm razılaşmaların tam şəkildə icra olunmasının çoxşaxəli əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminəm.

Möhtərəm İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə uzun ömür, möhkəm cansağlığı, ailə səadəti və yüksək məsuliyyət tələb edən ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə daim əmin-amanlıq, rifah və tərəqqi arzulayıram.

*Səmimi ehtiramla,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbriklərimi və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Bu xoş fürsətdən istifadə edərək, Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü Sessiyası zamanı mənə və nümayəndə heyətimə göstərilən səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm. Bolqarıstan bələdiyyələrinin 10-dan çox meri, həmçinin Bolqarıstanın ali təhsil müəssisələrinin nümayəndələrinin iştirak etdikləri sessiya ilə bağlı bizdə olduqca xoş təəssüratlar yarandı. Eyni zamanda üç ay ərzində Sizinlə keçirilən ikinci ikitərəfli görüşdən məmnunluğumu vurğulayıram. Bu, ölkələrimiz arasında ən yüksək səviyyədə intensiv siyasi dialoqun sübutudur.

Münasibətlərimizdəki müsbət siyasi dinamikanın hər iki tərəf üçün faydalı əməli nəticələrə və layihələrə çevrilməli olduğu fikrinizi tamamilə bölüşürəm. Hesab edirəm ki, enerji sahəsində əməkdaşlıqla bağlı danışıqlarımız zamanı əldə edilən razılaşmaların həyata keçirilməsi, Bolqarıstan şirkətlərinə Azərbaycanın təbii qazının tədarükünün artırılması, həmçinin Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında "yaşıl enerji"nin quru yolla ötürülməsi üçün ikinci enerji dəhlizinin müzakirə olunan potensialı münaqişələr və qeyri-sabitlik səbəbindən sarsılmış bugünkü dünyada zəruri investisiyalardır. Sənaye zonaları və texnoloji parklar sahəsində tərəfdaşlıq münasibətlərinin intensivləşdirilməsi, eyni zamanda xalqlarımız arasında təhsil və mədəniyyət sahələrində əlaqələrin genişləndirilməsi də Bolqarıstan üçün vacib prioritet sahələrdir.

Sizi Bolqarıstanda qonağımız kimi qəbul etmək, Veliko Tırnovo şəhərində "Şuşa Parkı"nın dostluq münasibətlərimizin parlaq rəmzi olaraq birgə açılışını etmək mənim üçün şərəf olardı.

Yaxın gələcəkdə zati-alinizi Bolqarıstanda salamlamaq imkanımın olacağı ümidi ilə Sizə və ailənizə cansağlığı, ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

***İliyana YOTOVA,***
***Bolqarıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Pakistan İslam Respublikasının hökuməti və xalqı adından, həmçinin şəxsən öz adımdan zati-alinizə, Azərbaycan Respublikasının hökumətinə və qardaş xalqına Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Pakistan və Azərbaycan ortaq dini etiqadımız, zəngin mədəni irsimiz və ümumi dəyərlərimizdən güc alan dərin qardaşlıq münasibətləri ilə bir-birinə bağlıdır. İllər ərzində ikitərəfli əlaqələrimiz qarşılıqlı etimad, anlaşma və bir-birimizin əsas milli maraqlarına dair məsələlərdə qətiyyətli dəstəyə əsaslanan möhkəm və davamlı tərəfdaşlığa yüksəlmişdir.

Pakistan xalqı zati-alinizin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycan Respublikasının əldə etdiyi mühüm sosial-iqtisadi tərəqqi və rifaha ürəkdən sevinir. Qardaş xalqlarımızın qarşılıqlı maraqları naminə, xüsusən ikitərəfli ticarət, enerji bağlantıları, müdafiə və insanlararası əlaqələr sahələrində çoxtərəfli əməkdaşlığımızı daha da dərinləşdirməyə və şaxələndirməyə qətiyyətlə sadiqik.

Fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah arzulayıram.

*Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Asif Əli ZƏRDARİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

İsrail Dövləti və vətəndaşları adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram. Qoy qürur duyduğumuz bu bayram günü dövlətiniz və xalqınız üçün daha bir sülh, rifah ilinin başlanğıcı olsun!

Azərbaycanla strateji cəhətdən həyati əhəmiyyətli və fəal inkişaf edən əlaqələrimiz İsraildə yüksək dəyərləndirilir. Bu, təkcə siyasətlə məhdudlaşmır, xalqlarımız arasında səmimi dostluq münasibətləri də mövcuddur.

Sizi dost adlandırmaq mənim üçün xüsusi şərəfdir və mən açıq, səmimi dialoqumuza böyük dəyər verirəm. İlin əvvəlində Davosda Sizi görmək fürsətini səmimi-qəlbdən qiymətləndirirəm.

Ortaq bölgəmizdə bir çox çətinliklər var və Azərbaycan ilə İsrail bu mürəkkəb mühitdə sabitliyin iki lövbəri rolunu oynayır. Bundan başqa, mən qəti şəkildə inanıram ki, sıx, ikitərəfli əlaqələrimiz Avrasiyada bir çox digər iştirakçılara müsbət təsir göstərir.

Bu baxımdan, iqtisadi əməkdaşlığımızda, xüsusilə də enerji sahəsində nail olduğumuz əhəmiyyətli irəliləyişlər barədə məlumat əldə etməkdən çox məmnun oldum. Ümid edirəm ki, əlaqələrimiz növbəti ildə də möhkəmlənməyə davam edəcək.

Qoy qarşıdan gələn il böyük Azərbaycan dövləti və onun xalqı üçün davamlı uğurlar və tərəqqi ili olsun!

*Hörmətlə və ən xoş arzularla,*

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə İspaniya Hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Cənab Prezident, Sizə cansağlığı, sevimli Azərbaycan xalqına sülh, firavanlıq və tərəqqi arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***VI FELİPE,***
***İspaniyanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

İsveçrə Federal Şurası və İsveçrə xalqı adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi çatdırıram. Həmçinin ölkənizin və xalqınızın xoşbəxt, uğurlu gələcəyi ilə bağlı ən xoş arzularımı bildirirəm.

Azərbaycan və İsveçrə möhkəm ikitərəfli əlaqələrə malikdir. Əminəm ki, Cənubi Qafqazda müsbət dəyişiklikləri nəzərə alaraq, bu əlaqələrimiz qarşıdakı illərdə də konstruktiv şəkildə inkişaf edəcəkdir.

*Zati-aliləri, Sizə olan yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Gi PARMELİN,***
***İsveçrə Konfederasiyasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

İndoneziya Respublikasının Hökuməti və xalqı adından, həmçinin şəxsən öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə zati-alinizə və xalqınıza ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram.

Dərin və mürəkkəb geosiyasi dəyişikliklərlə səciyyələnən müasir dövrdə Azərbaycan özünü sabitliyin və tərəqqinin mühüm sütunlarından biri kimi uğurla təsdiq etmişdir. Avropa ilə Asiyanın strateji kəsişməsində yerləşən Azərbaycanın təşəbbüskar diplomatiyası, transmilli əlaqələrin inkişafında mühüm rolu və qlobal enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfə ölkənizin müasir beynəlxalq arenada əvəzolunmaz əhəmiyyətini nümayiş etdirir.

İndoneziya Azərbaycanı yalnız dost ölkə kimi deyil, həm də qlobal reallıqların idarə olunmasında mühüm tərəfdaş kimi qiymətləndirir. Ortaq dəyərlərimizi və qarşılıqlı maraqlarımızı nəzərə alaraq, İndoneziya ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsinə sadiqdir. Ticarət, enerji və sosial-mədəni əlaqələr kimi əsas sahələrdə yeni əməkdaşlıq imkanlarının genişləndirilməsini səbirsizliklə gözləyirik. Əminəm ki, həm ikitərəfli kontekstdə, həm də çoxtərəfli platformalarda sıx əməkdaşlığımızı davam etdirməklə ölkələrimiz yalnız xalqlarımız üçün daha böyük faydalar yaratmayacaq, eyni zamanda qlobal sülhə və davamlı inkişafa mühüm töhfələr verəcəklər.

Zati-alinizə möhkəm cansağlığı və davamlı müvəffəqiyyət, Azərbaycan xalqına isə sülh, rifah və firavanlıq arzularımı səmimiyyətlə çatdırıram.

*Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Prabovo SUBİANTO,***
***İndoneziya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Əlamətdar bayram – ölkənizin müstəqilliyinin 108-ci ildönümü münasibətilə zati-alinizə və hörmətli Azərbaycan xalqına səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu il Malayziya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 33-cü ildönümünü qeyd edirik. İkitərəfli münasibətlərimizin inkişafından məmnunam və əminəm ki, bu əməkdaşlıq ruhu hər zaman xalqlarımızın rifahı üçün faydalı olacaqdır. Malayziya ikitərəfli əlaqələrimizi daha da möhkəmləndirməyə və inkişaf etdirməyə sadiq qaldığını bir daha təsdiqləyir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və rifah, Azərbaycan vətəndaşlarına sülh və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Əlahəzrət Sultan İBRAHİM,***
***Malayziyanın Kralı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyət, qardaş Azərbaycan xalqına və hökumətinizə daha böyük tərəqqi, firavanlıq arzulayıram.

Dəyər verdiyimiz ikitərəfli münasibətlərimizin daha da inkişaf etməsi və möhkəmlənməsi ilə bağlı səmimi istəyimi bir daha ifadə edir, Fələstin məsələsində Azərbaycanın mövqeyini yüksək qiymətləndirdiyimi bildirirəm.

Sizi və xalqınızı, həmçinin müqəddəs Qurban bayramı münasibətilə təbrik edir və ən xoş salamlarımı qəbul etməyinizi xahiş edirəm.

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

❖ ❖ ❖

Hörmətli Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza Xorvatiya Respublikasının Hökuməti adından və şəxsən öz adımdan təbriklərimi çatdırıram.

Xorvatiya Respublikası dialoq, qarşılıqlı hörmət və əməkdaşlıq yolu ilə müxtəlif sahələrdə ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsinə böyük əhəmiyyət verir. Əminəm ki, Xorvatiya ilə Azərbaycan arasındakı dostluq və strateji tərəfdaşlıq xalqlarımızın rifahı naminə birgə səylərimizlə daha da dərinləşəcək.

Xorvatiya Respublikası ümumi əməkdaşlığımızı xüsusən də ticarət və enerji təhlükəsizliyi sahələrində daha da gücləndirməkdə maraqlıdır. İqtisadi əlaqələrimiz böyük əhəmiyyət kəsb edir, xüsusilə Xorvatiya və Azərbaycan şirkətləri arasında daha sıx əməkdaşlığı təşviq etmək və qarşılıqlı investisiyaları artırmaqla mühüm inkişaf potensialına malikdir.

*Cənab Prezident, bayram münasibətilə Sizə ən xoş arzularımı bir daha çatdırır, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Andrey PLENKOVİÇ,***
***Xorvatiya Respublikasının Baş naziri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, Azərbaycanın Müstəqillik Günü münasibətilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı adından və şəxsən öz adımdan zati-alinizi təbrik edim. Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram. Qoy, xalqınız həmişə sülh və firavanlıq içində yaşasın.

*Ən yüksək ehtiramla,*

***Qu DONQYU,***
***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Baş direktoru***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bu tarixi gün Azərbaycan xalqının müstəqillik və suveren inkişafla bağlı sarsılmaz iradəsinin rəmzinə çevrilib.

Bu gün Azərbaycan dinamik tərəqqi yolunda inamla irəliləyir, iqtisadi, sosial sahələrdə böyük uğurlar qazanır və beynəlxalq arenada öz nüfuzunu möhkəmləndirir.

Əminəm ki, Sizin ali dövləti vəzifənizdə fəaliyyətiniz Azərbaycan Respublikasının daha da inkişafına və Müstəqil Dövlətlər Birliyi çərçivəsində çoxplanlı səmərəli əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcək.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, rifah, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Sergey LEBEDEV,***
***Müstəqil Dövlətlər Birliyinin Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Türk Mədəniyyəti və İrsi Fondu adından və şəxsən öz adımdan zati-alinizi və Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə ürəkdən təbrik etməkdən dərin məmnunluq duyuram. Sizə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Azərbaycan xalqına daim tərəqqi və firavanlıq arzu edirəm.

Bu əlamətdar gün Azərbaycan xalqının şanlı tarixinin, güclü iradəsinin və müstəqilliyə olan sarsılmaz inamının rəmzidir. Bu gün Azərbaycanın müstəqilliyi Sizin rəhbərliyinizlə daha da möhkəmlənib. Azərbaycan hazırda beynəlxalq arenada öz sözünü demiş bir dövlət kimi layiqli yerini tutur.

Təşəbbüsünüzlə yaradılmış Türk Mədəniyyəti və İrsi Fondu türk dünyasının birliyini, ortaq mədəni irsimizin qorunmasını və gələcək nəsillərə ötürülməsini qürurla həyata keçirir. Azərbaycan bu böyük türk ailəsinin iftixar qaynağı, mədəniyyəti, dili və tarixi ilə türk dünyasının möhkəm sütunlarından biridir. Zati-aliniz tərəfindən Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, dilinin, mədəni irsinin qorunması sahəsində görülən işlər türk dünyasının tərəqqisinə əvəzsiz töhfədir.

Bu münasibətlə xüsusilə qeyd etmək istərdim ki, 1926-cı ildə Bakıda təşkil olunmuş Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında sərəncamınız son dərəcə tarixi əhəmiyyət daşıyır. Həmin sərəncam türk xalqlarının intellektual birliyinin, ortaq elminin, mədəniyyətinin və dilinin dərin köklərini dünyaya bir daha nümayiş etdirən mühüm siyasi iradənin ifadəsidir. Fond olaraq biz də bu tarixi hadisənin layiqincə qeyd edilməsi üçün öz töhfəmizi verməyə hazırıq və bu istiqamətdə müvafiq işlər aparırıq.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edərək, Sizi və Azərbaycan xalqını Qurban bayramı münasibətilə də ürəkdən təbrik edir, zati-alinizə möhkəm cansağlığı, bütün dualarınızın və qurbanlarınızın qəbul olunmasını arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Aktotı RAİMKULOVA,***
***Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

BP şirkəti adından Sizi və Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda dünya miqyaslı enerji layihələrini təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirməkdən qürur duyuruq. Bu layihələrin uğurlu icrasında Sizin davamlı dəstəyiniz, həmçinin SOCAR və Azərbaycan hökuməti ilə qurulmuş etibarlı və strateji tərəfdaşlıq münasibətləri mühüm rol oynayır.

Biz SOCAR ilə uzunmüddətli tərəfdaşlığımızın qarşıdakı onilliklər ərzində daha da genişlənərək həm Xəzər regionunda, həm də onun hüdudlarından kənarda yeni əməkdaşlıq imkanları yaradacağına əminik.

BP olaraq, Azərbaycanın enerji təhlükəsizliyinə, dayanıqlı inkişafına və regional əməkdaşlığın möhkəmləndirilməsinə bundan sonra da töhfə vermək öhdəliyimizə sadiq qalırıq.

Bu əlamətdar gün münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və uğurlar, Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Cio KRİSTOFOLİ,***
***BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya 28 May - Müstəqillik Günü münasibətilə təbrik

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. İndoneziya bu mühüm milli bayram münasibətilə Azərbaycan xalqının sevincinə qoşulur və ölkənizin milli inkişafın, rifahın və regional sabitliyin möhkəmləndirilməsi istiqamətində əldə etdiyi davamlı nailiyyətləri yüksək qiymətləndirir.

Dəyişən qlobal geosiyasi dinamika dövründə Azərbaycan regionları birləşdirən körpü və regional bağların, enerji əməkdaşlığının, dialoqun təşviqində konstruktiv tərəfdaş kimi strateji əhəmiyyətini nümayiş etdirməkdə davam edir. İndoneziya Azərbaycanın regional və beynəlxalq səviyyədə sabitliyin və əməkdaşlığın təşviqində artan rolunu yüksək dəyərləndirir.

İndoneziya ilə Azərbaycan arasında qarşılıqlı hörmətə, ortaq maraqlara, sülhə və inkişafa sadiqliyə əsaslanan səmimi dostluq münasibləri var. Hesab edirəm ki, ticarət və investisiya, təhsil, mədəniyyət, turizm və xalqlarımız arasında birbaşa təmaslar, həmçinin regional və çoxtərəfli platformalarda əməkdaşlıq daxil olmaqla, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin daha da möhkəmləndirilməsi üçün mühüm potensial mövcuddur.

Zati-alinizə möhkəm cansağlığı və yeni uğurlar, Azərbaycan xalqına isə davamlı sülh, rifah və firavanlıq arzulayıram.

*Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Gibran Rakabuminq RAKA,***
***İndoneziya Respublikasının vitse-prezidenti***

# Baş nazir Əli Əsədov ilə Rusiya Federasiyası Hökumətinin sədri arasında telefon danışığı olub

**Mayın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı olub.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, hökumət başçıları Azərbaycan-Rusiya qarşılıqlı fəaliyyətinin əsas istiqamətləri və bir sıra sahələrdə birgə təşəbbüslərin təşviqi məsələləri ətrafında ətraflı fikir mübadiləsi aparıblar.

Tərəflər geniş istiqamətlər üzrə ikitərəfli əməkdaşlığın ardıcıl inkişafında qarşılıqlı maraqlı olduqlarını təsdiq ediblər.

# “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 161** **Bakı şəhəri, 26 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I); 2024, № 1, maddə 116, № 2, maddə 208, № 5 (II kitab), maddə 612; 2025, № 4 (II kitab), maddə 406, № 5, maddə 520, № 10, maddə 993, № 2 (II kitab), maddələr 1233, 1257) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "İxrac nəzarətinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndə "yoxlanılmasından" sözündən sonra ", habelə ixrac nəzarətinə düşən malların "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar tərəfindən və ya onların xeyrinə ixracına, idxalına, təkrar ixracına, təkrar idxalına, tranzitinə yol verilməməsinə nəzarət edilməsindən" sözləri əlavə edilsin;

1.2. 4-cü hissəyə "nəzarət" sözündən sonra ", habelə müvafiq malların "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar tərəfindən və ya onların xeyrinə ixracına, idxalına, təkrar ixracına, təkrar idxalına, tranzitinə yol verilməməsinə nəzarət" sözləri əlavə edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xüsusi icazənin verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.1-ci yarımbəndin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, hüquqi ünvanı, təsisçilərinin (fiziki şəxs olduqda), benefisiar mülkiyyətçilərinin, qanuni təmsilçisinin soyadı, adı, atasının adı (olduğu təqdirdə), doğum tarixi, fərdi identifikasiya nömrəsi və ya şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, təsisçilərinin (hüquqi şəxs olduqda) adı, olduğu yer, habelə xüsusi icazənin alınması ilə həyata keçirilən xarici iqtisadi əməliyyatın növü;";

2.2. aşağıdakı məzmunda 2.4.2-1-ci yarımbənd əlavə edilsin:

"2.4.2-1. sifarişçinin, sifarişçi hüquqi şəxs olduqda onun təsisçilərinin, benefisiar mülkiyyətçilərinin, habelə qanuni təmsilçilərinin "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısına aid olduğu müəyyən edildiyi hallarda;";

2.3. 6.3.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.3.8-ci yarımbənd əlavə edilsin:

"6.3.8. sifarişçi, sifarişçi hüquqi şəxs olduqda onun təsisçiləri, benefisiar mülkiyyətçiləri, habelə qanuni təmsilçiləri "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısına daxil edildikdə.".

3. Həmin Qərarla təsdiq edilmiş "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xarici iqtisadi əlaqələrin həyata keçirilməsinə xüsusi icazənin verilməsindən əvvəl və sonra yoxlamaların aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2.3-cü yarımbəndə "siyahısında olub-olmamasını" sözlərindən sonra ", habelə ərizəçinin (sifarişçinin) və müqabil tərəfin, ərizəçi (sifarişçi) və müqabil tərəf hüquqi şəxs olduqda onların təsisçiləri, benefisiar mülkiyyətçiləri, habelə qanuni təmsilçilərinin "Həfədli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısında olub-olmamasını" sözləri əlavə edilsin;

3.2. 3.1.1.1-ci yarımbəndin birinci abzasına "istifadə edilməsinə" sözlərindən sonra ", malların son istifadəçisinin, malların son istifadəçisi hüquqi şəxs olduqda onun təsisçiləri, benefisiar mülkiyyətçiləri, habelə qanuni təmsilçilərinin "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısına daxil olub-olmamalarına," sözləri əlavə edilsin;

3.3. 3.1.1.2-ci yarımbəndə "yetirilməsinə" sözündən sonra ", malların son istifadəçisinin, malların son istifadəçisi hüquqi şəxs olduqda onların təsisçiləri, benefisiar mülkiyyətçiləri, habelə qanuni təmsilçilərinin "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısına daxil olub-olmamalarına" sözləri əlavə edilsin.

4. Həmin Qərarla təsdiq edilmiş "İkili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.1.3-cü yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.4-cü yarımbənd əlavə edilsin:

"2.1.4. xüsusi icazə sahibinin və ya ikili təyinatlı malların son istifadəçisinin, xüsusi icazə sahibi və ya ikili təyinatlı malların son istifadəçiləri hüquqi şəxs olduqda onların təsisçiləri, benefisiar mülkiyyətçiləri, habelə qanuni təmsilçilərinin "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısına daxil edilib-edilməməsinin yoxlanılması.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ceyhun Bayramov kubalı həmkarı ilə görüşüb

**Mayın 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Nyu York şəhərinə işgüzar səfəri çərçivəsində Kuba Respublikasının xarici işlər naziri Bruno Eduardo Rodrigez Parrilya ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı münasibətlərin inkişafından məmnunluq ifadə olunaraq, son illər ölkələrimiz arasındakı əlaqələrdə müşahidə olunan müsbət dinamika ətrafında müzakirələr aparılıb.

Ölkələrimiz arasında tarixi və mədəni əlaqələrin mövcud olduğu qeyd edilib, təhsil və səhiyyə sahələrində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Bununla yanaşı, iki ölkə arasında çoxtərəfli platformalarda, o cümlədən BMT, Qoşulmama Hərəkatı (NAM) və Karib Hövzəsi Birliyi (CARICOM) çərçivəsində əməkdaşlıq perspektivləri və Azərbaycanın inkişaf etməkdə olan kiçik ada dövlətlərinə (SIDS) göstərdiyi humanitar və inkişafa yardım dəstəyi barədə müzakirələr aparılıb. Ölkəmiz tərəfindən Kubaya edilən humanitar yardıma və təhsil təqaüdlərinə görə təşəkkür ifadə olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər, o cümlədən Karib hövzəsində və Yaxın Şərqdə təhlükəsizlik vəziyyəti ətrafında fikir mübadiləsi aparılıb.

# MSK 2026-cı ilin daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinə yekun vurub

**Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, cari ilin əvvəlindən ölkə üzrə vahid seçicilər siyahısının tərtibi və dəqiqləşdirilməsi prosesinə başlanılıb.**



AZƏRTAC xəbər verir ki, təxminən beş ay davam edən əhatəli prosesin ardından 2026-cı il üzrə daimi seçici siyahılarının hazırlanmasına yekun vurulub.

Seçki qanunvericiliyində müəyyən olunur ki, daimi seçici siyahıları hər ilin əvvəlindən etibarən müvafiq icra hakimiyyəti orqanları, bələdiyyə qurumu başçıları və hərbi hissə komandirləri tərəfindən təqdim edilən məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib olunduqdan sonra Mərkəzi Seçki Komissiyasına təqdim edilməlidir. Bu istiqamətdə atılan zəruri addımların ardınca seçici siyahıları mayın 30-dək müvafiq seçki komissiyaları tərəfindən təsdiqlənməli və dövlət avtomatlaşdırılmış informasiya sistemindən istifadə edilməklə ictimailəşdirilməlidir. Builki proses də Seçki Məcəlləsinin sözügedən tələblərinə tam uyğun şəkildə həyata keçirilib.

2026-cı il üzrə siyahıların tərtibi və dəqiqləşdirilməsinə aşağı seçki komissiyalarının 38 mindən artıq üzvü cəlb olunub. Eyni zamanda bütün proses boyunca Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin aidiyyəti orqanları, yerli icra strukturları və bələdiyyələrlə sıx əməkdaşlıq edilib. Bu müddətdə MSK-nın "115" Çağrı mərkəzi və rəsmi internet səhifəsindəki onlayn müraciət imkanı da fasiləsiz olaraq seçicilərin istifadəsində olub.

Ənənəvi olaraq bu il də seçici siyahılarının hazırlanması və dəqiqləşdirilməsi zamanı informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərindən, həmçinin texniki baxımdan daha da təkmilləşdirilmiş xüsusi proqram təminatlarından geniş istifadə edilib. Bu isə prosesin bütövlükdə daha operativ və effektiv aparılmasına, seçici siyahılarının yüksək standartlara uyğun hazırlanaraq çap edilməsinə mühüm töhfə verib.

Mayın 26-da Mərkəzi Seçki Komissiyasının üzvləri media nümayəndələrinin iştirakı ilə komissiyanın inzibati binasında yenidən tərtib edilmiş vahid seçici siyahılarına baxış keçirib, həmçinin siyahıların hazırlanması və saxlanılması prosesi ilə tanış olublar. Bildirilib ki, seçici siyahılarının yenidən tərtibi, yoxlanılması və dəqiqləşdirilməsi zamanı fasiləsiz onlayn rejimdə fəaliyyət göstərən dövlət avtomatlaşdırılmış informasiya sisteminin imkanlarından geniş istifadə edilib. "Seçkilər" informasiya şəbəkəsi vasitəsilə həyata keçirilən interaktiv ani məlumat mübadiləsi seçici siyahıları ilə bağlı işlərin operativliyini artırıb. Bununla yanaşı, seçicilərin məlumatlarının orfoqrafik yoxlanılması, təkrar və oxşar məlumatların təhlili, mövcud nöqsanların aradan qaldırılması, eləcə də siyahıların keyfiyyətli hazırlanması və çapı təmin olunub.

Daha sonra Məzahir Pənahovun sədrliyi ilə MSK-nın iclası keçirilib. İclasda 2026-cı ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiqi və ictimailəşdirilməsi məsələsinə baxılıb. Müzakirələr zamanı informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə olunmasının seçici siyahılarının dəqiqləşdirilməsi prosesinin daha da təkmilləşdirilməsinə və səmərəliliyin artırılmasına mühüm təsir göstərdiyi xüsusi vurğulanıb.

İclasda ilin əvvəlindən may ayının sonunadək həyata keçirilən genişmiqyaslı fəaliyyət barədə ətraflı məlumat verilib. MSK sədri Məzahir Pənahov dəqiqləşdirmə prosesinə yaxından köməklik göstərən Daxili İşlər Nazirliyinə, Ədliyyə Nazirliyinə, yerli icra hakimiyyəti orqanlarına və digər aidiyyəti qurumlara təşəkkürünü bildirib.

Komissiyanın qərarı ilə 2026-cı ilin daimi seçici siyahılarının tərtibi və dəqiqləşdirilməsi işi başa çatmış hesab olunub. Siyahıların müvafiq seçki komissiyaları tərəfindən təsdiq edilməsi üçün aidiyyəti üzrə dairə seçki komissiyalarına göndərilməsi, tərtib olunan seçici siyahılarının qanunvericiliklə müəyyənləşdirilmiş qaydada və müddətdə təsdiqlənməsi işinin dairə seçki komissiyalarına həvalə edilməsi qərara alınıb. Həmçinin ölkə üzrə seçicilərin daimi siyahısının dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək, Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiqləndikdən sonra komissiyanın internet saytında yerləşdirilməklə ictimailəşdirilməsinə qərar verilib.

Dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 6 milyon 332 min 229 seçici daxil edilib ki, onların da 47,6 faizi kişi, 52,4 faizi isə qadınlardır.

Media mənsubları tərəfindən geniş işıqlandırılan iclasda həmçinin MSK-nın 2025-ci il oktyabrın 15-də və 2026-cı il aprelin 27-də keçirilmiş iclaslarının protokolları təsdiq olunub.

QƏRAR № 2/5

# Mərkəzi Seçki Komissiyasının 2025-ci il 15 oktyabr və 2026-cı il 27 aprel tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2025-ci il 15 oktyabr və 2026-cı il 27 aprel tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*26.05.2026*

QƏRAR № 2/6

# Azərbaycan Respublikasında 2026-cı ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiq olunması və ictimailəşdirilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 46-cı maddəsinin tələblərinə uyğun olaraq, hər ilin əvvəlindən etibarən daimi seçici siyahıları müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib olunur.

Seçici siyahıları növbəti mərhələdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilir, bu istiqamətdə müvafiq işlər aparıldıqdan sonra həmin siyahılar may ayının 30-dək aidiyyəti seçki komissiyaları tərəfindən təsdiq olunur və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək ictimailəşdirilir.

Cari il üzrə seçici siyahılarının tərtib edilməsi işi Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada aparılmaqla yekunlaşdırılıb. Hazırda onların aşağı seçki komissiyaları tərəfindən təsdiqlənməsi və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilməklə ictimailəşdirilməsi mərhələsi başlanıb.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 46.1-ci və 46.12-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikasında 2026-cı ilin daimi seçici siyahılarının tərtib olunması və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək, siyahılar qanunvericiliyə uyğun olaraq təsdiqlənməsi üçün müvafiq dairə seçki komissiyalarına göndərilsin.

2. Tərtib olunan seçici siyahılarının qanunvericiliklə müəyyənləşdirilmiş qaydada və müddətdə təsdiqlənməsi işinin təşkili müvafiq dairə seçki komissiyalarına həvalə edilsin.

3. Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısı dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək, Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiqləndikdən sonra Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməklə ictimailəşdirilsin.

4. Qərarın icrası Mərkəzi Seçki Komissiyasının Katibliyinə və dairə seçki komissiyalarına həvalə olunsun.

5. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*26.05.2026*

# Beynəlxalq Barbekü Festivalı yenidən Şamaxıda

**Şamaxıda növbəti Beynəlxalq Barbekü Festivalına hazırlıqlar başlayıb.**

AZƏRTAC xəbər verir ki, iyunun 13-14-də keçiriləcək festival Şamaxı Rayon İcra Hakimiyyəti, Nəsimi Bağları Kompleksi və "Abqora" restoranının dəstəyi ilə təşkil olunur.

Mədəni mübadilə və qastronomik turizmin genişləndirilməsinə yönələn festivalda müxtəlif ölkələrdən tanınmış şef-aşpazlar iştirak edəcək, möhtəşəm barbekü təqdimatları və dünya mətbəxinin ləziz nümunələri təqdim ediləcək.

Kulinariya bayramında fərqli mətbəx mədəniyyətləri ilə daha yaxından tanış olmaq, iştirakçılar arasında ünsiyyəti genişləndirmək, fərqli təamları dadmaq imkanı yaradılacaq.

Pavilyonlarda peşəkar şeflər dünya mətbəxinin zənginliyini təqdim edəcək, kulinariya məharətlərini bölüşəcək, "Barbekü və Manqal" dueti, "Steyk şou", musiqili proqram təqdim olunacaq. Qeyd edək ki, ötən il Şamaxıda ilk dəfə keçirilən Beynəlxalq Barbekü Festivalı kütləviliyi və rəngarəngliyi ilə yadda qalmışdı. Builki festival da ziyarətçilərə maraqlı və zəngin proqram vəd edir.

Festivala biletlər iTicket.az-da satışdadır.

## Milli Məclisin iclasında

# Parlamentin yaz sessiyası başa çatdı

**Mayın 26-da Milli Məclisin yaz sessiyasının sonuncu plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, ötən bir neçə gün ərzində Azərbaycan yenidən beynəlxalq birliyin diqqət mərkəzində oldu. Bakı şəhəri BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasına evsahibliyi etdi. Bu cür mötəbər beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasətin yeni uğuru oldu.**




Sessiyada dünya ölkələrindən rekord sayda - altmış minə qədər nümayəndənin iştirak etməsi etibarlı tərəfdaş və qlobal dialoq məkanı kimi Azərbaycanın nə qədər böyük etimad qazandığını bir daha nümayiş etdirdi.

Spiker diqqətə çatdırıb ki, dövlət başçısı İlham Əliyev forumun açılışında etdiyi çıxışda Bakıda və ölkəmizin digər bölgələrində müasir şəhərsalma sahəsində həyata keçirilən layihələrdən danışdı. Cənab Prezident xüsusi qeyd etdi ki, Azərbaycanda şəhərsalma ənənələri dərin tarixi köklərə malikdir. Əsrlər boyu ölkəmizdə zəngin şəhər mədəniyyəti formalaşıb, nadir memarlıq abidələri yaradılıb. Bu gün Azərbaycan tarixi irsini qorumaqla yanaşı, həm də dayanıqlı inkişafın müasir standartlarını və şəhərsalmada qabaqcıl yanaşmaları tətbiq edir.

Bu baxımdan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri müstəsna əhəmiyyətə malikdir. Qarabağda və Şərqi Zəngəzurda, sadəcə, yeni yaşayış məntəqələri deyil, həm də müasir yaşayış mühiti yaradılır.

Milli Məclisin Sədri deyib ki, əlamətdar haldır ki, 2026-cı il ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunub. Ümumdünya Şəhərsalma Forumunun məhz belə bir dövrdə keçirilməsi onu göstərir ki, şəhərsalma, memarlıq və dayanıqlı inkişaf məsələləri Azərbaycanın təkcə daxili gündəliyində deyil, həm də beynəlxalq fəaliyyətində mühüm yer tutur.

Spiker çıxışında forumun işində Milli Məclisin deputatlarının iştirakını xüsusi qeyd edərək bildirib ki, onlar panel sessiyalarında fəal iştirak etmiş, müzakirələrdə maraqlı çıxışlar etmişlər. O, diqqətə çatdırıb ki, dayanıqlı inkişafın parlament ölçüsü getdikcə daha böyük əhəmiyyət kəsb edir. Qanunvericilik orqanları müasir şəhərsalma, ekoloji təhlükəsizlik, ərazilərin səmərəli idarə olunması və vətəndaşların həyat keyfiyyətinin yüksəldilməsi üçün hüquqi əsasların yaradılmasında önəmli rol oynayırlar.

Sonra spiker deputatlara ötən iki həftəyə yaxın dövrdə başçılığı ilə parlament nümayəndə heyətlərinin iki səfəri barədə qısa məlumat verib. Bildirilib ki, mayın 14-də Özbəkistanın Buxara şəhərinə işgüzar səfərdə məqsəd İkinci Asiya Qadınlar Forumunda iştirak etmək idi. Spiker deyib ki, forumda etdiyi çıxışda Azərbaycan qadınlarının ölkə həyatında fəal roluna dair tədbir iştirakçılarına məlumat verib.

Spiker deyib ki, forumdakı çıxışında xüsusi olaraq vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın geniş ictimai və siyasi fəaliyyəti Azərbaycan qadınlarının cəmiyyətimizin və ölkəmizin inkişafına verdiyi mühüm töhfəni əks etdirir. Mehriban xanım Əliyevanın fəaliyyəti qadınların ictimai həyatda artan rolunu aydın şəkildə nümayiş etdirir və dövlət idarəçiliyinin ən yüksək səviyyəsində qadın liderliyinin güclü nümunəsi kimi çıxış edir.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, forumun panellərində nümayəndə heyətimizin üzvləri fəal iştirak ediblər.

Spiker qeyd edib ki, səfər çərçivəsində Özbəkistan və Türkmənistan parlamentlərinin sədrləri, habelə Birləşmiş Ərəb Əmirlikləri parlamenti sədrinin müavini ilə ikitərəfli görüşlərdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra spiker Sahibə Qafarova başçılığı ilə nümayəndə heyətinin mayın 20-dən 22-dək Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfəri barədə məlumat verib. O deyib ki, səfərdə məqsəd MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının Şura iclasında və altmışıncı plenar iclasında iştirak etmək idi.

Spiker bildirib ki, həm Şura iclasında, həm də plenar iclasda çıxış edib. Milli Məclisin Sədri Şura iclasında müzakirə edilən məsələlər barəsində Azərbaycan parlamentinin mövqeyini iştirakçılara çatdırıb. Milli Məclisin Sədri plenar iclasda etdiyi çıxışda ölkələrimizin qanunvericilik orqanları arasında dialoq və əməkdaşlığın inkişafında assambleyanın rolu haqqında fikirlərini bölüşüb.

Assambleyanın iclası çərçivəsində Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərova "Parlament əməkdaşlığının möhkəmləndirilməsinə görə" medalı təqdim olunub.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Rusiyaya işgüzar səfər çərçivəsində Qırğızıstan və Belarus parlamentlərinin sədrləri ilə ikitərəfli görüşlər keçirib. Görüşlərdə dövlətlərimiz arasında yüksəksəviyyəli əlaqələrin parlament müstəvisində də uğurla davam etdirildiyi vurğulanıb. Parlamentlər arasında ikitərəfli əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Çıxışına yekun vuran spiker Sahibə Qafarova bildirib ki, Özbəkistana və Rusiyaya işgüzar səfərlər uğurlu olub. O, bununla əlaqədar hər iki nümayəndə heyətinin üzvlərinə təşəkkürünü bildirib.

Sonra spiker Sahibə Qafarova iclasda 13 məsələnin müzakirə ediləcəyini, gündəliyin birinci məsələsinin Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2025-ci ildə fəaliyyəti haqqında məlumatının olduğunu deyib.

İclasda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bu komitənin 2025-ci ildə fəaliyyəti haqqında məlumatı slaydlar vasitəsilə təqdim edib. Bildirib ki, 2025-ci il Azərbaycanda sosial inkişafın dayanıqlığının gücləndiyi, dövlət siyasətinin daha çox insan kapitalı, ailə institutu və gender bərabərliyi üzrə inteqrasiya olunmuş modelə keçdiyi mühüm bir dövr kimi xarakterizə olunur.

Komitə sədri ötən il Azərbaycan Prezidenti tərəfindən təsdiq edilmiş, "Gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı"nın bu sahədə yeni mərhələ açdığını vurğulayıb. Qeyd edib ki, hesabat dövründə gender bərabərliyi siyasəti üzrə qanunvericilik təkmilləşdirilmiş, institusional mexanizmlər daha sistemli xarakter almış, fəaliyyətin məzmunu daha çox insan mərkəzli və nəticəyönümlü mərhələyə keçmişdir. Dünya Bankının "Women, Business and the Law" hesabatında Azərbaycanın göstəricisinin 78,8-dən 85-ə yüksəlməsi həyata keçirilən islahatların beynəlxalq miqyasda da tanındığını təsdiqləyir.

Bildirilib ki, gender əsaslı və sosial risk göstəricilərində müşahidə olunan dinamika dövlətin tətbiq etdiyi profilaktik və preventiv mexanizmlərin səmərəli olduğunu nümayiş etdirir. Müraciətlərin azalması, mühafizə orderlərinin artması, erkən müdaxilə mexanizmlərinin genişlənməsi tendensiyaları bunun bariz nümunəsidir. Bu istiqamətdə həmçinin təhsil sisteminin, yerli icra mexanizmlərinin, ailə institutunun güclənməsinin mühüm rol oynadığı söylənilib.

İnsan kapitalının inkişafı ilə bağlı qeyd edilib ki, əmək bazarında müşahidə olunan dəyişikliklər qadınların iqtisadi fəallığının davamlı şəkildə artdığını göstərir. Belə ki, orta əməkhaqqında artım tempi, peşə hazırlığında qadınların üstünlük təşkil etməsi, özünüməşğulluq proqramlarında iştirakın genişlənməsi müsbət hal kimi qiymətləndirilir. Hazırda ali təhsildə qadınların üstünlüyünün, magistratura səviyyəsində balanslaşmanın, peşə təhsilində diversifikasiyanın müşahidə olunduğu bildirilib.

İqtisadi iştirak səviyyəsi və institusional mühitin sağlamlaşdırılması baxımından sahibkarlıq və iqtisadi aktivlik sahəsində qadınların payının artdığı, onların kənd təsərrüfatında iştirakının genişləndiyi, özünüməşğulluq proqramlarının sosial inklüzivliyinin gücləndirildiyi vurğulanıb.

Məlumata əsasən, yerli idarəetmə, QHT və media mühitinin təhlili göstərir ki, 2025-ci ildə bələdiyyələrdə qadınların təmsilçiliyi 39 faizə yaxınlaşıb, QHT sektoruna rəhbərlikdə sayı artıb, həmkarlar ittifaqlarında aktivliyi yüksəlib. Media və rəqəmsal platformalarda gender məsələlərinin daha açıq və ictimai müzakirəsinə şərait yaradılıb.

Bahar Muradova eyni zamanda ölkəmizin evsahibliyi etdiyi və beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına diqqət çəkərək, bu tədbir çərçivəsində keçirilən sessiyalarda ailə institutunun möhkəmləndirilməsi, qadınların və uşaqların təhlükəsiz, əlçatan və inklüziv şəhər mühitində yaşamaq hüququnun təminatı, sosial xidmətlərə bərabər çıxış imkanları, dayanıqlı icmaların formalaşdırılmasında gender yanaşmasının əhəmiyyətinin vurğulandığını bildirib. Forumun yekun sənədində əksini tapan prioritetlərin gender bərabərliyi məsələlərinin qlobal inkişaf gündəliyində vacib yer tutduğunu və bu istiqamətdə milli səviyyədə həyata keçirilən siyasətin beynəlxalq çağırışlarla uzlaşdığını söyləyib.

Sonra parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatı barədə rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırıb. Komitə sədri Azərbaycanda dövlət qadın siyasətinin, gender bərabərliyinin təmin edilməsinin hər zaman prioritet məsələlərdən olduğunu qeyd edib. O vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə ölkəmizdə güclü hüquqi qanunvericilik bazası əsasında qadınlar üçün bərabər imkanların yaradılması və sosial həyatın bütün sahələrində onların aktiv iştirakı üçün mühüm işlər görülür. Qeyd edilib ki, parlamentin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə müvafiq dövlət qurumlarının, vətəndaş cəmiyyətinin iştirakı ilə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun icrası ilə bağlı davamlı iclaslar, görüşlər keçirilir, müzakirələr aparılır.

Hicran Hüseynova təqdim edilən illik məlumatı yüksək qiymətləndirirək, sənədin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məsul şəxslərinin iştirakı ilə parlamentin komitə iclasında geniş müzakirə olunduğunu və baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edildiyini bildirib.

Məsələ ətrafında müzakirələrdə parlamentin komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, deputatlar Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Rizvan Nəbiyev, Məlahət İbrahimqızı, Ceyhun Məmmədov, Əli Məsimli, Elnarə Akimova, Azay Quliyev, Azər Allahverənov, Aydın Mirzəzadə, Tənzilə Rüstəmxanlı çıxış edərək, təqdim edilən sənəddə ölkəmizdə gender bərabərliyinin təmin edilməsi sahəsində görülmüş işlər barədə geniş, əhatəli məlumatların verildiyini söyləyiblər, dövlət komitəsi tərəfindən həyata keçirilən layihələri müsbət dəyərləndiriblər.

Millət vəkilləri bəzi qeyd və təkliflərini də səsləndiriblər. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qaldırılan məsələlərə münasibət bildirib.

Müzakirələrin yekununda Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2025-ci ildə fəaliyyəti haqqında məlumatı nəzərə alınıb.

Sonra Milli Məclisin Sədri bildirib ki, gündəliyin növbəti 6 məsələsi Azərbaycan Prezidentinin təqdimatları əsasında bir sıra məhkəmələrin hakimlərinin təyin və vəzifədən azad edilməsi ilə bağlıdır.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi, Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi, N.T.Əliyevin Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi, B.M.Məmmədovun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi, Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi, Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında məsələlər barədə məlumat verib.

Nizami Səfərov bildirib ki, dövlət başçısının müvafiq təqdimatlarına əsasən, 16 hakim barəsində məsələlərin müzakirəsi nəzərdə tutulub. Belə ki, hakim korpusunu təmsil edən 2 nəfərin Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri, 7 nəfərin Bakı Apellyasiya Məhkəməsinin hakimləri, 1 nəfərin Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi, 2 nəfərin Şəki Apellyasiya Məhkəməsinin hakimləri, 2 nəfərin Şirvan Apellyasiya Məhkəməsinin hakimləri təyin edilməsi, 1 nəfərin Bakı Apellyasiya Məhkəməsinin hakimi, 1 nəfərin Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi təklif olunur.

İclasda təqdim olunan 6 məsələ üzrə Milli Məclisin qərar layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib *(Milli Məclisin qərarları qəzetin bugünkü nömrəsində dərc olunub)*.

İclasda Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Daha sonra "Diplomatik xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda təsdiqlənib.

Gündəliyin sonuncu məsələsi olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Bildirilib ki, qanun layihəsi yeni qəbul edilən normativ-hüquqi aktlarda qadağan olunmuş əməllərə görə inzibati məsuliyyətin müəyyən edilməsi məqsədilə hazırlanıb. Belə ki, sənəddə narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə tibbi rəy olmadan işə qəbul edilməsinə və (və ya) əmək münasibətlərinə davam etdirilməsinə görə, eyni zamanda barəsində məlumatlandırma icraatı tətbiq edilən kolların kəsilməsi barədə yalan və (və ya) təhrif olunmuş məlumatın verilməsinə görə, həmçinin maliyyə icarəsi fəaliyyətinə dair hesabatların təqdim edilməməsinə görə, habelə ərzaq balansının tərtibi ilə bağlı zəruri məlumatların təqdim edilməməsinə görə inzibati məsuliyyət müəyyən olunur.

Bu qanun layihəsi də səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri yaz sessiyasının yekunları barədə məlumat verərək deyib ki, sessiya ərzində parlamentin on beş iclası keçirilib, əlli yeddi qanun və on doqquz qərar qəbul edilib. Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin hüquqi bazası daha da möhkəmləndirilib və təkmilləşdirilib.

Yaz sessiyasında görülmüş işlər haqqında danışarkən spiker həmişə olduğu kimi, parlamentlə hökumət arasında konstruktiv iş birliyini xüsusi vurğulayıb. O qeyd edib ki, yaz sessiyasında müxtəlif hökumət qurumlarının, o cümlədən nazirliklərin və dövlət komitələrinin nümayəndələri mütəmadi olaraq Milli Məclisin və komitələrin iclaslarına dəvət olunub, qanun layihələrinin müzakirəsi zamanı onların rəyləri dinlənilib.

Spiker bildirib ki, sessiya dövründə Milli Məclisdə bir konfrans keçirilib. Regional məsələlər komitəsinin təşkil etdiyi həmin tədbirdə "Azərbaycanda regionların, yerli demokratiyanın və özünüidarəetmənin inkişafında Heydər Əliyev irsi" mövzusu ilə bağlı fikir mübadiləsi aparılıb.

Sessiya dövründə böyük ictimai əhəmiyyət daşıyan məsələlərin müzakirəsi və qanun layihələrinin keyfiyyətinin daha da yüksəldilməsi məqsədilə ictimai dinləmələr keçirilməsi praktikası davam etdirilib və dörd bu cür tədbir təşkil olunub.

Spiker çıxışında deyib ki, sessiya dövründə Milli Məclis bəzi xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın suverenliyinə qarşı yönələn hərəkətlərə kəskin münasibətini bildirib. Parlamentin səlahiyyət dairəsinə daxil olan bir sıra təyinat məsələləri də həll edilib. Diqqətə çatdırılıb ki, yaz sessiyasında Milli Məclisin nəzarət funksiyasının yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər görülüb. Belə ki, Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin, Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun, Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları da dinlənilib.

Spiker bildirib ki, Milli Məclisdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində də lazımi tədbirlər həyata keçirilib və sessiya ərzində parlamentdə on minə qədər vətəndaş müraciətinə baxılıb.

Parlamentin Sədri nəzərə çatdırıb ki, yaz sessiyasında parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində zəruri tədbirlər həyata keçirilib. Yəni ötən dörd ayda Milli Məclisin əlli səkkiz deputatı iyirmi doqquz ölkəyə yüz on səfər həyata keçirib. Deputatlarımız doqquz beynəlxalq təşkilatın tədbirlərində iştirak və çıxış ediblər.

Millət vəkillərimiz Qazaxıstanda keçirilən referendumu və Macarıstanda keçirilən parlament seçkilərini də müşahidə ediblər.

Otuz doqquz ölkənin və səkkiz beynəlxalq təşkilatın qırx səkkiz nümayəndə heyəti, ümumən üç yüz iyirmi yeddi nəfər xarici qonaq Milli Məclisdə olub.

Spiker bildirib ki, yanvar ayından bəri Milli Məclis Sədrinin iki ölkəyə rəsmi və səkkiz ölkəyə işgüzar səfərləri olub. Milli Məclisdə isə Sədr bir ölkənin dövlət başçısı, bir ölkənin baş naziri, dörd ölkənin parlament sədrləri, iki beynəlxalq təşkilatın rəhbərləri, üç ölkənin hökumət nümayəndələri, dörd dövlətin Azərbaycandakı səfirləri ilə görüşlər keçirib. Aparılan danışıqlarda ikitərəfli və çoxtərəfli parlamentlərarası əlaqələr və digər məsələlər müzakirə edilib.

Hesabat dövründə Milli Məclis dörd beynəlxalq tədbir təşkil edib. Onların üçü Bakıda keçirilib. Belə ki, fevralın 24-də Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin onuncu üçtərəfli iclası, aprelin 7-də TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının on üçüncü iclası, aprelin 9-da Azərbaycan, Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin dostluq qruplarının üçüncü iclası keçirilib.

Dördüncü tədbir isə - aprelin 15-də Türkiyə Respublikasının İstanbul şəhərində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin beşinci konfransı Milli Məclisin təşkilatçılığı ilə keçirilib.

Toplantıda otuz dörd ölkədən və doqquz beynəlxalq təşkilatdan qırx üç nümayəndə heyəti, ümumən iki yüz beş nümayəndə iştirak edib.

Milli Məclisin Sədri xatırladıb ki, konfransda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin institusional inkişafı yolunda mühüm addım atılıb. Şəbəkənin mənzil-qərargahının yaradılması və onun Bakı şəhərində yerləşdirilməsi qərara alınıb.

Spiker onu da qeyd edib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə hazırda Milli Məclis sədrlik edir. Milli Məclisin sədrlik etdiyi digər təşkilat isə İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasıdır.

Eyni zamanda bu il Milli Məclis İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Parlament İttifaqının 20-ci konfransının sədridir. İyun ayında əlli dörd üzvü olan bu təşkilatın konfransı Bakıda keçiriləcək.

Spiker onu da deyib ki, Azərbaycan Milli Məclisinə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verilib. Bununla əlaqədar mayın 7-də assambleyanın üzvü və tərəfdaşı olan parlamentlərin sədrlərinin Monteneqroda keçirilən birinci sammiti çərçivəsində mərasim də təşkil olunub.

Milli Məclisin Sədri bildirib ki, yaz sessiyası dövründə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında, Milli Məclis ilə Bəhreyn Krallığının Nümayəndələr Şurası, Mərakeş Krallığının Müşavirlər Palatası, Slovakiya Respublikasının Milli Şurası arasında Anlaşma memorandumları da imzalanıb.

Sonra spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, mayın 27-də xalqımız islam aləminin ən müqəddəs bayramlarından biri olan Qurban bayramını, mayın 28-də isə Müstəqillik Gününü qeyd edəcək.Yüz səkkiz il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması xalqımızın zəngin dövlətçilik potensialının yeni tarixi şəraitdə təzahür etməsi idi. Demokratik və dünyəvi dövlət quruculuğu yolunda atılan inamlı addımlar təkcə ölkəmizin deyil, bütün müsəlman Şərqinin siyasi təkamülündə mühüm rol oynadı.

Bu günün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi Azərbaycan xalqının demokratik düşüncəyə və həyat tərzinə, ümumbəşəri dəyərlərə bağlı olduğunu göstərirdi.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı ənənələrdən bəhrələnərək 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdi. Təəssüf ki, ovaxtkı ölkə rəhbərliyinin qeyri-peşəkarlığı nəticəsində Azərbaycan çıxılmaz problemlər məngənəsinə düşmüşdü. Müstəqil dövlətçiliyin itirilməsi təhlükəsi tam real idi.Məhz belə bir şəraitdə, 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə ali dövlət hakimiyyətinə qayıtdı. Onun misilsiz idarəçilik məharəti, əzmkarlığı və yorulmaz səyləri nəticəsində dövlətin qarşısında dayanan ağır problemlər həll edildi. Azərbaycan sistemli böhrandan çıxıb ardıcıl inkişaf yoluna qədəm qoydu.

Spiker vurğulayıb ki, Ümummilli Liderimizin inkişaf strategiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Onun həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanı gələcəyə inamla baxan, geniş bir bölgədə söz sahibi olan qüdrətli dövlətə çevirib.

Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və birgünlük antiterror əməliyyatında əldə edilən möhtəşəm qələbələr nəticəsində erməni işğalına son qoyulub, dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açılıb, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsi dəyişib.

Əminliklə söyləmək olar ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan dövləti qarşıdakı illərdə daha böyük uğurlara imza atacaq, dünyanın sayılıb-seçilən ölkələri sırasında yerini daha da möhkəmləndirəcəkdir.

Milli Məclisin Sədri Qurban bayramı və Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlanmasını təklif edib. Spikerin təklifi alqışlarla qarşılanıb.

Çıxışına yekun vuran spiker Sahibə Qafarova Qurban bayramı və Müstəqillik Günü münasibətilə deputatlara və parlamentin fəaliyyətini işıqlandıran media nümayəndələrinə də təbriklərini çatdırıb. O, Milli Məclisin yaz sessiyasının uğurla başa çatması ilə əlaqədar səmərəli iş üçün deputatlara təşəkkür edib və parlamentin yaz sessiyasını bağlı elan edib.

İclasın sonunda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

***"Azərbaycan"***

# Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Abdullayev İlkin Qismət oğlu,
Qarayev Sənan Məmməd oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə və III hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Abdullayev Elşən Uğur oğlu,
Əliyeva Aytən Heydər qızı,
Hüseynov Elməddin Mirpaşa oğlu,
Hüseynov Telman Qulaməli oğlu,
İsmayılzadə Fərid Sabir oğlu,
Qafarova Rəna Nazim qızı,
Nuriyev Elnur Aləm oğlu.

2. Sadıqov Vahid Nəriman oğlu vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# N.T.Əliyevin Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsinə və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Nural Turab oğlu Əliyev vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# B.M.Məmmədovun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Bilal Mahir oğlu Məmmədov vəzifəsi dəyişdirilərək Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şəki Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Əsgərov Anar Əlifağa oğlu,
Mustafayev Etibar Mustafa oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şirvan Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Ağabəyov Nicat Rauf oğlu,
Hacızadə Fəxri Hümmət oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində ustad dərsi





**Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində bəstəkar və pianoçu Sevda Rəhimovanın iştirakı ilə uşaqlar üçün xeyriyyə musiqi ustad dərsi keçirilib. Tədbir "Qüsursuz Nitq" Nitq və Psixologiya İnkişafı Mərkəzi tərəfindən təşkil olunub.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Alona Əliyeva iştirak edib.

Ustad dərsi çərçivəsində gənc iştirakçılar valehedici musiqi, səs və ritm dünyası ilə tanış olublar, müxtəlif musiqi alətlərinin xüsusiyyətləri haqqında məlumat əldə ediblər və yaradıcı və interaktiv məşğələlərə qatılıblar.

Tədbirdə çıxış edən "Ümidlə gəl" xeyriyyə layihəsinin rəhbəri Hacı Quliyev deyib ki, Heydər Əliyev Fondu, xüsusən də Leyla Əliyeva tərəfindən sağlamlıq imkanları məhdud olan uşaqlara dəstəyin göstərilməsi həmişə xüsusi əhəmiyyət kəsb edir.

Onun sözlərinə görə, həyata keçirilən layihələr bu vacib ənənəni davam etdirməyə, uşaqların inkişafı və yaradıcı potensiallarının üzə çıxarılması üçün əlverişli mühit yaratmağa yönəlib.

H.Quliyev dəstəyə ehtiyacı olan uşaqlara göstərdiyi daimi diqqət və qayğıya görə Leyla Əliyevaya minnətdarlığını bildirib, onun təşəbbüslərinin və dəstəyinin bu cür sosial layihələrin həyata keçirilməsində mühüm rol oynadığını vurğulayıb.

Sevda Rəhimovanın rəhbərliyi ilə keçirilən tədbirdə uşaqlar yeni biliklərin əldə edilməsi ilə yanaşı, həm də yaradıcı və ilhamverici bir atmosferdə vaxt keçirdilər.

Proqramda həmçinin Rəşid Behbudov adına 2 nömrəli Bakı Musiqi Məktəbinin şagirdlərinin ifasında musiqi nömrələri də səsləndirilib.

# Leyla Əliyeva və Arzu Əliyeva Lənkəranda uşaq evini ziyarət ediblər





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Lənkəran şəhərində Osman Mirzəyev adına 5 saylı Uşaq evi sosial xidmət müəssisəsini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva və Arzu Əliyeva müəssisədə tərbiyə alan uşaqlarla görüşüb, onlarla səmimi söhbət edib və gündəlik məşğuliyyətləri ilə maraqlanıblar. Görüş çərçivəsində uşaqlarla birlikdə dulusçuluq nümunələri hazırlanıb. Onlar uşaqların yaradıcılıq prosesini izləyib, onlarla xoş vaxt keçirib və hədiyyələr təqdim ediblər.

Daha sonra uşaqlar üçün animasiya filmləri nümayiş olunub. Leyla Əliyeva və Arzu Əliyeva uşaqlarla birlikdə filmləri izləyiblər.

"Azərbaycan Animasiya Assosiasiyası" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə uşaqlara "İsi və Piti" animasiya serialının bölümləri, eləcə də müxtəlif maarifləndirici və əyləncəli animasiya filmləri təqdim olunub. Nümayiş olunan filmlər uşaqlar tərəfindən maraqla qarşılanıb.

Tədbir uşaqların asudə vaxtının səmərəli təşkili, onların yaradıcılıq qabiliyyətlərinin inkişafı və milli animasiya filmlərinə marağının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

# Leyla Əliyeva və Arzu Əliyeva Lənkəranda yerli sənətkarın yaradıcılığı ilə tanış olublar





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Lənkəran şəhərində dekorativ-tətbiqi sənət ustası Samir Həbibovun yaradıcılıq fəaliyyəti ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva və Arzu Əliyeva sənətkarın evində yerləşən emalatxanasında olub, onun hazırladığı dekorativ əl işlərinə baxış keçiriblər.

Görüş zamanı Samir Həbibov bədii oyma sənətinin incəlikləri, istifadə etdiyi materiallar və hazırladığı dekorativ nümunələr barədə məlumat verib. Leyla Əliyeva və Arzu Əliyeva oyma prosesi ilə tanış olub, sənətkarla birlikdə əl işləri hazırlayıblar.

Qeyd edək ki, Samir Həbibov bu qədim sənətin incəliklərini hələ uşaq yaşlarından atasından öyrənib. O, əsasən müxtəlif növ ağac materiallarından milli ornamentlərlə bəzədilmiş suvenirlər, dekorativ əşyalar və məişət üçün nəzərdə tutulan əl işləri hazırlayır.

Sənətkarın hazırladığı suvenirlər Ailə Biznesinə Asan Dəstək Mərkəzinin (ABAD) satış şəbəkəsi vasitəsilə istehlakçılara təqdim olunur.

# Leyla Əliyeva və Arzu Əliyeva Lənkəranda şəhid ailəsini ziyarət ediblər

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Lənkərana səfəri zamanı şəhid Ülfət Babazadənin ailəsini ziyarət ediblər.**



AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva və Arzu Əliyeva Vətən müharibəsi şəhidi Ülfət Babazadənin xatirəsini ehtiramla yad edib, qəhrəmanımızın həyatı, döyüş yolu, eləcə də ailənin qayğı və ehtiyacları ilə maraqlanıblar.

Qeyd edək ki, Ülfət Qabil oğlu Babazadə Lənkəran rayonunun Daştatük kəndində anadan olub. O, Vətən müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin sıralarında torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Ülfət Babazadə Xocavənd, Kəlbəcər və Şuşa istiqamətlərində aparılan döyüşlərdə igidlik göstərib. 2020-ci il noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

# "Yaşıl çay" fermer təsərrüfatı ilə tanışlıq





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Lənkərana səfəri çərçivəsində İstisu qəsəbəsində yerləşən "Yaşıl çay" fermer təsərrüfatında olub.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva təsərrüfatın fəaliyyəti, burada yetişdirilən çay sortları və istehsal olunan məhsullarla yaxından tanış olub. Bildirilib ki, təsərrüfat Lənkəranın ənənəvi çayçılıq mədəniyyətinin yaşadılması, yerli istehsalın inkişafı və ekoloji kənd təsərrüfatının təşviqi baxımından mühüm əhəmiyyət daşıyır. Çay plantasiyasında çalışan işçilərlə birlikdə çay yığımında iştirak edən Leyla Əliyeva onlarla səmimi söhbət edib, gündəlik iş prosesi və təsərrüfatdakı fəaliyyətləri ilə maraqlanıb. Görüş zamanı xatirə şəkilləri çəkdirilib.

Fermer təsərrüfatının sahibi Araz Yağubov bildirib ki, 2006-cı ildə yaradılmış təsərrüfat 100 hektardan çox ümumi torpaq sahəsini əhatə edir. Bunun 55 hektarında çay plantasiyası salınıb. Ekoloji kənd təsərrüfatının ətraf mühitin qorunmasına, yerli istehsalın inkişafına və regionda məşğulluğun artırılmasına töhfə verdiyi vurğulanıb, təsərrüfatın aqroturizm məkanı kimi potensialı xüsusi qeyd olunub.

# Azərbaycanın orta gücə çevrilməsi geosiyasi reallıqdır

**Müasir beynəlxalq münasibətlər sistemi fundamental və sürətli transformasiya dövrünü yaşayır. Qlobal güc balansının dəyişməsi, multimodal rəqabətin kəskinləşməsi və ənənəvi beynəlxalq təhlükəsizlik institutlarının effektivliyinin azalması yeni geosiyasi reallıq formalaşdırıb. Belə bir şəraitdə beynəlxalq münasibətlər nəzəriyyəsində "orta güc" (middle power) anlayışı xüsusi aktuallıq qazanır.**

**Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, müasir dünya nizamı artıq yalnız supergüclərin diktəsi ilə idarə olunmur. Belə ki, regional və orta güclər qlobal gündəliyin formalaşmasında, böhranların idarə edilməsində və yeni logistika-enerji arxitekturasının qurulmasında getdikcə daha fəal rol oynayırlar. Məhz bu kontekstdə Azərbaycanın son illərdə keçdiyi dinamik inkişaf yolu və xarici siyasətinin təkamülü xüsusi diqqət doğurur.

Deputat bildirib ki, bu gün Azərbaycan təkcə Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya məkanının mühüm geosiyasi və geoiqtisadi aktorlarından birinə çevrilib: "Ən vacib məqam isə ondan ibarətdir ki, Azərbaycanın yüksələn statusu artıq yalnız rəsmi Bakının daxili siyasi qiymətləndirməsi deyil, dünya ölkələri, aparıcı analitik mərkəzlər və qlobal güclər tərəfindən qəbul edilən obyektiv reallıqdır. Azərbaycanın orta güc statusuna keçidi təsadüfi bir proses deyil, onilliklər ərzində ardıcıl şəkildə həyata keçirilən xarici siyasət strategiyasının məntiqi nəticəsidir. Bu transformasiyanın fundamental sütununu "strateji muxtariyyət" (strategic autonomy) təşkil edir. Rəsmi Bakı heç bir qlobal geosiyasi blokun birtərəfli təsir dairəsinə düşmədən, milli maraqlara əsaslanan balanslaşdırılmış və çoxşaxəli siyasət yürüdür.



Qoşulmama Hərəkatına uğurlu sədrlik dövrü (2019-2023) Bakının qlobal idarəetmədə institusional gücünü və diplomatik manevr imkanlarını nümayiş etdirdi. Bu strateji xətt Azərbaycana Qərb ölkələri ilə praqmatik tərəfdaşlığı qorumaq, Türk Dövlətləri Təşkilatının (TDT) əsas hərəkətverici qüvvələrindən birinə çevrilmək, Mərkəzi Asiya regionu ilə strateji inteqrasiyanı dərinləşdirmək və Qlobal Cənub ölkələri ilə effektiv dialoq platformaları qurmaq imkanı verib".

Deputatın sözlərinə görə, 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında suverenliyin tam bərpa edilməsi Azərbaycanın beynəlxalq statusunu keyfiyyətcə yeni mərhələyə daşıyıb. Azərbaycan beynəlxalq münasibətlərdə yalnız hərbi-siyasi qələbə qazanan tərəf deyil, həm də postmünaqişə mərhələsinin əsas siyasi memarı kimi çıxış edib. İndi Cənubi Qafqazda uzunmüddətli sülh və sabitlik gündəliyi kənardan diktə olunmur, məhz Bakının irəli sürdüyü 5 fundamental prinsip əsasında formalaşır. Brüssel, Vaşinqton, Moskva və digər platformalarda aparılan mürəkkəb diplomatik proseslər göstərdi ki, regionda Azərbaycanın iştirakı və razılığı olmadan hər hansı təhlükəsizlik formatının və ya iqtisadi layihənin reallaşması qeyri-mümkündür. Bu, ölkənin artıq təhlükəsizlik "istehlakçısı" (consumer) deyil, regional sabitliyin təminatçısı və təhlükəsizlik "istehsalçısı" (provider) olduğunun bariz göstəricisidir.

"Orta güc" anlayışının mühüm meyarlarından birinin də qlobal iqtisadiyyatda və logistikada əhəmiyyətli rol oynamaq olduğunu diqqətə çatdıran S.Fətəliyeva qeyd edib ki, Avropanın enerji təhlükəsizliyi arxitekturasında Azərbaycanın rolu yüksəlib: "Xüsusilə, Ukrayna böhranından sonra Avropa İttifaqının Azərbaycana münasibətində praqmatik və strateji yanaşması kəskin şəkildə güclənib. "Cənub qaz dəhlizi" və "yaşıl enerji" layihələri Bakını Avropanın strateji tərəfdaşına çevirib. Digər tərəfdən, qlobal tədarük zəncirlərinin qırıldığı bir dövrdə Azərbaycanın Orta dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) layihəsindəki mərkəzi mövqeyi ölkəmizi Şərqlə Qərb, Çinlə Avropa arasında əvəzedilməz bağlantı qovşağına çevirib. Çin, Mərkəzi Asiya dövlətləri və Avropa İttifaqı ölkələrinin bu marşruta artan marağı rəsmi Bakının geoiqtisadi çəkisini və "orta güc" iddialarını qlobal səviyyədə legitimləşdirir".

Deputat vurğulayıb ki, Azərbaycanın beynəlxalq nüfuzunun və orta güc statusunun dünya birliyi tərəfindən qəbul edilməsinin ən bariz institusional təsdiqi ölkənin irimiqyaslı qlobal tədbirlərə evsahibliyi etmək imkanıdır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasında (COP29) Bakıda yüksək səviyyədə təşkili və Ümumdünya Şəhərsalma Forumunun keçirilməsi kimi qərarlar təsadüfi deyil. Bu addımlar göstərir ki, dünya birliyi Azərbaycanı yalnız lokal maraqları olan deyil, bəşəriyyəti narahat edən qlobal problemlərin həllində məsuliyyətli, vasitəçi və təşəbbüskar aktor kimi qəbul edir. Bu, beynəlxalq münasibətlərdə orta güclərə xas olan "niş diplomatiyası"nın uğurlu tətbiqidir.

S.Fətəliyeva qeyd edib ki, Azərbaycanın orta gücə çevrilməsi sadəcə bəyanat deyil, real siyasi, hərbi və iqtisadi faktorlara əsaslanan geosiyasi reallıqdır: "Bu qanunauyğunluq daxili siyasi ritorika hüdudlarını çoxdan aşaraq, qlobal güc mərkəzlərinin regionla bağlı strateji hesablamalarında əsas amilə çevrilib. Bu gün Vaşinqtondan Pekinə, Brüsseldən Moskvaya qədər aparıcı güc mərkəzləri Azərbaycanla münasibətlərə regional miqyasdan deyil, daha geniş, Avrasiya təhlükəsizliyi müstəvisindən yanaşırlar. Lakin orta güc statusu həm də böyük məsuliyyətdir. Regional sabitliyin qorunması, müxtəlif güc mərkəzləri arasında balansın saxlanılması və yeni regional əməkdaşlıq platformalarının təşəbbüskarı olmaq Bakıdan daimi diplomatik çeviklik və strateji təmkin tələb edir. Azərbaycan müasir xarici siyasət kursu ilə bu məsuliyyəti daşımağa hazır olduğunu və yeni beynəlxalq nizamın formalaşmasında aktiv iştirakçı statusunu artıq tam təsdiqlədiyini nümayiş etdirir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Cümhuriyyət ideallarından qüdrətli Azərbaycana

**Xalqımız müstəqillik tarixinin ən şanlı, ən qürurlu, ən qüdrətli günlərini yaşayır. Bu gün müasir Azərbaycan 108 il əvvəl Xalq Cümhuriyyəti qurucularının arzuladığı, xəyal etdiyi qüdrətli dövlətə çevrilib. Vətən müharibəsindən ötən altıillik zaman kəsiyində həm də 28 May Müstəqillik Gününü bir ayrı əhvalda, təntənədə, coşquda qeyd edirik. Şanlı tariximizin dərinliklərindən gələn azadlıq nərəsi, bu gün Bütöv Azərbaycanın səmalarında əks-səda verir. 108 il əvvəl cümhuriyyət qurucularının vətən üzərində dalğalandırdıqları üçrəngli, ay-ulduzlu bayrağımız bu gün işğaldan azad edilmiş torpaqlarda, Xankəndidə, Şuşada, Xocalıda qürurla dalğalanır.**

## Dövlətçilik tarixi

Azərbaycanın dövlətçilik tarixi 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsi ilə yeni və mütərəqqi bir mərhələyə qədəm qoydu. Müsəlman Şərqində ilk parlamentli respublika kimi qurulan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) cəmi 23 aylıq fəaliyyəti dövründə fundamental islahatlara imza atdı.

Azərbaycan Xalq Cümhuriyyəti ən mürəkkəb tarixi şəraitdə milli dövlətçiliyimizin təməllərini ataraq üzərinə düşən missiyanı ləyaqətlə yerinə yetirdi. Qısa müddətdə ölkənin parlamenti, hökuməti və idarəetmə aparatı quruldu, sərhədlər müəyyən edildi, milli atributlar - bayraq, himn və gerb təsis olundu. Ordunun yaradılması, ana dilinin dövlət dili elan edilməsi və ilk universitetin açılması xalqın gələcək mədəni-ictimai yüksəlişi üçün mühüm zəmin hazırladı. İnsan bərabərliyi prinsiplərinə sadiq qalan cümhuriyyət dini və etnik fərq qoymadan bütün vətəndaşlara bərabər hüquqlar verdi. AXC-nin beynəlxalq birlik tərəfindən tanınması tarixi əhəmiyyət kəsb etdi. Məhz bu nailiyyət sayəsində 1920-ci ilin bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısı alındı.

Ötən əsrin sonunda müstəqilliyini bərpa edən Azərbaycan məhz bu zəngin irsə söykənərək yeni inkişaf mərhələsinə qədəm qoydu. Ümummilli Lider Heydər Əliyevin dövlətçilik təfəkkürü cümhuriyyət ideallarını müasir reallıqlarla birləşdirərək müstəqilliyimizi sarsılmaz etdi.

Müstəqilliyimizin qorunub saxlanılması birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyin bərpasında da Ümummilli Liderin xüsusi xidməti olmuşdur. Muxtar respublikanın Ali Sovetinin 17 noyabr 1990-cı ildə Heydər Əliyevin sədrliyi ilə çağırılan sessiyasında Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar verildi. Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı. Hələ SSRİ-nin mövcud olduğu dövrdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində üçrəngli bayrağımızın dövlət rəmzi kimi qəbul edilməsi, faktiki olaraq müstəqilliyə gedən yolun ideoloji təməli idi. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev, ölkəni vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas edərək, AXC-nin yarımçıq qalmış dövlətçilik irsini müasir dünyəvi modeldə inkişaf etdirdi. O, hər zaman vurğulayırdı ki, müasir Azərbaycan dövləti 1918-ci il cümhuriyyətinin hüquqi və mənəvi varisidir. Ümummilli Liderin uzaqgörən siyasəti sayəsində Azərbaycan sadəcə dövlətçiliyini bərpa etmədi, həm də xalqımız özünəinamını, milli kimliyini və dövlət rəmzlərini əbədiləşdirdi.

## Müstəqillik irsinin davamı

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursu bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Onun rəhbərliyi ilə son iyirmi ildə Azərbaycan öz müstəqilliyini iqtisadi qüdrətlə daha da möhkəmləndirib.

Məhz bu uzaqgörən siyasətin məntiqi nəticəsidir ki, müasir Azərbaycan dünyada nüfuzlu dövlətə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz hərbi və diplomatik cəbhədə qazandığı zəfərlərlə cümhuriyyət qurucularının arzularını tamamlayıb. Hazırda Azərbaycan beynəlxalq müstəvidə tam müstəqil siyasət yürüdən azsaylı ölkələrdən biri kimi öz sözünü qətiyyətlə deyir. Ulu Öndərin təməlini qoyduğu və Prezident İlham Əliyevin qətiyyətlə irəli apardığı müdrik siyasət müstəqilliyimizin əbədi və dönməz xarakter almasını təmin edib.

Bu dövrün ən böyük nailiyyəti 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunması və 2023-cü ilin antiterror tədbirləri nəticəsində ölkənin suverenliyinin tam təmin edilməsidir.

Prezident İlham Əliyev müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixi irsinin təbliğini və qorunmasını hər zaman dövlət siyasətinin mərkəzində saxlayır. Dövlətimizin başçısının müvafiq sərəncamları ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi və 100 illik yubileyinin yüksək səviyyədə qeyd olunması bu diqqətin bariz nümunəsidir. Eyni zamanda Prezidentin təşəbbüsü ilə qəbul edilən "Müstəqillik günü haqqında" qanunla mayın 28-nin Müstəqillik Günü elan edilməsi tarixi ədalətin bərpası və dövlətçilik ənənələrinə sadiqlik rəmzidir.

Altıncı ildir ki, Azərbaycan xalqı 28 May Müstəqillik Gününü tarixi zəfərin qüruru ilə, qalib xalq kimi qarşılayır. Bu müqəddəs bayram artıq erməni işğalından azad edilmiş doğma torpaqlarımızda da böyük coşqu ilə qeyd olunur.

Azad olunmuş torpaqlarda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın siyasi-iqtisadi müstəqilliyinin real təzahürü, dövlətimizin sarsılmaz gücünün göstəricisidir. Bu gün tam əminliklə demək olar ki, Azərbaycan öz tarixinin heç bir dövründə indiki qədər qüdrətli və əzəmətli olmayıb.

Torpaqlarımızı azad edərək Azərbaycanı bütövləşdirən qalib lider İlham Əliyev hər il 28 May Müstəqillik Günündə xalqımıza xoş müjdələr verməyi, həmin günü tarixə, ikiqat bayrama çevirməyi də ənənəyə çevirib. Dövlətimizin başçısı İlham Əliyevin quruculuğun ilk təməl daşını 28 may 2021-ci ildə Ağdamda qoyması, 2022-ci ildə Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşməsi, 2023-cü ilin Müstəqillik Günündə Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etməsi, 28 may 2024-cü ildə xocalılılarla Xocalıda görüşü müstəqillik tariximizə yazılmış qızıl səhifələrdir.

Ötən il 28 May Müstəqillik Gününün əlamətdar hadisələrindən biri strateji baxımdan mühüm əhəmiyyət kəsb edən Laçın Beynəlxalq Hava Limanının açılışı oldu. Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəmzi olaraq yaşıl lentini kəsdikləri bu Beynəlxalq Hava Limanı ümumilikdə Qarabağ və Şərqi Zəngəzurun iqtisadi dirçəlişini nümayiş etdirdi.

Bəli, ötən əsrin əvvəlində qaldırılan üçrəngli müqəddəs bayraq cəmi 23 ay dalğalansa da, xalqımızın ruhuna əbədi müstəqillik ideyası hopdurdu. 108 il əvvəl Tiflisdə imzalanan İstiqlal Bəyannaməsi ilə başlanan yol, bu gün Şuşada, Xankəndidə, Laçında... dalğalanan bayrağımızla öz məntiqi zirvəsinə çatdı.

Bütöv Azərbaycanın qalib vətəndaşları kimi qeyd etdiyimiz 28 May Müstəqillik Günü bizim üçün həm də milli birliyin və əbədi suverenliyin rəmzidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Brüssel qərəzli addımları ilə tərəfdaşlarını itirir

**Azərbaycan Milli Məclisinin Avropa Parlamenti ilə bütün istiqamətlərdə əməkdaşlığı dayandırmaq və Avronest Parlament Assambleyasından çıxmaq proseduruna başlamaq barədə qərarı Avropanın sağlam düşüncəli və prinsipial siyasətçiləri üçün gözlənilməz bir hadisə oldu. Bu addım regional reallıqları düzgün qiymətləndirən avropalı deputatlar arasında ciddi müzakirələrə yol açıb.**

Milli Məclisin bu kəskin qərarı Avropa Parlamentinin uzun illər boyu Azərbaycana qarşı mütəmadi olaraq nümayiş etdirdiyi qərəzli və düşmən mövqeyinə mütənasib bir cavabdır. AP-nin bu ilin aprelin 30-da qəbul etdiyi "Ermənistanda demokratik dayanıqlılığın dəstəklənməsi" (Supporting democratic resilience in Armenia) adlı anti-Azərbaycan ruhlu qətnaməsi isə Bakının strateji təmkininin son həddi oldu.

**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyev Avropa İttifaqının bəzi strukturlarının Azərbaycana qarşı əsassız ittihamlarını dəfələrlə ifşa edib. Dövlətimizin başçısı Avropa Siyasi Birliyinin son sammitindəki video-çıxışında açıq şəkildə bildirib ki, Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası Bakı ilə İrəvan arasında sülh prosesini açıq-aşkar sabotaj edir. "Avropa Parlamentinin destruktiv fəaliyyəti elə qurumun öz daxilində də ciddi etirazla qarşılanıb. Mayın 21-də keçirilən plenar iclasın sonunda bir qrup avropalı deputatın qurumun rəhbərliyini kəskin tənqid etməsi bunun bariz sübutudur. Avropa Parlamentinin Avronest Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Sergey Lagodinski Bakını bu qərara yenidən baxmağa çağıraraq Azərbaycanın "Şərq tərəfdaşlığı" çərçivəsində regional dialoqun əvəzolunmaz tərkib hissəsi olduğunu vurğulayıb. O qeyd edib ki, Qara dəniz strategiyası, nəqliyyat dəhlizləri, energetika, rəqəmsal infrastruktur və regional inteqrasiya layihələrinin müzakirəsi Azərbaycansız qeyri-mümkündür. Bu bəyanat ölkəmizin Avropa üçün həyati əhəmiyyət kəsb edən sahələrdə strateji tərəfdaş kimi dəyərini növbəti dəfə təsdiqlədi", - deyə o əlavə edib.



Deputat qeyd edib ki, Avropa Mühafizəkarları və İslahatçıları Qrupunun üzvü Kristian Terheşin çıxışı isə Avropa İttifaqının strukturları üçün faktiki olaraq bir ittihamnamə idi. Terheş Bakının qərarının Brüssel üçün "həyəcan təbili" olduğunu bildirərək, Avropa Parlamentini aprel qətnaməsindən Azərbaycana qarşı siyasi təzyiq aləti kimi istifadə etməkdə günahlandırdı. Xüsusilə, Azərbaycan və Ermənistanın sülh müqaviləsinə yaxın olduğu bir vaxtda Avropa Parlamentinin bu addımını uzaqgörməzlik adlandıran deputat, Avropa siyasətinin ümumi üslubunu sərt tənqid etdi: "Daimi mənəviyyat dərsi keçmək və ideoloji ittihamlara aludə olmaq xarici siyasət deyil. Bu, siyasi qeyri-yetkinlik və geosiyasi intihardır". Bu bəyanat Avropa İttifaqının dərin institusional və ideoloji böhran içində olduğunu və onun müstəqil geosiyasi oyunçu statusunu itirdiyini göstərir. Terheş, həmçinin xatırlatdı ki, Avropa məhz Azərbaycan qazı sayəsində Rusiyadan asılılığını azalda bilib. Bakı "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya ixracı ilkin 8 milyard kubmetrdən 13 milyard kubmetrə çatdırıb və bu artım dinamikası davam edir.

K.Bayramov xatırladıb ki, "Avropa Naminə Patriotlar" qrupunun üzvü Anjelin Füre öz çıxışında Bakı ilə münasibətlərdəki böhranı Avropanın regional strategiyasının tam iflası kimi xarakterizə edib: ""Azərbaycanın Avronest-i tərk etməsi sadəcə prosedur addımı deyil, strateji cəzadır. Biz sizin daxili işlərə müdaxilənizin və Ermənistana birtərəfli yanaşmanızın bədəlini ödəyirik". Fürenin bu fikirləri tarixi həqiqətlərə əsaslanır: Avropa İttifaqı onilliklər ərzində Ermənistanın işğalçılıq siyasətinə, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının tapdanmasına göz yumdu. Lakin 2020-ci ilin payızında Azərbaycan beynəlxalq hüquq və BMT Nizamnaməsi çərçivəsində öz torpaqlarını azad etdikdən sonra Avropa siyasi məkanında ölkəmizə qarşı qərəzli kampaniya başlandı. Deputat, həmçinin mühüm bir geosiyasi məqama - Cənubi Qafqazda ABŞ-nin siyasətinə toxundu. O qeyd etdi ki, AP kağız üzərində bəyanatlarla məşğul olarkən, region Avropasız yenidən formalaşır. ABŞ administrasiyası Bakı və İrəvanın maraqlarını uzlaşdıraraq iqtisadi əhəmiyyətli TRIPP marşrutu yaradıb. Bu isə o deməkdir ki, Avropa Cənubi Qafqazdakı strateji proseslərdən təcrid olunub. Təsadüfi deyil ki, hazırda Brüssel bu layihəyə qoşulmaq üçün ABŞ və Ermənistanla intensiv danışıqlar aparır".

K.Bayramov bildirib ki, deputatlar Tyeri Mariani və Tomas Frelix də eyni mövqedən çıxış edərək Avropa Parlamentinin destruktiv qətnamələri ilə alova yağ tökdüyünü deyiblər. Onların fikrincə, Bakı konstruktiv əməkdaşlığa hazır olsa da, öz legitim təhlükəsizlik qayğıları ucbatından qapıları bağlamaq məcburiyyətində qalıb. Əlbəttə ki, sağlam düşüncəli deputatların arqumentləri qarşısında ermənipərəst lobbi fəaliyyətini dayandırmadı. Deputat Pat Klausen və Avronest-in üzvü Günter Zidl kimi şəxslər Azərbaycanın qərarını "tənqidi qəbul etməmək" kimi qələmə verməyə çalışdılar, hətta Qarabağ ermənilərinin "mədəni hüquqları" mövzusunu manipulyasiya etdilər. Lakin anti-Azərbaycan isteriyası ilə zəhərlənmiş Avropa Parlamentinin divarları arasında bu cür çıxışlar təəccüb doğurmur və sadəcə müəyyən korrupsioner qrupların sifarişini yerinə yetirdiklərini göstərir.

Deputat vurğulayıb ki, beləliklə, Avropa Parlamentində baş verən bu gərgin polemika mühüm bir reallığı üzə çıxarıb: erməni lobbisinin maliyyə imkanlarına baxmayaraq, bu qurumda artıq təkzibolunmaz arqumentlərə əsaslanan və korrupsiyaya son qoymağı tələb edən səslər getdikcə ucalır. Sağlam düşüncəli avropalı siyasətçilər yaxşı anlayırlar ki, Brüssel öz qərəzli addımları ilə bütün strateji tərəfdaşlarını itirmək astanasındadır və bu siyahıda Azərbaycan ilk yerdə dayanır.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Müstəqilliyimiz etibarlı əllərdədir

**Azadlıq insanlığın ən böyük mənəvi sərvəti, müstəqillik isə xalqların şərəf və qürurudur. Tarixin bütün dövrlərində millətlər azad yaşamaq, talelərinin sahibi olmaq, milli kimliklərini və dövlətçilik hüquqlarını qorumaq uğrunda ağır mübarizələrdən keçiblər. Azərbaycan xalqı da əsrlər boyu istiqlal arzusu ilə yaşayıb, zaman-zaman imperiyaların təzyiqinə məruz qalsa da, milli ruhunu, azadlıq düşüncəsini itirməyib.**



1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını bir dövlətin elan edilməsi kimi qəbul etmək olmaz. Bu hadisə bir xalqın əsrlərlə uğrunda mücadilə etdiyi azadlıq ideallarının təntənəsi, milli iradənin və dövlətçilik təfəkkürünün möhtəşəm qələbəsi idi. 1918-ci il mayın 28-də Tiflisdə qəbul edilən İstiqlal Bəyannaməsi ilə Azərbaycan xalqı dünyaya bəyan etdi ki, o, müstəqil yaşamağa, demokratik dövlət qurmağa və öz müqəddəratını müəyyən etməyə qadirdir. Şərqdə və türk-islam dünyasında ilk parlamentli respublikanın məhz Azərbaycanda yaranması xalqımızın nə qədər mütərəqqi, demokratik və bəşəri dəyərlərə bağlılığını nümayiş etdirdi.

XX əsrin əvvəlləri dünya tarixinin ən mürəkkəb və ziddiyyətli dövrlərindən biri idi. Çar Rusiyasının süqutu, Birinci Dünya müharibəsi, imperiyaların parçalanması regionda yeni siyasi reallıqlar yaratmışdı. 1917-ci ilin fevralında Rusiyada monarxiyanın devrilməsi, Oktyabr çevrilişindən sonra isə hakimiyyətin bolşeviklərin əlinə keçməsi ilə imperiyanın ucqarlarında yaranan mürəkkəb şərait Cənubi Qafqaz xalqlarını da öz talelərini müəyyən etmək məcburiyyətində qoymuşdu. 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziya Seymi yaradıldı. Seymdə Azərbaycan türklərini təmsil edən müsəlman fraksiyası xüsusi fəallıq göstərirdi. Həmin nümayəndələr içərisində Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Əlimərdan bəy Topçubaşov kimi görkəmli şəxsiyyətlər vardı. Məhz onların qətiyyəti və siyasi uzaqgörənliyi sayəsində Azərbaycan xalqının müstəqillik ideyası reallığa çevrildi. 1918-ci il mayın 27-də Zaqafqaziya müsəlman fraksiyası ayrıca iclas keçirərək özünü Azərbaycan Milli Şurası elan etdi. Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə seçildi. Bir gün sonra - 28 may 1918-ci ildə Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən tarixi iclasda Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul olundu. Bu sənəd yalnız ölkəmizin deyil, bütövlükdə Şərqin siyasi tarixində yeni bir dövr açdı.

İstiqlal Bəyannaməsi insan hüquq və azadlıqlarını əsas götürən mütərəqqi prinsipləri özündə əks etdirirdi. Sənəddə milliyyətindən, dinindən, cinsindən və sosial mənsubiyyətindən asılı olmayaraq, vətəndaşlara bərabər hüquqlar verildiyi bəyan olunurdu. Həmin dövrdə bir çox Avropa dövlətində qadınların seçki hüququ olmadığı halda Azərbaycan Xalq Cümhuriyyəti qadınlara səsvermə hüququ vermişdi. Bu, cümhuriyyət qurucularının necə yüksək demokratik düşüncəyə sahib olduqlarının sübutu idi.

Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökuməti Fətəli xan Xoyskinin rəhbərliyi ilə formalaşdırıldı. Hökumətdə Xosrov Paşa bəy Sultanov, Məmməd Həsən Hacınski, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov kimi görkəmli şəxslər təmsil olunurdu. Bu insanlar təkcə hökumət qurmadılar, onlar Azərbaycanın gələcək dövlətçilik modelinin əsasını yaratdılar.

1918-ci il dekabrın 7-də Bakıda Azərbaycan parlamentinin ilk iclası keçirildi. Bununla Şərqdə ilk parlamentli respublika fəaliyyətə başladı. Parlamentdə müxtəlif millətlərin və siyasi qüvvələrin nümayəndələrinin təmsil olunması Azərbaycanın demokratik dövlət modelinə sadiqliyini göstərirdi. Cəmi 17 aylıq fəaliyyət dövründə parlament 145 iclas keçirərək 230-dan çox qanun qəbul etdi. Bu qanunlar dövlət quruculuğunun, insan hüquqlarının, milli təhlükəsizliyin və demokratik idarəçiliyin əsaslarını təşkil edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti ordu quruculuğuna xüsusi diqqət ayırırdı. Qısa zaman ərzində yaradılan Milli Ordu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını daşnak-bolşevik quldurlarından azad etdi. Əgər Azərbaycan Xalq Cümhuriyyəti yaranmasaydı, bolşevik Rusiyası Bakını ilhaq edərkən sıradan bir rus quberniyası kimi təqdim edəcək, xalqımızı isə dövlətçilik hüququndan məhrum etməyə çalışacaqdı. Ən yaxşı halda Azərbaycana formal muxtariyyət statusu veriləcəkdi. Lakin cümhuriyyətin mövcudluğu Azərbaycanı ayrıca dövlət subyekti kimi qəbulunu məcbur etdi.

23 aylıq cümhuriyyət dövründə təhsil və maarifçilik sahəsində də mühüm addımlar atıldı. Ana dilində tədris genişləndirildi, məktəblər açıldı, milli maarif sistemi quruldu. 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin yaradılması haqqında qanunun qəbul edilməsi isə milli tariximizin mühüm hadisələrindən biri oldu. Bu addım xalqımızın elmə, təhsilə və milli kadrlara verdiyi böyük önəmin göstəricisi idi.

Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq münasibətlərdə də mühüm uğurlar qazandı. Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris Sülh Konfransına nümayəndə heyəti göndərildi. Çətinliklərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti bir sıra dövlətlər tərəfindən de-fakto tanındı. Bu, xalqımızın diplomatiya tarixində mühüm uğuru idi.

Təəssüf ki, Azərbaycanın müstəqilliyi uzun sürmədi. 1920-ci ilin aprelində qırmızı bolşevik qoşunları sərhədlərimizi keçərək müstəqil ölkəmizi işğal etdi. Bununla da xalqımızın azadlıq arzularına ağır zərbə vuruldu. Cümhuriyyətin süqutundan sonra repressiyalar, sürgünlər, güllələnmələr başladı. Azərbaycanın ziyalıları, dövlət adamları və milli düşüncəli insanları bolşevik repressiya maşınının qurbanına çevrildilər. Bolşeviklər Azərbaycan xalqının milli yaddaşını silməyə, onun azadlıq ruhunu məhv etməyə çalışırdılar. Lakin onlar bir həqiqəti dəyişə bilmədilər - Azərbaycan xalqının qəlbində istiqlal arzusu əbədi kök salmışdı.

Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, bu xalq müstəqil yaşamağa layiq və qadirdir. Cümhuriyyət dövlətçilik tariximizdə sönməyən istiqlal məşəli yandırdı. Məhz həmin məşəl 1991-ci ildə yenidən alovlandı və Azərbaycan xalqı 71 ildən sonra dövlət müstəqilliyini bərpa etdi. Müstəqilliyimizin ilk illəri də ağır sınaqlarla yaddaşlarda iz saldı. Ermənistanın işğalçılıq siyasəti, daxili siyasi böhran və xaos ölkəni uçuruma aparırdı. Belə bir mürəkkəb zamanda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycan dövlətçiliyini xilas etdi. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində ölkədə sabitlik yaradıldı, dövlət institutları möhkəmləndirildi və müstəqilliyimizin qorunması təmin olundu.

Bu gün Azərbaycan Respublikası cümhuriyyətin siyasi və mənəvi varisi kimi onun ideallarını uğurla davam etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz öz tarixinin ən qüdrətli dövrünü yaşayır. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin edildi. Bu gün Şuşada, Laçında, Xankəndidə və işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycan bayrağı qürurla dalğalanır. İndi Azərbaycan regionun ən güclü dövlətlərindən biridir. Güclü ordu, müstəqil siyasət, dayanıqlı iqtisadiyyat və milli birlik ölkəmizin əsas dayaqlarıdır. 106 il öncə süqut etdirilən müstəqil Azərbaycan indi güclü, qüdrətli və sarsılmazdır. 1918-ci ildə qaldırılan istiqlal bayrağı bu gün suveren Azərbaycanın azad səmasında dalğalanırsa, bu, xalqımızın əyilməz ruhunun, dövlətçilik ənənələrinin və milli birliyinin təntənəsidir. Bu, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının arzularının reallığa çevrilməsi deməkdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2026-cı ilin iyun ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | 4 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 11 |
| **Musa Cəfər oğlu QASIMLI** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 10 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 1 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 3 |
| **Arzu Nəsib oğlu NAĞIYEV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 12 |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 17 |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 5 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 16 |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 12 |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 18 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 22 |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 8 |
| **Şahin Əmir oğlu İSMAYILOV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 30 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 19 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 9 |
| **Anar Camal oğlu İSGƏNDƏROV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 24 |
| **Polad BÜLBÜLOĞLU** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 25 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 29 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | 5 |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | 19 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 24 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 29 |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 23 |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 22 |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 8 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**
**Ünvan: Bakı şəhəri, Parlament prospekti 1.**
**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədilə;**
**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**
**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**
**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**
**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.**
**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05**

# Yeni dövlət proqramı kənd təsərrüfatının strateji güc mənbəyi kimi formalaşmasına xidmət edir

**Azərbaycanda aqrar sektorun dayanıqlı inkişafı, ərzaq təhlükəsizliyinin daha etibarlı təminatı, gücləndirilməsi və neftdənkənar iqtisadiyyatın genişləndirilməsi istiqamətində yeni mərhələ başlayır. Dövlətin aqrar sahəyə son illər göstərdiyi xüsusi diqqət sayəsində bu istiqamətdə həyata keçirilən islahatlar bir qədər də təkmilləşdiriləcək. Bu məqsədlə Prezident İlham Əliyev "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

Beş il ərzində həyata keçirilməsi nəzərdə tutulan yeni dövlət proqramında kənd təsərrüfatının daha müasir və dayanıqlı inkişafı üçün bir sıra mühüm istiqamətlər müəyyənləşdirilib. Sənəddə aqrar sahənin su, torpaq və digər resurslarla təminatının yaxşılaşdırılması, bu resurslardan daha səmərəli istifadə olunması əsas hədəflərdən biri kimi göstərilir. Bununla yanaşı, aqrar təhsilin, elmin və innovativ texnologiyaların inkişafı, kənd təsərrüfatı məhsullarının emalı və logistika infrastrukturunun genişləndirilməsi də prioritet istiqamətlər sırasındadır. Proqramda fermer və sahibkarlar üçün dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, kənd təsərrüfatında rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi də nəzərdə tutulur. Paralel olaraq, balıqçılıq və akvakultura sahələrinin inkişaf etdirilməsi, bu istiqamətdə istehsal imkanlarının və idarəetmə potensialının artırılması planlaşdırılır.

Sənəddə daha sonra kənd təsərrüfatında məhsuldarlığın və istehsal həcminin artırılması, ixrac imkanlarının genişlənməsi, eləcə də əlavə dəyər yaradan məhsulların istehsalı hədəflənir. Müasir texnologiyaların tətbiqi hesabına kənd yerlərində yeni iş yerlərinin yaradılması, əhalinin gəlir imkanlarının artırılması və ərzaq təhlükəsizliyinin daha çox möhkəmləndirilməsi əsas məqsədlərdən biri hesab olunur. Dövlət proqramı ümumilikdə aqrar sahənin daha innovativ və yüksək məhsuldarlığa əsaslanan inkişaf modelinə keçidini təmin etməyə yönəlib.

Dövlət başçısının imzaladığı sərəncam məhz yeni dövlət proqramının icrasını təmin etməyə və nəzərdə tutulan hədəflərin həyata keçirilməsi mexanizmlərini müəyyənləşdirməyə xidmət edir. Sənəddə xüsusilə vurğulanır ki, Azərbaycan ənənəvi təsərrüfat modelindən yüksək əlavə dəyər yaradan intensiv və texnologiya əsaslı kənd təsərrüfatına keçidi sürətləndirməlidir. Bu, daha məhsuldar əkinçilik, müasir heyvandarlıq kompleksləri, rəqəmsal idarəetmə sistemləri və innovativ aqrotexnologiyaların tətbiqi deməkdir. Proqram aqrar sektorda məhsuldarlığın artırılması ilə yanaşı, emal sənayesinin inkişafını da prioritet istiqamət kimi müəyyənləşdirir. Çünki müasir dövrdə yalnız məhsul istehsal etmək deyil, həmin məhsulu emal edib yüksək iqtisadi dəyərə çevirmək də strateji əhəmiyyət daşıyır.



Sərəncamda buğda, pambıq və heyvandarlıq sahələrinin inkişafına xüsusi diqqət ayrılması heç də təsadüfi deyil. Qlobal ərzaq bazarlarında müşahidə olunan dalğalanmalar, iqlim dəyişmələri və geosiyasi risklər fonunda ərzaq təhlükəsizliyi artıq bütün dövlətlər üçün prioritet məsələdir. Bu kontekstdə Azərbaycan da daxili istehsal imkanlarını genişləndirməklə idxaldan asılılığı azaltmağa və strateji məhsullar üzrə özünü təminetmə səviyyəsini yüksəltməyə çalışır.

Proqramın diqqət çəkən istiqamətlərindən biri də balıqçılıq və akvakulturanın inkişafıdır. Məlumat üçün bildirək ki, akvakultura su hövzələrində balıq, molyusk, xərçəngkimilər və suda yaşayan digər canlıların, eləcə də bəzi su bitkilərinin süni şəkildə yetişdirilməsi və artırılmasıdır. Son illər dünyada süni balıq yetişdirilməsi və su təsərrüfatları ərzaq təminatının vacib hissəsinə çevrilib. Azərbaycan da Xəzər dənizi və daxili su hövzələrinin potensialından daha səmərəli istifadə etməklə balıqçılıq və akvakultura sahəsini inkişaf etdirməyi qarşıya məqsəd qoyub. Bu sahənin inkişafı həm daxili bazarın tələbatının ödənilməsi, həm də ixrac imkanlarının artırılması baxımından mühüm hesab olunur.

Sənəddə fermerlər və sahibkarlar üçün nəzərdə tutulan maliyyə mexanizmləri də mühüm yer tutur. Kredit faizlərinin subsidiyalaşdırılması, investisiya layihələrinə dövlət dəstəyi və müasir texnologiyalar tətbiq edən təsərrüfatların təşviqi aqrar sahəyə investisiya marağını artırmağa hesablanıb. Bu yanaşma regionlarda yeni iş yerlərinin açılması və kənd yerlərində iqtisadi fəallığın gücləndirilməsi baxımından da əhəmiyyətlidir.

Eyni zamanda heyvandarlıq təsərrüfatlarında heyvanların identifikasiyası, yəni heyvanların hər birinin ayrıca tanınması, qeydiyyata alınması və izlənməsi kimi məlumatların elektron sistemlərə inteqrasiyası qida təhlükəsizliyi və şəffaf nəzarət mexanizmlərinin gücləndirilməsi istiqamətində mühüm addım kimi dəyərləndirilir. Bu, həm xəstəliklərə qarşı mübarizədə, həm də istehlakçılara daha təhlükəsiz məhsul çatdırılmasında vacib rol oynayacaq.

Ümumilikdə yeni dövlət proqramı Azərbaycanda aqrar sektorun modernləşdirilməsi, regionların inkişafı və dayanıqlı ərzaq təhlükəsizliyinin təmin olunması üçün uzunmüddətli yol xəritəsi hesab oluna bilər. Sənəd kənd təsərrüfatının yalnız ənənəvi sahə deyil, həm də strateji iqtisadi güc mənbəyi kimi formalaşdırılması istiqamətində dövlətin hədəflərini aydın şəkildə ortaya qoyur.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Gələcəyin şəhər nümunələri:
## Bakı Ağ Şəhər və Sea Breeze

**Bu gün Bakı özünün ən böyük şəhərsalma xəyalını gerçəkləşdirir - dünənin sənaye tozunu üzərindən atıb sabahın ekofuturist dünyasına qədəm qoyur. Paytaxtın mərkəzində, bir zamanlar neft quyularının qaraltdığı torpaqlarda indi bəyaz rəngli, fransız üslublu möhtəşəm bir renesans - Bakı Ağ Şəhər salınıb. Abşeronun mavi sahillərində isə insanla təbiətin harmoniyasını yaradan, tamamilə fərqli bir sivilizasiya - Sea Breeze lövbər atıb. Biri keçmişin yaralarını sağaldan ekoloji möcüzə, digəri isə gələcəyin yaşayış standartlarını diktə edən müasir layihələrdir.**



Bu iki ən iddialı meqalayihə bizə sadəcə yeni beton binalar və yollar təklif etmir, onlar bizim "şəhər" anlayışımızı, ekoloji təfəkkürümüzü və həyat fəlsəfəmizi kökündən dəyişir. Və Azərbaycanın urbanistik vizyonunun, iqtisadi inkişaf strategiyasının və beynəlxalq imicinin mühüm hissəsinə çevrilir.

### Qara neftdən "yaşıl şəhərə"







Bakı Ağ Şəhər Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "2006-2010-cu illərdə Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair kompleks tədbirlər planının" təsdiq edilməsi barədə fərmanının icrası çərçivəsində ölkədə həyata keçirilən irimiqyaslı şəhərsalma layihələrindən biridir.

Qeyd edək ki, ilk neft canlanmasının mirası və uzaq keçmişin şəhərsalma tədbirlərinin nəticəsi kimi Qara Şəhər XIX əsrin sonunda Bakının şərqində yaranmışdır. Sonradan bu ərazi "qara qızıl"ın emal olunması, saxlanılması və nəql edilməsi üzrə fəaliyyət göstərən müəssisələrə evsahibliyi etmişdir. Bu gün bir əsr "Qara şəhər" kimi tanınan bu sənaye zonası tamamilə yeni simaya qovuşur.

Ağ Şəhər layihəsi Bakının ən böyük urban transformasiya proqramlarından biridir. Layihənin əsas məqsədi ekoloji baxımdan çirklənmiş neft sənayesi ərazisini müasir yaşayış və biznes mərkəzinə çevirməkdir. Layihə 1650 hektar sahədə yerləşən şəhər mərkəzinin şərq hissəsinin (Qara Şəhərin) bərpa və inkişafını, həmçinin Bakının yeni müasir mərkəzinə çevrilməsini nəzərdə tutur ki, bu da investisiyaların cəlb edilməsi üçün əlavə imkanlar yaradır. Bakı Ağ Şəhər layihəsinin baş planı 10 universal şəhər tipli rayonun yaradılmasını nəzərdə tutur. Bu rayonlardan hər birində sakinlərin yaşayışı, çalışması, istirahəti və əyləncəsi üçün ən yaxşı şərait mövcud olacaqdır. Mütəxəssislərin fikrincə, Ağ Şəhərin əsas üstünlüyü plansız tikintilərin qarşısının alınmasıdır. Layihədə küçələrin eni, piyada zonaları, yaşıllıq sahələri və nəqliyyat sistemi əvvəlcədən planlaşdırılıb. Bu isə paytaxtın bir çox hissəsində müşahidə olunan xaotik urbanizmdən fərqli model təqdim edir.

Ağ Şəhər eyni zamanda "15 dəqiqəlik şəhər" konsepsiyasına yaxınlaşmağa çalışan layihə kimi qiymətləndirilir. Yəni sakinlər gündəlik ehtiyaclarını avtomobilsiz, piyada qarşılaya bilirlər. Qeyd edək ki, layihənin baş məsləhətçisi qismində mühəndis və memarlıq layihələndirilməsi üzrə dünyanın tanınmış şirkəti "Atkins" (Böyük Britaniya) çıxış etmişdir. Layihə üzərində işə azərbaycanlı mütəxəssislərlə yanaşı, əfsanəvi Norman Foster tərəfindən əsası qoyulmuş məşhur "Fosters + Partners" memarlıq şirkəti və kommersiya məkanlarının təşkilində ABŞ-nin böyük təcrübəyə malik olan tanınmış "F+A Architects" arxitektura bürosu cəlb edilmişdir. Ağ Şəhərin üstünlüklərindən biri planlı şəkildə tikilməsidir. Küçələr, yaşıllıq sahələri və nəqliyyat sistemi əvvəlcədən düşünülərək hazırlanıb. Bu isə şəhərdə daha rahat və təhlükəsiz həyat yaradır.

Bakı Ağ Şəhər layihəsinin təməlqoyma mərasimi 24 dekabr 2011-ci ildə baş tutmuşdur. Mərasimdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etmişlər. 2016-cı ildə - layihənin təməlinin qoyulmasının 5-ci ildönümündə ilk yaşayış məhəlləsi "Yaşıl Ada"nın açılışı oldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu tədbirdə də iştirak etdilər. Mərasimdə həmçinin yeni Fəvvarələr Meydanı məhəlləsində parkın təməli qoyuldu.

İdeyanın möhtəşəmliyi və görülmüş işlərin peşəkarlığı paytaxtın müasir şəhərsalmanın ən son tendensiyalarına inteqrasiyasını təmin edir və Bakı Ağ Şəhər layihəsini dünyanın qabaqcıl və müasir şəhərsalma layihələri səviyyəsinə çıxarır.

### Xəzər sahilində "dəniz mehi"

Xəzər dənizinin sahillərində Azərbaycanın memarlıq və şəhərsalma tarixinə düşəcək nəhəng bir layihə sürətlə böyüyür. İş adamı Emin Ağalarovun rəhbərliyi ilə icra olunan "Sea Breeze" layihəsi, adi yay kurortu statusunu geridə qoyaraq rəsmi olaraq "gələcəyin yaşıl şəhəri" statusunu qazanıb. Bu gün şəhərsalma və ekoloji innovasiyaları özündə birləşdirən kompleks təkcə ölkə daxilində deyil, regional miqyasda aparıcı yaşayış və turizm mərkəzinə çevrilməkdədir. "Sea Breeze" ilin bütün fəsillərində fasiləsiz fəaliyyət göstərən tamfunksional şəhər modelidir.

Hazırda ərazidə ümumi sahəsi 3,5 milyon kvadratmetrdən çox olan müasir yaşayış və qeyri-yaşayış obyektləri ucalır. "Sea Breeze"in böyümə tempi isə heyranedicidir: rəsmi master-plana əsasən, 2028-ci ilə qədər əraziyə daha 700 müasir bina əlavə ediləcək və bu, on minlərlə yeni sakinin ərazidə məskunlaşması deməkdir. Veb-saytın rəsmi inkişaf dinamikasına əsasən, şəhərcik 2026-cı ildə 750 hektar aktiv əraziyə və 50 min rezidentə malikdir. 2030-cu ilə qədər layihələrin sayının 750-yə, ümumi sahənin 1750 hektara, sakinlərin sayının isə 500 min nəfərə çatdırılması hədəflənir. Həmçinin bu il təkcə ərazinin yaşıllaşdırılmasına 50 milyon dollardan çox əlavə investisiya yatırılır.

Layihənin ən çox diqqət çəkən və qlobal reytinqlərdə iddialı olan hissəsi dənizin içində salınan 50 hektarlıq süni adadır. Aypara formasında layihələndirilən bu unikal adanın mərkəzində "Caspian Dream Liner" ucalacaq. 11 mərtəbəli nəhəng gəmi formasında tikilən bu apart-hotel və ticarət kompleksi memarlıq dünyasında yeni bir səhifə açır. Süni adada həmçinin dünyaşöhrətli hotel brendləri, yaxtalar üçün müasir marinalar və eyni zamanda 40 mindən çox tamaşaçını qəbul edə biləcək dünya səviyyəli nəhəng konsert meydançası inşa edilir.

"Sea Breeze" təkcə innovativ infrastrukturu ilə deyil, həm də regional miqyaslı mədəniyyət ocağı kimi diqqət çəkir. Şəhərcik hər yay qlobal musiqi xəritəsinin mərkəzinə çevrilərək dünyaşöhrətli ifaçıları bir araya gətirir. Bu istiqamətdə layihənin flaqmanı hesab olunan "Dream Fest" Beynəlxalq Musiqi Festivalı Avropa, Amerika, MDB və Türkiyədən onlarla məşhur sənətçini Xəzər sahilində qəbul edir. Minlərlə xarici turistin məhz bu musiqi bayramı üçün Bakıya axın etməsi, şəhərciyin beynəlxalq "lifestyle" (həyat tərzi) brendinə çevrildiyini sübut edir. Açıq səmada baş tutan möhtəşəm şoular, qırmızı xalı keçidləri və genişmiqyaslı konsert proqramları "Sea Breeze"in mədəniyyət paytaxtı statusunu daha da möhkəmləndirir. Gənc nəslin inkişafı üçün şəhərcikdə dünya standartlarına cavab verən təhsil müəssisələri fəaliyyət göstərir. Burada təməli qoyulmuş məşhur "LANDAU School" və innovativ "SABAH.school" kompleksləri gənclərə ingilis dilində, Britaniya kurrikulumu əsasında (Cambridge və Edexcel proqramları) yüksəksəviyyəli təhsil təklif edir. Hazırda kompleksdə 6 min 500-dən çox şəxs işlə təmin olunub. Layihə genişləndikcə, bu rəqəmin daha da artacağı gözlənilir. Layihəyə yatırılan ümumi investisiya artıq 3 milyard ABŞ dollarına çatıb.

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə şəhərsalma sahəsində də ardıcıl, məqsədyönlü və sistemli tədbirlər reallaşdırılır. Hazırda yeni yaradılan şəhərlərdə inkişafın, tərəqqinin nəfəsi duyulur. Bu reallıq Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimində Prezident İlham Əliyevin çıxışında da xüsusi vurğulandı. Dövlət başçısı nitqində ölkədə şəhərsalma sahəsində görülən işlərin uğurlu nəticələrindən bəhs edərkən diqqəti xüsusi olaraq "Sea Breeze" istirahət məkanına yönəltdi. Bu isə belə bir layihənin artıq Azərbaycan sərhədlərini aşaraq beynəlxalq səviyyədə tanınan, müasir şəhərsalma modelinə çevrildiyini təsdiqləyən mühüm mesaj idi.

Xatırladaq ki, Azərbaycanın beynəlxalq nüfuzunun artmasının ən bariz nümunələrindən biri də COP29 kimi mühüm tədbirə evsahibliyi etməsi idi. O zaman "Sea Breeze" ümumilikdə 4 minə yaxın qonaq qəbul edib ki, onlardan da çoxu məhz "Park Residences 2" layihəsinin binalarında yerləşib. Bu isə layihənin yüksək xidmət standartlara malik olmasının göstəricisidir.

"Agalarov Development" şirkətinin prezidenti Emin Ağalarov mediaya müsahibəsində WUF13 forumunun əhəmiyyətli beynəlxalq tədbir olduğunu xüsusi vurğulayıb. O, "Sea Breeze" layihəsinin ekoloji cəhətdən təmiz və rahat şəhərlərin necə yaradıldığına parlaq nümunə olduğunu bildirib. Onun sözlərinə görə, layihə çərçivəsində artıq bir neçə milyon kvadratmetr daşınmaz əmlak istifadəyə verilib, hazırda 4 milyon kvadratmetr ərazidə isə tikinti-abadlıq işləri görülür. Emin Ağalarov qeyd edib ki, aparıcı beynəlxalq memarlarla əməkdaşlıq genişləndirilir və əsas məqsəd sakinlər və qonaqlar üçün maksimum rahat mühit yaratmaqdır.

"Sea Breeze" layihəsinin uğuru digər ölkələri də maraqlandırır. Özbəkistan Nazirlər Kabinetinin qərarı ilə Daşkənd vilayətinin Bostanlıq rayonunda Çarvak su anbarının sahilində "Sea Breeze Uzbekistan" adlı kurort kompleksi yaradılacaq. 577 hektar sahəni əhatə edəcək bu layihənin "Sea Breeze" Azərbaycan brendi əsasında reallaşdırılması nəzərdə tutulub.

"Sea Breeze"də həyata keçirilən işlər həm də mühüm sosial rol oynayır, yeni iş yerlərinin açılmasına töhfə verir. Hazırda kompleksdə 6560 nəfər işlə təmin edilib və gələcəkdə bu rəqəmin xeyli artacağı nəzərdə tutulur.

Həm Ağ Şəhər, həm də Sea Breeze layihələri ölkənin iqtisadi şaxələndirilməsi və turizm potensialının artırılmasında strateji rol oynayır. Bu innovativ şəhərlər xarici investorlar və turistlər üçün Bakını yeni cazibə mərkəzinə çevirir. Gələcəyin şəhərləri artıq xəyal deyil, Xəzərin sahilində addım-addım gerçəkləşən real bir gələcəkdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# 2026/2027-ci tədris ili üzrə doktoranturaya yeni qəbul qaydaları açıqlanıb



**Azərbaycan Respublikasında elmi potensialın gücləndirilməsi, innovativ iqtisadiyyatın tələblərinə cavab verən yüksəkixtisaslı elmi kadrların hazırlanması dövlət siyasətinin mühüm prioritetlərindən biridir. Bu istiqamətdə atılan addımların növbəti mərhələsi olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 14 may tarixli sərəncamı mühüm hüquqi və strateji əhəmiyyət kəsb edir. Sözügedən sərəncam ilə "2026-cı il üçün doktorant hazırlığı üzrə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə, elmi müəssisə və təşkilatlara qəbul" təsdiq edilib. Bu qərar ölkəmizin elmi və akademik mühitində köklü dəyişikliklərin, struktur yenilənmələrinin və keyfiyyət islahatlarının göstəricisidir.**

Yeni təsdiq olunmuş qəbul planı və tətbiq ediləcək yeni qaydalar barədə **Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan SÜLEYMAN** "Azərbaycan" qəzetinə açıqlama verib. O, ölkəmizdə doktorantura təhsilinin həm kəmiyyət, həm də keyfiyyət baxımından tamamilə yeni bir formata keçdiyini bildirib. Qeyd olunub ki, həmin islahatların əsas hədəfi elmi tədqiqatların səmərəliliyini artırmaq, gənc tədqiqatçıları stimullaşdırmaq və respublikanın elmi müəssisələri ilə ali təhsil ocaqları arasında inteqrasiyanı gücləndirməkdir.

Turxan Süleyman diqqətə çatdırıb ki, təsdiq edilmiş plana əsasən, 2026/2027-ci tədris ili üçün respublika üzrə doktorantura səviyyəsinə ümumilikdə 1388 yer ayrılıb: "Bu rəqəm ölkəmizdə elmi fəaliyyətə marağın və dövlət tərəfindən bu sahəyə ayrılan diqqətin əhəmiyyətli dərəcədə artdığını sübut edir. Ötən ilin müvafiq dövrü ilə müqayisə apardıqda, qəbul yerlərinin sayında kəskin artım dinamikası müşahidə olunur. Belə ki, qəbul yerlərinin sayı ötən illə müqayisədə 213 yer, yəni təxminən 18 faiz artırılıb. Bu genişlənmə ölkəmizin müxtəlif sahələr üzrə artan elmi kadr tələbatının ödənilməsinə xidmət edir".

Şöbə müdiri qeyd edib ki, struktur baxımından coğrafi və institusional şaxələnmə kifayət qədər genişdir. Cari tədris ilində qəbul prosesi respublika üzrə 90 müəssisəni əhatə edəcək. Bura ölkənin qabaqcıl universitetləri ilə yanaşı, müxtəlif profilli elmi-tədqiqat institutları və mərkəzləri də daxildir. Qəbulun planlaşdırıldığı elmi istiqamətlərin spektri də olduqca genişdir, belə ki, namizədlərə təxminən 300-ə yaxın fərqli ixtisas üzrə tədqiqat aparmaq imkanı yaradılır. Ayrılmış ümumi yerlərin təsisat daxili bölgüsünə nəzər saldıqda aydın olur ki, yerlərin böyük hissəsi akademik mühitə yönəldilib. Belə ki, plan yerlərinin 65 faizi ali təhsil müəssisələrinin, 35 faizi isə elmi müəssisə və təşkilatların (müxtəlif elmi-tədqiqat institutlarının) payına düşür.

Bildirilib ki, 2026/2027-ci tədris ili üzrə doktorantura qəbulunun ən mühüm və inqilabi xüsusiyyətlərindən biri təhsilin maliyyələşmə modelinin tamamilə dəyişdirilməsidir. Elm və Təhsil Nazirliyinin rəsmisinin qeyd etdiyi kimi, son 2 ildə ölkə üzrə ali təhsil müəssisələrinin doktorantura səviyyəsinə qəbul olan bütün şəxslər istisnasız olaraq yalnız dövlət sifarişi hesabına - tamamilə ödənişsiz əsaslarla təhsil alırlar. Bu, 2026/2027-ci tədris ilində də qətiyyətlə davam etdiriləcək. Növbəti tədris ili üçün ali təhsil müəssisələrinə müraciət edən və qəbul imtahanlarından uğurla keçən bütün doktorantların yalnız dövlət sifarişi üzrə qəbulu proqnozlaşdırılır. Bu addım elmlə məşğul olmaq istəyən istedadlı gənclərin qarşısındakı maliyyə maneələrini tamamilə ortadan qaldırır. Eyni zamanda son iki ildə həyata keçirilən digər bir struktur islahatı ondan ibarətdir ki, doktorantura səviyyəsi üzrə qəbul prosesi yalnız və yalnız fəlsəfə doktoru proqramı üzrə aparılır və bu təcrübə növbəti ildə də qorunub saxlanılacaq. Beləliklə, dövlət resursları hədəfəyönümlü şəkildə birbaşa elmi dərəcə iddiaçılarının keyfiyyətli tədqiqatlarına yönəldilir.

Turxan Süleyman qeyd edib ki, 2026-cı ilin doktorantura islahatları sırasında təhsil tarixində ilk dəfə tətbiq olunacaq ən böyük yenilik SABAH proqramı çərçivəsində fəlsəfə doktoru hazırlığının planlaşdırılmasıdır. Bu innovativ proqram ölkəmizdə elmi kadr hazırlığının beynəlxalq standartlara inteqrasiyasını sürətləndirmək məqsədi daşıyır və bir neçə xüsusi göstəriciyə malikdir. Beynəlxalq qabaqcıl təcrübəyə əsaslanaraq yaradılmış bu yeni modeldə ilk dəfə olaraq tədris əsaslı kredit sistemi ilə fəlsəfə doktoru hazırlığı proqramları pilot olaraq tətbiq ediləcək. Ənənəvi doktorantura proqramlarından fərqli olaraq, SABAH fəlsəfə doktoru hazırlığı proqramında tədris müddəti minimum 4 il olaraq müəyyən edilib. Proqramın daxili strukturu iki əsas mərhələyə bölünür: İlk 2 il (1-ci və 2-ci tədris illəri) - Tədqiqat və konkret ixtisas yönümlü fənlərin dərindən tədrisi, nəzəri bazanın formalaşdırılması və kreditlərin toplanması həyata keçirilir. Növbəti 2 il (3-cü və 4-cü tədris illəri) - Hər hansı əlavə fənn tədrisi olmadan, yalnız dissertasiya mövzusu üzrə müstəqil elmi tədqiqatın aparılması və tamamlanması planlaşdırılır.

Nazirlik rəsmisi vurğulayıb ki, SABAH fəlsəfə doktoru hazırlığı proqramına qəbul yalnız dövlət sifarişi əsasında və müstəsna olaraq əyani təhsilalma forması üzrə həyata keçiriləcək. Bu proqramın iştirakçıları üçün maddi və sosial təminat paketi hazırlanıb. Belə ki, bu proqrama qəbul olan gənc tədqiqatçılara qanunvericiliklə müəyyən edilmiş standart doktorantura təqaüdü ilə yanaşı, əlavə olaraq yüksək məbləğdə "SABAH təqaüdü" də veriləcək. Eyni zamanda, doktorantlar qəbul olduqları ali təhsil müəssisələrində elmi-pedaqoji istiqamətdə rəsmi əmək fəaliyyətinə cəlb ediləcəklər. Bu kompleks yanaşmanın nəticəsində gənc tədqiqatçılar həm yüksək məbləğdə təqaüd alacaq, həm də universitetdə çalışaraq əlavə rəsmi əməkhaqqı əldə edəcəklər. Tədqiqatçıların maliyyə müstəqilliyinin təmin olunması onların kənar işlərlə vaxt itirməsinin qarşısını alacaq və bütün diqqətlərini ali təhsil müəssisəsində daha yaxşı elmi araşdırmalar aparmağa yönəltmələrinə güclü stimul verəcək.

Şöbə müdiri əlavə edib ki, SABAH fəlsəfə doktoru hazırlığı proqramı ilkin mərhələdə pilot layihə statusunda fəaliyyətə başlayır. Layihənin effektivliyini yoxlamaq və gələcəkdə daha da genişləndirmək məqsədilə ilkin olaraq ölkənin ən nüfuzlu 4 müəssisəsi seçilib. Həmçinin dövlət üçün strateji əhəmiyyət kəsb edən 7 elmi istiqamət müəyyənləşdirilib və bu istiqamətlər üzrə 80 plan yeri ayrılıb. Pilot layihəyə cəlb olunmuş müəssisələrə BDU, ADNSU, BANM və ARTİ, proqramın əhatə etdiyi strateji elm sahələrinə riyaziyyat, fizika, kimya, biologiya, yer elmləri, texniki elmlər və pedaqogika daxildir. Bu 4 müəssisədə qeyd olunan 7 elm sahəsi üzrə ayrılmış 80 yer gələcəkdə Azərbaycanın qlobal elmi rəqabətliliyini artıracaq tədqiqatçıların formalaşması üçün baza rolunu oynayacaq.

"Nazirlər Kabinetinin 2026-cı il 14 may tarixli sərəncamı ilə təsdiq edilmiş doktorantura qəbul planı və Elm və Təhsil Nazirliyi tərəfindən tətbiq edilən yeni qaydalar, Azərbaycanın elmi kadr hazırlığı sistemində keyfiyyətcə yeni bir dövrün carçısıdır. Qəbul yerlərinin artırılması dövlətimizin elmi potensiala verdiyi dəyərin bariz nümunəsidir. Bütün bunların yaxın illərdə Azərbaycan elminin beynəlxalq arenada nüfuzunun artmasına və ölkə iqtisadiyyatına yüksək texnoloji töhfələr verilməsinə rəvac verəcəyi şəksizdir", - deyə Turxan Süleyman əlavə edib.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# WUF13 dövründə Heydər Əliyev Beynəlxalq Aeroportu 200 minə yaxın sərnişinə xidmət göstərib

**Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) dövründə Heydər Əliyev Beynəlxalq Aeroportu yüksək sərnişin axını şəraitində fasiləsiz və koordinasiyalı əməliyyat idarəçiliyini uğurla təmin edib.**

15-24 may tarixlərində hava limanı ümumilikdə 194 min 793 sərnişinə xidmət göstərib. Onlardan 100 mindən çoxu gələn, 94 min nəfəri isə gedən sərnişinlər olub.

Hava limanından AZƏRTAC-a bildirilib ki, WUF13 çərçivəsində Bakıya gələn beynəlxalq nümayəndə heyətləri, dövlət rəsmiləri və forum iştirakçıları nəzərə alınaraq, Heydər Əliyev Beynəlxalq Aeroportunda əməliyyat koordinasiyası, sərnişin xidmətləri və nəqliyyat bağlantıları üzrə gücləndirilmiş iş rejimi tətbiq olunub.

Sərnişinlərin rahat, təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə xüsusi nəqliyyat marşrutları təşkil edilib, əlavə mexanizmlər işə salınıb və operativ xidmət həlləri tətbiq olunub. Eyni zamanda terminal daxilində sərnişin axınının effektiv idarə olunması və xidmət çevikliyinin artırılması istiqamətində qabaqlayıcı tədbirlər həyata keçirilib.

Aeroport beynəlxalq tədbirlər dövründə yüksək əməliyyat davamlılığının təmin olunması, sərnişin məmnuniyyətinin qorunması və beynəlxalq xidmət standartlarına uyğun təhlükəsiz səyahət təcrübəsinin təqdim edilməsi istiqamətində fəaliyyətini davam etdirir.




## 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

# Uşaqların müdafiəsi hər birimizin ortaq məsuliyyətidir

**Milli insan hüquqları təsisatları məhkəmədənkənar müdafiə mexanizmi olaraq uşaqların hüquqlarının qorunmasında xüsusi rola malikdir. Müxtəlif ölkələrdə bu təsisatların səlahiyyətləri, fəaliyyət istiqamətləri fərqlidir. Lakin həmin qurumlar üçün ümumi olan əsas cəhət fəaliyyətin məqsədidir ki, bu da uşaqların hüquq və maraqlarının müdafiəsi və təşviqindən ibarətdir.**

Azərbaycan Ombudsmanının uşaq hüquqlarının müdafiəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş geniş səlahiyyətləri və fəaliyyət istiqamətləri var.

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən, Ombudsman "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizmi funksiyalarını həyata keçirir. Konstitusiya Qanununda Ombudsmanın və monitorinq qrupunun müstəqil monitorinq mexanizmi funksiyalarını həyata keçirən zaman qurumlarda zəruri məlumatların, sənədlərin alınması və digər hüquqlarının əks olunması uşaq hüquqlarının müdafiəsi sahəsində mövcud vəziyyət və göstərilən xidmətlərə nəzarətin təmini baxımından olduqca əhəmiyyətlidir.

Ombudsmana verilmiş səlahiyyətlər çərçivəsində uşaq hüquqlarının pozulmasına dair şikayətlər araşdırılır, monitorinqlər həyata keçirilir, maarifləndirmə işləri aparılır, analitik təhlillər olunur, səlahiyyətli orqanlara müraciətlər ünvanlanır. Uşaq hüquqları sahəsində mövcud vəziyyətin və qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə təkliflər hazırlanaraq aidiyyəti qurumlara göndərilir, həmin təkliflərin icrası vəziyyəti nəzarətdə saxlanılır. Ombudsman təsisatı dövlət orqanları, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti institutları və digər qurumlarla sıx əməkdaşlıq edərək uşaqların hüquqlarının təmini sahəsində müxtəlif istiqamətlərdə mühüm işlər həyata keçirir.

Uşaqların müdafiəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir. Uşaq hüquqlarının müdafiəsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmizdə bu sahədə davamlı islahatlar aparılır, qanunvericilik və institusional struktur təkmilləşdirilir, uşaqların rifahının yaxşılaşdırılması üçün iqtisadi, sosial proqramlar həyata keçirilir. Heydər Əliyev Fondu tərəfindən uşaqların, o cümlədən çətin həyat şəraitində olan uşaqların hüquqlarının təmini məqsədilə müxtəlif layihələr icra edilir, təşəbbüslər reallaşdırılır. Ölkəmizin müxtəlif bölgələrində, eləcə də işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işləri aparılır, təhsil, səhiyyə, sosial xidmət müəssisələri inşa və bərpa edilir, infrastruktur yenilənir və uşaqların hərtərəfli inkişafı üçün mühüm tədbirlər görülür.

Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində aparılan son mühüm tədbirlərdən biri cari ildə "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun və digər əlaqəli normativ hüquqi aktların qəbul edilməsidir ki, bu da həmin sahədə yaranan yeni münasibətlərin tənzimlənməsi və uşaqların müdafiəsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Ombudsman tərəfindən həmin normativ hüquqi akt layihələrinə verilmiş təkliflər nəzərə alınmışdır.

Ombudsman Aparatına daxil olan müraciətlərin və aparılan müşahidələrin təhlilinə əsasən qeyd etmək istərdik ki, uşaqlara qarşı zorakılıq halları ilə mübarizə sahəsində vəziyyətin təkmilləşdirilməsinə ehtiyac var. Uşaqlara qarşı ailədə, təhsil müəssisələrində və digər məkanlarda kobud rəftar hallarının qarşısının alınması məqsədilə davamlı olaraq bu sahədə vəziyyətin təhlilinin aparılması, qanunvericiliyin təkmilləşdirilməsi, institusional islahatların həyata keçirilməsi, maarifləndirmə işlərinin təşkili zəruridir.

Qeyri-sağlam ailədaxili münasibətlər uşaqlara mənfi təsirini göstərməkdədir. Məişət zorakılığı halları ilə bağlı təsisata ünvanlanan müraciətlərin təhlili göstərir ki, aidiyyəti qurumlar tərəfindən daha həssas və operativ yanaşmanın nümayiş etdirilməsi, münaqişəli ailələrlə aparılan profilaktiki işlərin daha da gücləndirilməsi və mühafizə orderlərinin verilməsi üzrə işin təkmilləşdirilməsi həmin sahədə problemlərin həlli baxımından əhəmiyyətlidir. Bu istiqamətdə normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə təsisat tərəfindən təkliflər hazırlanaraq aidiyyəti qurumlara göndərilir.

Qeyd edim ki, erkən evlilik hallarının qarşısının alınması məqsədilə tərəfimizdən Azərbaycan Respublikası Ailə Məcəlləsinin üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verən müvafiq maddəsinin çıxarılması təklif edilmişdir. Həmin təklif Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli müvafiq Qanununda nəzərə alınmışdır.

Ombudsmanın illik məruzəsində uşaqların olduğu bütün məkanlarda, o cümlədən uşaq müəssisələrində onlara qarşı zorakılığın qadağan olunması ilə bağlı qanunvericilikdə xüsusi müddəanın təsbit olunması təklif edilmişdir.

Cari ildə qəbul edilmiş "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda uşağın ola biləcəyi bütün yerlərdə, habelə internet informasiya ehtiyatlarında və informasiya-telekommunikasiya şəbəkələrində uşağa qarşı zorakılığın qadağan olunması təsbit edilməklə həmin təklifin icrası həyata keçirilmişdir.

Bununla yanaşı, 21 aprel 2026-cı il tarixli Azərbaycan Respublikasının Qanunu ilə İnzibati Xətalar Məcəlləsinə yeni məzmunda əlavə edilmiş müvafiq maddədə valideynlər (onları əvəz edən şəxslər), uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan şəxslər tərəfindən uşağa qarşı cismani cəzanın tətbiqinə görə müvafiq sanksiya nəzərdə tutulmuşdur.

Uşaqlarla çalışan mütəxəssislərin uşaq hüquqları, davranış qaydaları barədə məlumatlılıq səviyyələrinin artırılması, zorakılığa məruz qalmış uşaqlarla aparılan işin, habelə zorakılıqla mübarizə mexanizmlərinin təkmilləşdirilməsi vacibdir.

Ombudsman tərəfindən yetkinlik yaşına çatmamış şahidin dindirilməsi, eləcə də mübahisə ilə mənafelərinə toxunulan uşaqların fikrinin öyrənilməsi zamanı psixoloqun iştirakının təmin olunması, habelə cinsi zorakılığın qurbanı olan uşağa aid istintaq materiallarının cinayət prosesinin iştirakçıları tərəfindən yayılmasının qadağan edilməsi ilə bağlı qanunvericiliyə dəyişikliklərin edilməsi təklif olunmuş və cari ilin 3 mart tarixində qeyd edilən məsələlərlə bağlı cinayət və mülki qanunvericiliyə müvafiq dəyişikliklər edilmişdir.

Təsisata daxil olan şikayətlərə əsasən, uşaqların saxlanılması üçün alimentin ödənilməsində çətinliklər mövcuddur. Bu sahədə xarici ölkələrin müsbət təcrübəsinə əsaslanaraq, Ombudsmanın illik məruzələrində Aliment Fondunun yaradılması və borclu şəxslərin məşğulluğu sahəsində icbari yanaşmanın tətbiqi ilə bağlı təkliflər irəli sürülmüşdür.

Müraciətlərin təhlilinə əsasən, uşaqla ünsiyyət tələbi və himayə məsələsi ilə bağlı məhkəmə qərarlarının icrası zaman tərəflərin uşaqların maraqlarını nəzərə almadığı hallara rast gəlinir ki, bu da uşaqların psixoloji durumuna mənfi təsir göstərir, habelə məhkəmə qərarlarının icrasında çətinliklər yaradır. Bu baxımdan Ombudsmanın illik məruzələrində bu sahədə icra mexanizmlərinin təkmilləşdirilməsi, habelə icra prosesində psixoloqun iştirakının təmin olunması ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi təklif edilmişdir.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin bütün sahələrinə təsir edərək inkişaf üçün geniş imkanlar yaratmışdır. Bununla yanaşı, rəqəmsal texnologiyalar uşaqları müxtəlif risklərə və təsirlərə məruz qoyur. Müasir dövrdə uşaq hüquqları sahəsində mövcud problemlərin yaranmasında rəqəmsal mühitin təsiri mühüm faktordur. Bu gün rəqəmsal inkişaf yeni ictimai münasibətlərin, hüquq pozuntularının yaranmasına səbəb olur. Bu da öz növbəsində uşaqların rəqəmsal mühitdə qarşılaşdıqları təhlükələrdən müdafiəsi, onların hüquqlarının qorunması istiqamətində səylərin birləşdirilməsini zəruri edir.

Ombudsman təsisatı tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində problemlərin həlli istiqamətində məlumatlılığın artırılması məqsədilə aylıqlar keçirilir, həmçinin mütəmadi olaraq maarifləndirmə tədbirləri təşkil olunur, araşdırmalar aparılaraq zəruri tədbirlər görülür.

Uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin qorunmasında multidisiplinar yanaşmanın tətbiqi zəruridir. Zorakılığı təbliğ edən halların müəyyən edilməsi və qarşısının alınması məqsədilə ölkəmizdə uşaqların daha çox istifadə etdikləri sosial şəbəkə, platforma və internet saytları, o cümlədən televiziya proqramları, filmlər və oyunlar üzrə davamlı monitorinqlərin aparılması vacibdir. Ombudsman Aparatı tərəfindən aparılan araşdırmalara əsasən, son illər uşaqlar arasında geniş yayılmış interaktiv platformalar və onlayn oyunlar ciddi risklər yaradır. Uşaqların istifadəsi üçün nəzərə tutulan rəqəmsal platformalarda yaş məhdudiyyətlərinin formal xarakter daşıması, effektiv nəzarət mexanizmlərinin olmaması, şəxsi məlumatların qorunması sahəsində boşluqlar uşaqların hüquqlarının pozulmasına zəmin yaradır.

Ombudsmanın uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinə dair yayımlanan açıq müraciətində bu sahədə mövcud problemlərin aradan qaldırılması istiqamətində dövlət qurumlarına, media nümayəndələrinə, valideynlərə çağırışlar səsləndirilmişdir. Dövlət qurumları tərəfindən uşaqların rəqəmsal təhlükəsizliyinin təmin edilməsi məqsədilə onlayn platformalar üzərində nəzarət mexanizmlərinin gücləndirilməsi, risklərin hüquqi qiymətləndirilməsinin aparılması və preventiv fəaliyyətin həyata keçirilməsi zəruridir.

Bu məsələdə valideynlərin rolu danılmazdır. Valideynlərin uşaqların rəqəmsal platformalardan istifadə etmələrinə diqqətlə yanaşması, uşaqlarla açıq və etibarlı ünsiyyət qurması və onların virtual mühitdə qarşılaşa biləcəyi təhlükələr barədə maarifləndirilməsi, valideyn nəzarəti mexanizmlərinin tətbiq edilməsi olduqca vacibdir.

Media subyektlərinin və jurnalistlərin də bu mövzuda məsuliyyətli mövqe nümayiş etdirməsi, məsələyə uşaqların mənafelərinin üstünlüyü və hüquqlarının müdafiəsi prizmasından yanaşaraq ictimaiyyətin düzgün məlumatlandırılmasına töhfə verməsi çox önəmlidir. Qeyd edim ki, təsisat tərəfindən rəqəmsal mühitin uşaqlar üçün yaratdığı təhlükələr barədə ictimai məlumatlılığın artırılması və bu sahədə hüquq pozuntularının qarşısının alınması məqsədilə maarifləndirici sosial videoçarx hazırlanmış və əhali arasında yayılması təmin edilmişdir.

Tərəfimdən uşaqların sosial şəbəkə və digər rəqəmsal platformalardan istifadəsi üçün məhdudiyyətlərin müəyyən edilməsi ilə bağlı qanunvericiliyə dəyişikliklərin edilməsi təklif edilmişdir.

"Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti 2026-cı il 27 fevral tarixində sərəncam imzalamışdır. Həmin sərəncam rəqəmsal mühitdə uşaqların zərərlərdən müdafiəsi və onların təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə normativ hüquqi akt layihələri hazırlanmış, Ombudsman tərəfindən həmin layihələrə təkliflər göndərilmişdir.

Uşaqların müdafiəsi hər birimizin ortaq məsuliyyətidir və cəmiyyətin bütün üzvləri onların hərtərəfli inkişafı üçün səy göstərməlidir.

Uşaqların təhlükəsiz mühitdə yaşaması üçün ictimai iştirakçılığın təmin edilməsi xüsusi əhəmiyyət daşıyır. Mövcud təcrübələr onu deməyə əsas verir ki, dövlət idarəetməsinin həyata keçirilməsində ictimai nəzarətin olması, vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakı problemlərin həllinə öz töhfəsini verir. Bu baxımdan qeyri-hökumət təşkilatlarını, media nümayəndələrini, cəmiyyətin hər bir üzvünü uşaqların hüquqlarının pozulması hallarına həssas yanaşmağa, aşkar edilən problemlərlə bağlı aidiyyəti qurumların məlumatlandırılmasına, habelə uşaqların sağlam mühitdə yaşamasının təminində fəal iştirak etməyə çağırıram. Valideynlərə övladları ilə mənəvi bağın yaradılmasına, onların sevgi və qayğı ilə əhatə olunmasına, psixi sağlamlığının təmininə diqqətlə yanaşmağı, müasir çağırışları nəzərə alaraq onlara nəzarət etməyi tövsiyə edirəm. Uşaqları isə özlərinin və bütün uşaqların hüquqlarının qorunması üçün səslərinin eşidilməsində aktiv iştirak etməyə çağırıram.

Ombudsman təsisatının fəaliyyətində vətəndaş cəmiyyəti üzvləri ilə əməkdaşlığa, həmçinin uşaqların iştirakçılığına önəm verilir. Nümunə olaraq qeyd edim ki, ötən il 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə vətəndaş cəmiyyəti institutlarını və uşaqları da cəlb etməklə maarifləndirici sosial videoçarx hazırlanmış, uşaqların hüquqlarının təmini ilə bağlı cəmiyyətə çağırış edilmişdir.

Sonda şəhidlərimizin bizə əmanət buraxdıqları övladları da başda olmaqla bütün uşaqları 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik edir, hər bir uşağa bu gününü və gələcəyini xoşbəxt yaşamağı arzu edirəm.

***Səbinə ƏLİYEVA,***
***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), hüquq üzrə fəlsəfə doktoru***

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Azərbaycan xalqını
Qurban bayramı və
Müstəqillik Günü
münasibətilə
təbrik edir!




## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin iyun ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Abşeron | Abşeron, Zəngilan | 02 |
| 2. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Qazax | Qazax, Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa | 04 |
| 3. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Salyan | Salyan, Neftçala | 04 |
| 4. | **Baş prokuror** Kamran Əliyev | Şəmkir | Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax | 05 |
| 5. | **Ədliyyə naziri** Fərid Əhmədov | Zəngilan | Zəngilan, Cəbrayıl, Qubadlı | 05 |
| 6. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Ağsu | Ağsu, İsmayıllı, Şamaxı, Qobustan | 05 |
| 7. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Xankəndi | Xankəndi, Şuşa, Xocalı, Ağdərə, Xocavənd, Laçın | 08 |
| 8. | **Ekologiya və təbii sərvətlər naziri** Rəşad İsmayılov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 11 |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Qəbələ | Qəbələ, İsmayıllı | 11 |
| 10. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Qax | Qax, Zaqatala | 11 |
| 11. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Gəncə | Gəncə, Samux, Kəlbəcər | 12 |
| 12. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Lerik | Lerik, Lənkəran, Astara, Masallı, Yardımlı, Cəlilabad | 12 |
| 13. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Şuşa | Şuşa | 12 |
| 14. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Şamaxı | Şamaxı, İsmayıllı, Qobustan | 12 |
| 15. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Cəbrayıl | Cəbrayıl, Qubadlı, Zəngilan | 12 |
| 16. | **Baş prokuror** Kamran Əliyev | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 16 |
| 17. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Lerik | Lerik, Lənkəran, Astara, Masallı, Yardımlı, Cəlilabad | 16 |
| 18. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Zəngilan | Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər | 17 |
| 19. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | Salyan | Salyan, Neftçala | 19 |
| 20. | **Mədəniyyət naziri** Adil Kərimli | Şuşa | Şuşa | 19 |
| 21. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Kəlbəcər | Kəlbəcər, Laçın | 19 |
| 22. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Zaqatala | Zaqatala, Balakən | 19 |
| 23. | **Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru** Anar Bayramov | Şuşa | Şuşa | 24 |
| 24. | **Energetika naziri** Pərviz Şahbazov | Ağdam | Ağdam, Füzuli, Xocavənd | 25 |
| 25. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Vüsal Nəsirli | Zaqatala | Zaqatala, Balakən, Qax | 25 |
| 26. | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | Şamaxı | Şamaxı, Qobustan | 25 |
| 27. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Ağdam | Ağdam, Füzuli, Xocavənd | 29 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Ermənistan vətəndaşlarının apellyasiya şikayəti üzrə məhkəmə prosesi başlayıb



**Mayın 26-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətlərinə baxılmasına dair ilkin baxış iclası başlayıb.**

AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsində hakimlər Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin prokurorları Anar Ələkbərov və Sevinc Qasımova, habelə Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

İclasda məhkəmə tərkibi və tərcüməçilər proses iştirakçılarına təqdim olunub, məhkumların şəxsiyyət və anket məlumatları dəqiqləşdirilib, onların prosessual hüquq və vəzifələri izah edilib.

Tərəflər məhkəmə tərkibinə və tərcüməçilərə etirazlarının olmadığını bildiriblər.

Bundan əlavə, tərcüməçilərə qanunvericiliyin tələbləri, hüquq və vəzifələri izah olunub, məhkumların onlara etirazlarının olub-olmaması dəqiqləşdirilib. Müdafiəçilər, zərərçəkmiş şəxslərin nümayəndələri və dövlət ittihamını müdafiə edən prokurorların səlahiyyətləri elan olunub.

Dövlət ittihamını müdafiə edən prokuror Anar Ələkbərov çıxışında bildirib ki, apellyasiya şikayətləri verilərkən cinayət-prosessual qanunvericiliyin tələblərinə əməl olunub. O qeyd edib ki, hazırkı mərhələdə məhkəmə baxışına hazırlıq iclasının predmetini işin apellyasiya baxışına təyin edilməsinin mümkünlüyü məsələsi təşkil edir. İttiham tərəfi hesab edir ki, apellyasiya icraatının başlanılması üçün qanunvericiliklə müəyyən edilmiş prosessual şərtlərə əməl olunub və iş əlavə sübutlar tələb edilmədən məhkəmə baxışına təyin edilə bilər.

Məhkəmə tərəflərin mövqelərini və verilmiş vəsatətləri müzakirə etdikdən, həmçinin tərəflərin verilən vəsatətlərə münasibətini öyrəndikdən sonra müşavirəyə gedib.

Müşavirədən sonra qəbul edilmiş qərarlar elan olunub və cinayət işi apellyasiya baxışına təyin edilib. Bildirilib ki, məhkəmə baxışı istintaq aparılmadan və əlavə sübutlar tədqiq edilmədən iyunun 2-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 5 fevral 2026-cı il tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

# İsmayıl qurbanından başlayan mənəvi yol

**İslam dünyasının ən müqəddəs və mənəvi dəyəri zəngin olan günlərindən biri də Qurban bayramıdır. Bu bayram təkcə dini mərasim və ya ibadət anlayışı deyil, həm də insanın Yaradan qarşısında sədaqətinin, mənəvi kamilliyinin, paylaşmaq duyğusunun və vicdan məsuliyyətinin təcəssümüdür. Əsrlərdir milyonlarla insan bu müqəddəs günlərdə yalnız qurban kəsmir, eyni zamanda mərhəmətin, varından bölmək duyğusunun və mənəvi bütövlüyün nə qədər ali dəyər olduğunu nümayiş etdirir.**



Qurban bayramının fəlsəfəsinin kökündə mərhəmət dayanır. Tarixdən məlumdur ki, "qurban" anlayışı islam dininin yaranmasından əvvəl mövcud olub. Müxtəlif dövrlərdə və fərqli inanclarda insanlar özlərini Tanrıya yaxınlaşdırmaq üçün müxtəlif qurban mərasimləri həyata keçiriblər. Lakin qədim dövrlərdə bu mərasimlər bəzən qəddarlıq, qorxu və xurafatla müşayiət olunurdu. İnsanların tanrılara insan qurban verməsi, odda yandırılması və ya müxtəlif ayinlərlə öldürülməsi tarixdə acı səhifələr kimi qalıb. İslam dini isə "qurban" anlayışına tamamilə yeni bir mahiyyət gətirdi - insan həyatını müqəddəs elan etdi.

"Qurani-Kərim"də Habil və Qabil hadisəsi qurbanın mahiyyətini açan ilk böyük nümunələrdən biri kimi təqdim olunur. Hər iki qardaş Allaha qurban təqdim etsə də, yalnız səmimiyyət və təqva ilə verilən qurban qəbul edildi. Bu hadisə göstərdi ki, Allah üçün əsas olan insanın qəlbindəki niyyət və mənəvi saflıqdır. "Qurani-Kərim"in buyurduğu kimi, Allaha nə qurbanın əti, nə də qanı çatır, ona çatan yalnız insanın mərhəmətidir.

Qurban bayramının ən böyük mənəvi zirvəsi isə Həzrət İbrahim və oğlu Həzrət İsmayılın timsalında ortaya çıxır. Bu hadisə insan iradəsinin, iman gücünün və Allah sevgisinin bəşəriyyətə təqdim etdiyi böyük mənəvi dərsdir. Rəvayətə görə, Həzrət İbrahim yuxusunda oğlunu Allah yolunda qurban etdiyini görür. Peyğəmbərlərin yuxusu ilahi vəhy hesab olunduğundan o bunu Allahın əmri kimi qəbul edir. Ən ağır məqam isə budur ki, illərlə həsrətində olduğu övladını Allah yolunda fəda etməyə hazır olur. Burada təkcə İbrahimin böyüklüyü deyil, İsmayılın mənəvi ucalığı da aydın görünür. Çünki o, atasına "Sənə əmr olunanı et" deyərək böyük bir təslimiyyət nümunəsi göstərir. Məhz bu anda ilahi hikmət təcəlli edir. Allah-taala İbrahimin sınaqdan uğurla çıxdığını bildirir və İsmayılın əvəzinə qurbanlıq qoç göndərir. Bununla da insan qurbanı anlayışına son qoyulur və bəşəriyyətə mühüm mesaj verilir: "Allah insan qanı deyil, insanın mənəvi ucalığını istəyir".

Bu hadisədən sonra qurban ibadəti Həzrət İbrahimin sünnəsi kimi davam etdirildi və islamla birlikdə daha böyük mənəvi məna qazandı. Həzrət Məhəmməd peyğəmbər isə bu ənənəni yaşadaraq Qurban bayramını bütün müsəlman ümməti üçün müqəddəs ibadət və birlik gününə çevirdi.

Qurban bayramının mahiyyətində sosial ədalət və paylaşmaq duyğusu xüsusi yer tutur. Bu bayram imkanlı insanlarla ehtiyac içində yaşayanlar arasında mənəvi körpü yaradır. Qurban əti yalnız bir ailənin süfrəsini deyil, yüzlərlə ehtiyac sahibinin ümidini və sevincini paylaşmaq üçündür. Bu müqəddəs gündə insanlar arasında din, məzhəb, millət fərqi qoyulmur, yardım və mərhəmət hər kəsi əhatə edir. Bayramın müqəddəsliyi də elə bundadır.

İslamda qurban kəsmək imkanlı şəxslərə aid ibadət sayılır. Çünki islam insanı çətinliyə salmağı yox, paylaşmağı və mərhəməti təşviq edir. Ona görə də borca girərək nümayiş naminə qurban kəsmək islam dininin ruhuna uyğun hesab olunmur. Əsl qurban insanın riya hissini, təkəbbürünü və eqosunu kəsməsidir.

Bu gün müasir dünyada insanların ən çox ehtiyac duyduğu dəyərlərdən biri də mənəvi birlikdir. Texnologiyanın inkişaf etdiyi, lakin insanların birindən uzaqlaşdığı bir dövrdə Qurban bayramı cəmiyyətə humanizm, mərhəmət və paylaşmaq mesajı verir. Bu bayram insanlara xatırladır ki, dünyanı ayaqda saxlayan mənəvi bağlar, xeyirxahlıq və vicdandır.

Azərbaycan xalqı da əsrlər boyu Qurban bayramını böyük ehtiramla qeyd edir. Müstəqillik illərindən milli-mənəvi dəyərlərimizin yenidən dirçəlməsi ilə bu müqəddəs bayram həmçinin dövlət səviyyəsində qeyd olunmağa başlayıb. Bu gün ölkəmizdə Qurban bayramı dini mərasim olmaqla yanaşı, həm də milli həmrəylik, humanizm və birlik nümunəsi kimi yaşadılır.

Qurban bayramı bizə bir həqiqəti yenidən xatırladır: insan öz mənəviyyatını qoruduğu müddətdə güclüdür. İbrahim peyğəmbərin sədaqəti, İsmayılın təslimiyyəti və peyğəmbərimizin mərhəmət yolu bu gün də bəşəriyyət üçün ən böyük mənəvi örnəklərdən biri olaraq qalır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*






# Prezident aqrar sektorun qarşısına konkret vəzifə qoydu

## Daxili bazar əsas ərzaq məhsulları ilə yerli istehsal hesabına təmin olunmalıdır

**1980-ci illərin sonu - 1990-cı illərin əvvəlində baş verən məlum hadisələr kənd təsərrüfatına da ağır zərbə vurmuşdu. Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev bu vəziyyəti aradan qaldırmaq üçün ilk addımı atdı. Keçmiş SSRİ məkanında birinci olaraq Azərbaycanda torpaq islahatı həyata keçirildi - kəndli öz torpağının, öz taleyinin sahibi oldu. Prezident İlham Əliyev ölkəyə rəhbərlik etməyə başladığı vaxtdan da prioritetlər sırasında dayanan məsələlərdən biri məhz aqrar sahənin inkişafıdır.**



Dövlət başçısının bu günlərdə keçirdiyi kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə göstərdi ki, mövzunun aktuallığı daim gündəmdədir. İlk təşəbbüslərdən biri regional inkişaf proqramı idi ki, onun da tərkibində kənd təsərrüfatı xüsusi yer tuturdu. 2004-cü ilin əvvəlindən başlayaraq bir neçə beşillik proqram qəbul edildi və bunlar bir çox məsələlərin həll edilməsinə kömək göstərdi. Bütün regionlar canlandı, məşğulluq artdı və böyük infrastruktur layihələri icra edildi. Həmin layihələr olmadan Azərbaycanın bugünkü ümumi inkişafını təsəvvür etmək mümkün deyil.

Məlumdur ki, eyni zamanda kənd təsərrüfatının tənəzzülə uğramış sahələrini dirçəltmək zərurəti yaranmışdı. Ona görə də ötən illər ərzində bir neçə dövlət proqramı qəbul edildi. Dövlət başçısı ayrı-ayrı sahələrin inkişafı məqsədilə bölgələrdə geniş müzakirələr keçirdi. Beləliklə, üzümçülük, pambıqçılıq, fındıqçılıq, sitrusçuluq və digər sahələrə öz keçmiş şöhrəti qaytarılmağa başladı.

Kənd təsərrüfatının inkişafına yönəldilən amillərdən biri də subsidiyaların verilməsi oldu. Bu günlərdə keçirdiyi müşavirədə Prezident İlham Əliyev həmin məsələ barədə belə demişdir: "Azərbaycan dünyada nadir ölkələrdəndir ki, genişmiqyaslı və çoxçeşidli subsidiya mexanizmlərini tətbiq edir. Düzdür, burada da təkmilləşmə üçün imkanlar var və bu edilməlidir. Bu barədə də danışılacaq. Müxtəlif güzəştlər verilir, o cümlədən gübrə, yanacaq güzəştləri. Deyə bilərəm ki, bu da dünyada nadir sayda olan ölkələrdə tətbiq edilir. Fermerlərə metodik tövsiyələr verilir və hər cür dəstək göstərilir, o cümlədən güzəştli kreditlərin verilməsi. Bu gün də dövlət xətti ilə həyata keçirilən bir çox layihələr təbii ki, kənd təsərrüfatının inkişafına böyük təkan vermişdir".

Dövlət başçısı müşavirədəki çıxışında son illər pambıqçılığın və baramaçılığın timsalında digər kənd təsərrüfatı sahələrinin inkişafını misal gətirsə də, son vaxtlar istehsal dinamikasının qaneedici olmadığını qeyd etmişdir. Odur ki, hələ bir müddət əvvəl Prezident Administrasiyasına, hökumətə göstəriş verilib ki, kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı hazırlansın və qəbul edilsin. Bu sənəd həm dövlət investisiyaları, həm özəl sektor tərəfindən cəlb ediləcək investisiyaları özündə ehtiva etməlidir.

Prezident qeyd etmişdir ki, özəl sektor nümayəndələrinin də proqramın icrasında xüsusi rolu olmalıdır. Odur ki, müxtəlif mexanizmlərdən də istifadə edilməlidir ki, Azərbaycan sahibkarlarının kənd təsərrüfatının inkişafına sərmayə qoymasına daha böyük həcmdə nail olunsun.

Beynəlxalq əlaqələrimiz də bu işə daha bir köməkdir. Belə ki, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı ildən-ilə artır. Bir çox ölkələrin şirkətləri müxtəlif sahələrdə əməkdaşlıq etmək istəyirlər. Əlbəttə ki, bütün şirkətlərə, o cümlədən xarici investorlara qanun çərçivəsində lazımi şərait yaradılır. Eyni zamanda xarici şirkətlər bizə lazım olan sahələrə cəlb edilməlidir.

Çünki istehsalımızla özümüzü təminetmə əmsalı artmalıdır. Məsələn, buğda ilə özümüzü cəmi 55 faiz səviyyəsində təmin edirik və bu əmsal artmır. Qarşıya idxalı azaltmaq vəzifəsi qoyulur. Özümüzü ərzaq buğdası ilə 100 faiz təmin etmək hədəflənir. Yerli kartofla təminatımız 91 faiz olsa da, idxalı tamamilə aradan götürməliyik. Prezident bunu qarşıya bir vəzifə kimi qoyur.

Bir sıra ərzaq məhsulları da var ki, onunla yerli təminat 100 faizə yaxın, yaxud bundan da çoxdur. Bir sıra məhsulları isə idxal etmək lazım gəlir.

Prezident bir sıra misallar gətirərək demişdir ki, həmin rəqəmləri investorlar üçün səsləndirir: "Onları dəvət edirəm ki, bizdə bu gün idxal olunan məhsulların istehsalına onlar töhfə versinlər".

Müşavirədə torpaqlardan səmərəli istifadə, kənd təsərrüfatı texnikası ilə təminat, gübrə istehsalının artırılması və s. vacib məsələlərə toxunulub. O cümlədən su təchizatı məsələləri üzərində dayanılıb. Prezident İlham Əliyev qeyd edib ki, bunsuz kənd təsərrüfatının inkişafı mümkün deyil: "Burada da bir çox önəmli layihələr icra edildi. Su anbarları - Taxtakörpü, Şəmkirçay ən böyük su anbarlarıdır, Göytəpə su anbarı, digər su anbarları. İndi 10 su anbarının yenidən qurulması layihəsi icra edilir. Qarabağ və Şərqi Zəngəzur işğalçılardan azad ediləndən sonra dərhal orada su anbarlarının bərpasına başlamışıq və artıq Köndələnçay su anbarlarının sayı üç oldu. Xaçınçay, ondan sonra Suqovuşan, Sərsəng, Zabuxçay su anbarları yenidən quruldu. Sovet vaxtında yox idi, indi Bərgüşad və Həkəri su anbarlarının tikintisi işləri gedir. Qarabağda və Şərqi Zəngəzurda bizim 25 faiz su ehtiyatlarımız formalaşır. Onlardan səmərəli istifadə etmək, həm o bölgəni, həm digər bölgələri su ilə təmin etmək mümkün olacaq. Çünki vaxtilə Sərsəng və Suqovuşan su anbarları Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılanda məqsəd Qarabağın hüdudlarından kənarda olan 7-8 rayonu su ilə təmin etmək idi. O vaxt, işğaldan sonra ermənilər suyumuzu kəsmişdilər. İndi bir kanal fəaliyyətdədir. Digər kanalın tikintisi davam edir və beləliklə, 8 rayona, təqribən 100 min hektar torpağa su veriləcək".

Nəzərdə tutulan kanallar işə düşəndən sonra bəlkə də 200-300 min hektar torpağa su veriləcək. Lakin bu torpaqlarda müasir şəbəkə qurulmalıdır və bu da sözügedən dövlət proqramında nəzərdə tutulur. Hazırda 130 min hektarda müasir suvarma sistemləri tətbiq olunur. Hədəf isə bunu 300 min hektara çatdırmaqdır. Əgər bu sistem qurularsa, məhsuldarlıq da arta bilər.

Bununla bağlı Prezident demişdir: "Burada məqsəd məhsuldarlığı maksimum artırmaq və torpaqların dəqiq analizini aparmaqdır ki, hansı ərazidə hansı torpaq sahəsində hansı məhsulun yetişdirilməsi daha məqsədəuyğun ola bilər. Burada, əlbəttə ki, rayonlaşma məsələləri çox önəmlidir. Amma bilirəm ki, bəzi hallarda bir rayonda fərqli torpaq sahələrində torpağın keyfiyyəti də fərqlidir. Ona görə demək ki, filan rayonda ancaq bu məhsul yetişdirilsin, başqa məhsul yetişdirilməsin, düzgün olmaz. Təbii ki, hər bir sahə üzrə dəqiq analiz aparılarkən onun elektron versiyası, müxtəlif dəqiqləşdirmə üsulları, yeni texnologiyalardan istifadə edilməlidir, o cümlədən süni intellekt, peyk imkanları, yerlərdə aparılan tədqiqat. Ölkə ərazisi o qədər də böyük deyil. Ona görə bunu etmək çətin olmayacaq. Müəyyən işlər görülüb. Ancaq hər bir əkin üçün yararlı torpaq sahəsinin, necə deyərlər, öz pasportu olmalıdır".

Təxmini hesablamalar göstərir ki, dövlət xətti ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün 2 milyard manatdan çox vəsait lazım olacaq, özəl sektorun payı isə təqribən 3 milyard manatdan çox təşkil edəcək. Rəqəm çox böyük, vaxt isə azdır. Çünki nəzərdə tutulan vəzifələr cəmi dörd il yarım ərzində həyata keçirilməlidir: "Ona görə proqram qəbul ediləndən dərhal sonra biz işlərə başlamalıyıq,"- deyə dövlətimizin başçısı bildirmişdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# İordaniya mediası Bakıda keçirilən WUF13-dən yazıb

**İordaniyanın "Jordan Daily", "Nayrouz", "Al Balad News", "cleopatranews" və digər xəbər portallarında Bakı şəhərində keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) uğurla başa çatması və forum çərçivəsində qəbul olunmuş "Bakı Fəaliyyətə Çağırış" sənədi geniş şəkildə işıqlandırılıb.**


WUF13 in Baku Concludes with Record Participation and Adoption of the Baku Call to Action

AZƏRTAC xəbər verir ki, məqalələrdə WUF13-ün Dünya Şəhərsalma Forumunun 24 illik tarixində ən genişmiqyaslı sessiya olduğu xüsusi vurğulanır.

Eyni zamanda bildirilir ki, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) təşkilatçılığı ilə "Dünya üçün yaşayış: təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" mövzusu altında keçirilən forumda 176 ölkədən 58 mindən artıq nümayəndə iştirak edib, o cümlədən minlərlə şəxs tədbirlərə onlayn qatılıb. Tədbir çərçivəsində dayanıqlı şəhərsalma, mənzil siyasəti, iqlim davamlılığı, inklüziv urbanizasiya və şəhərlərin gələcəyi ilə bağlı yüzlərlə sessiya və yüksəksəviyyəli müzakirələr təşkil olunub.

Yazılarda forumun əsas nəticələrindən biri kimi "Bakı Fəaliyyətə Çağırış" sənədinin qəbul olunduğu diqqətə çatdırılır. Qeyd olunur ki, sənəd hökumətlər, beynəlxalq təşkilatlar, şəhərlər, ekspertlər və vətəndaş cəmiyyəti nümayəndələrinin qlobal mənzil böhranı və Yeni Şəhər Gündəliyinin həyata keçirilməsi ilə bağlı ortaq baxışını əks etdirir.

Məqalələrdə həmçinin forumun bağlanış mərasimində Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri və WUF13 üzrə milli koordinator Anar Quliyevin Bakının şəhərlərin gələcəyi, iqlim davamlılığı və inklüziv inkişaf üzrə beynəlxalq dialoq mərkəzinə çevrildiyini bildirdiyi qeyd olunur. Onun çıxışında WUF13-ün mənzil məsələlərini yenidən qlobal siyasi gündəliyin əsas mövzularından birinə çevirdiyi vurğulanır.

Bununla yanaşı, yazılarda diqqətə çatdırılır ki, UN-Habitatın icraçı direktoru Anaklaudia Rossbax forumun rekord sayda iştirakçını bir araya gətirdiyini və qlobal mənzil böhranının həlli istiqamətində beynəlxalq həmrəyliyin gücləndiyini bildirib. BMT Baş katibinin müavini Amina Mohammed isə Azərbaycanın tədbiri yüksək səviyyədə təşkil etdiyini qeyd edərək, postmünaqişə dövründə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və dayanıqlı inkişaf layihələrini beynəlxalq əhəmiyyətli nümunə kimi dəyərləndirib.

Yazılarda forum çərçivəsində ilk dəfə təqdim olunmuş "Baku Urban Award", "Business and Innovation Hub", "WUF Academy" və "Practices Hub" təşəbbüslərinin tədbirin innovativ xarakterini daha da gücləndirdiyi bildirilir. Xüsusilə "Baku Urban Award" mükafatının gələcəkdə Dünya Şəhərsalma Forumu çərçivəsində daimi beynəlxalq təşəbbüs kimi fəaliyyət göstərəcəyi vurğulanır.

Məqalələrdə həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrinin, humanitar minatəmizləmə fəaliyyətinin və dayanıqlı məskunlaşma siyasətinin forum iştirakçıları tərəfindən böyük maraqla qarşılandığı qeyd olunur. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərinin postmünaqişə inkişaf modelinin uğurlu nümunəsi kimi təqdim edildiyi diqqətə çatdırılır.




# Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı daha üç sənədlə möhkəmləndi

**İndiyədək Azərbaycan-Gürcüstan iqtisadi əlaqələrində böyük uğurlar əldə edilib. Keçən il iki ölkə arasında ticarət dövriyyəsi 800 milyon dollardan çox olub, bu ilin ilk rübündə də artım kifayət qədər yüksəkdir. Gürcüstanda mövcud olan müsbət sərmayə iqlimi Azərbaycan investorlarını da həvəsləndirir. Bu günə qədər ölkəmiz tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulub. İqtisadi əməkdaşlıq bir sıra sahələri əhatə edir və getdikcə genişlənir.**

Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin mayın 18-də Bakıya WUF13-də iştirak etmək üçün gələn Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşü olub. Görüşdə ölkələrimiz arasında mehriban qonşuluq və dostluğa əsaslanan münasibətlərin bir çox istiqamət üzrə dinamik inkişafına toxunulub, ikitərəfli gündəliyin geniş olduğu qeyd edilib. Siyasi, iqtisadi-ticari, enerji, nəqliyyat, logistika, sərmayələr və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcudluğu bildirilib. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrin möhkəmlənməsində rolu vurğulanıb.

Sonra Prezident İlham Əliyevin və Baş nazir İrakli Kobaxidzenin iştirakı ilə bir sıra sənədlər imzalanıb. Bunlar Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında təbii qazın Gürcüstana təchizatı barədə saziş, Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Gürcüstana elektrik enerjisinin təchizatı və elektrik enerjisinin Gürcüstan ərazisi vasitəsilə tranziti barədə saziş və Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası, inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının protokoludur.

Bu baxımdan Prezident İlham Əliyevin çıxışlarının birində dediyi sözləri xatırlamaq yerinə düşər: "Azərbaycan energetika sahəsində uzun illər bir çox ölkənin enerji təhlükəsizliyini gücləndirən addımlar atmışdır. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir. Ancaq bu ixrac yenə də Gürcüstandan başlayır və Gürcüstan burada birinci ölkədir. Həm Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Biz bu mövcud infrastruktur haqqında kifayət qədər danışmışıq. Bütün bu infrastruktur göz önündədir və artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. "Cənub qaz dəhlizi" də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. Biz sonra bu dəhlizlər üzərindən nəqliyyat dəhlizlərini də inşa etdik və bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Bu, bizim üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcəkdir".

Yeni imzalanan sənədlər də məhz bu deyilənləri təsdiq edir. Belə ki, imzalanan sənədlərdən biri yeni Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə aiddir. Bu, Asiya ilə Avropanı birləşdirən Orta dəhlizin əsas hissəsini təşkil edən, yüklərin birbaşa və sürətli daşınmasını təmin edən strateji beynəlxalq nəqliyyat marşrutudur. Layihə Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu xətti ilə birləşdirir, onun əsas məqsədi və ifadə etdiyi üstünlüklər isə İpək yolunun bərpasını ehtiva edir. Yəni Çin







və Mərkəzi Asiyadan (Qazaxıstan, Türkmənistan) gələn yüklərin Xəzər dənizi vasitəsilə Azərbaycana, buradan isə Gürcüstan və Türkiyə ərazisi ilə Avropaya və əksinə fasiləsiz daşınması təmin olunur.

Qaldı ki, elektrik enerjisinin Gürcüstanın ərazisi ilə tranzitinə, bu layihənin də böyük gələcəyi var. Söhbət "yaşıl enerji"nin ixracından gedir. Hələ 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında" saziş imzalanıb.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze bu günlərdə öz ölkəsində televiziya ilə çıxış edərkən qaz təchizatı məsələsinə də toxunub. Bildirib ki, təbii qazın alışı üzrə Azərbaycanla 20 illik müqavilənin müddəti başa çatırdı. Amma Azərbaycan tərəfi ilə aparılan səmərəli danışıqlar nəticəsində müqavilənin müddəti daha 20 il uzadıldı. Kobaxidze bu razılaşmaya görə Azərbaycan tərəfinə bir daha minnətdarlıq edib.

Bu gün Azərbaycan qazı Gürcüstana əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə çatdırılır. CQBK 2006-cı ildə istifadəyə verilib və həmin vaxtdan fasiləsiz fəaliyyət göstərir.

Onu da qeyd edək ki, təkcə cari ilin 4 ayında (yanvar-aprel) Azərbaycandan Gürcüstana 184 milyon kubmetrdən çox təbii qaz ixrac olunub. Ümumilikdə 2026-cı il üçün təsdiqlənmiş qaz balansına əsasən, Gürcüstanın il ərzində Azərbaycandan təqribən 2.9 milyard kubmetr həcmində təbii qaz idxal etməsi nəzərdə tutulur. Bu ölkə qaz tələbatının təxminən 88 faizini Azərbaycan qazı hesabına ödəyir. Eyni zamanda tərəflər arasında mövcud olan qaz tədarükü sazişinin müddəti daha 20 il uzadılaraq 2044-cü ilə qədər artırılıb.

Azərbaycan qazının da dünyaya yolu məhz qonşu və dost Gürcüstandan keçir. Belə ki, 2007-ci ildən qazı Türkiyəyə daşıyan Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəmərinin ön hissəsini CQBK təşkil edir. Ümumi uzunluğu təxminən 692 kilometr (Azərbaycanda 443, Gürcüstanda təxminən 249 kilometr) təşkil edən CQBK-ya Gürcüstan-Türkiyə sərhədində 280 kilometrlik bir xətt də qoşulur. Bu boru xətti ilə qaz Ərzuruma çatdırılır. Sənqəçaldan Ərzurumadək uzanan marşrut bütövlükdə BTƏ adlanır. 2018-ci ilin iyun ayından Azərbaycan qazını Türkiyəyə ixrac edən TANAP (Trans- Anadolu Qaz Boru Kəməri) da mavi yanacağı genişləndirilmiş CQBK-dan qəbul edir. Qısaca desək, ümumiyyətlə, genişləndirilmiş CQBK, TANAP və TAP-dan (Trans-Adriatik Qaz Boru Kəməri) ibarət olan "Cənub qaz dəhlizi"nin Avropaya uzanan və getdikcə şaxələnən marşrutu Gürcüstandan keçir. Yeri gəlmişkən: TAP 2020-ci il dekabrın 31-də istifadəyə verilib.

Deyilənlərə bu il aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri çərçivəsində Baş nazir İrakli Kobaxidzenin mətbuata bəyanatında səsləndirdiyi fikirləri də əlavə etmək istərdik: "Asiya ilə Avropanı birləşdirən körpü kimi ölkələrimiz daşımalarda mühüm rol oynayır. Bu baxımdan biz nəqliyyat və logistika infrastrukturunun inkişafına və müasirləşdirilməsinə xüsusi önəm veririk. Gürcüstan ilə Azərbaycan dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlarıq. Görüş zamanı biz həmçinin ticarət və iqtisadi əməkdaşlıq perspektivlərini müzakirə etdik. Azərbaycan Gürcüstanın ən iri ticarət tərəfdaşlarından biri kimi qalır və həmçinin iqtisadi münasibətlərin artırılan sərmayələr sayəsində daha da dərinləşəcəyini gözləyirik. Biz yüksək səviyyədə dialoqu davam etdirməyə və müxtəlif sahələrdə əməkdaşlığı daha da dərinləşdirməyə hazır olduğumuzu ifadə etdik. Əminəm ki, strateji tərəfdaşlığımız xalqlarımız və ölkələrimizin rifahı naminə uğurla inkişaf etməkdə davam edəcək".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı

## 1. QISA XÜLASƏ

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində ölkənin iqtisadi suverenliyinin möhkəmləndirilməsi və vətəndaşlar üçün yüksək rifah cəmiyyətinə çevrilməsi məqsədilə beş milli prioritet müəyyən edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş və milli prioritetlərin həyata keçirilməsinə yönəlmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ölkə iqtisadiyyatının, o cümlədən maliyyə sektorunun transformasiyası üzrə strateji hədəfləri müəyyən edir.

Maliyyə sektoru üzrə strateji hədəflər mütərəqqi beynəlxalq standartlara uyğun olaraq, maliyyə sabitliyi arxitekturasının yaradılmasını və maliyyə institutlarının risklərə qarşı dayanıqlılığının təmin edilməsini, eləcə də əhalinin və real sektorun ehtiyaclarına dərindən fokuslanmış və dayanıqlı iqtisadi inkişafı dəstəkləyən maliyyə sektorunun formalaşdırılmasını ehtiva edir. Bu hədəfləri reallaşdıraraq ölkədə inklüziv, sabit və rəqabətə davamlı maliyyə sektorunun inkişafı prosesini sürətləndirmək üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında "Maliyyə inklüzivliyinin genişləndirilməsi üzrə Dövlət Proqramının həyata keçirilməsi" üzrə tədbir müəyyən edilmişdir.

Azərbaycan Respublikasında son onillikdə maliyyə inklüzivliyi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır,ölkə iqtisadiyyatının dinamik inkişafı maliyyə inklüzivliyinə müsbət təsir etmişdir. Azərbaycan aşağı gəlirli ölkədən yuxarı orta gəlirli ölkələr qrupuna daxil olmuşdur. Dünya Bankının məlumatına əsasən, ölkədə işsizlik 2000-ci ildəki 11,8 faiz səviyyəsindən 2023-cü ildə 5,3 faiz səviyyəsinə enmişdir. 2025-ci il üzrə yetkinlik yaşına çatmış əhalinin 70,7 faizinin bank hesabı vardır.

Əvvəlki dövrlərdə aparılmış islahatlar maliyyə sektoru üzrə yeni strateji baxışın gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaratmışdır. Maliyyə sistemində hüquqi çərçivə formalaşdırılmış, maliyyə infrastrukturu müasirləşdirilmiş və institusional quruculuq işləri həyata keçirilmişdir. 2014-cü və 2015-ci illərdə dünya enerji bazarlarında baş vermiş çoxşaxəli təsirlərin ölkənin maliyyə sisteminə təsiri neytrallaşdırılmış, maliyyə və sosial sabitliyin qorunmasına nail olunmuşdur. Bank sektorunun restrukturizasiyası və sağlamlaşdırılması, korporativ idarəetmə və risklərin idarəetməsinin yaxşılaşdırılması təmin edilmiş və maliyyə sektorunda artım dinamikası bərpa olunaraq böhrandan əvvəlki səviyyəni keçmişdir.

Əldə edilmiş nailiyyətlərlə yanaşı, maliyyə inklüzivliyinin genişləndirilməsi üzrə əhəmiyyətli imkanlar mövcuddur. Vətəndaşların və sahibkarlıq subyektlərinin müəyyənseqmentləri formal maliyyə sistemindən kənarda qalır. Kreditə çıxış bir çox mikro, kiçik sahibkarlar və fermerlər üçün nisbətən çətindir və sığortanın əhatə dairəsi aşağıdır, həmçinin fərdi investorlar üçün maliyyə alətləri məhduddur və rəqəmsal maliyyə texnologiyaları əsasən ödəniş xidmətlərini əhatə edir.

Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı (bundan sonra - Dövlət Proqramı) bütün vətəndaşların və sahibkarlıq subyektlərinin müasir texnologiyaya malik maliyyə sistemi vasitəsilə əlçatan və faydalı maliyyə xidmətlərinə məhdudiyyətsiz və bərabər şərtlərlə çıxış əldə etməsinin təmin olunmasına yönəlmişdir. Beləliklə, Dövlət Proqramı müvafiq tədbirləri vahid fəaliyyət planı ətrafında birləşdirərək dövlət və özəl sektor iştirakçıları ilə birgə tərəfdaşlıq şəraitində icra olunacaqdır. Dövlət Proqramının icrasına başlanılması ilə Azərbaycan Respublikası bütün vətəndaşlara və sahibkarlıq subyektlərinə xidmət edəcək müasir, universal maliyyə sisteminin formalaşması istiqamətində yeni strateji dövrə daxil olur.

## 2. QLOBAL TRENDLƏR

Maliyyə inklüzivliyi qlobal inkişaf prioritetlərindən birinə çevrilmişdir və bütün fiziki və hüquqi şəxslərin maliyyə xidmətlərinə çıxışının artırılması yolu ilə iqtisadi artımı dəstəkləməklə Birləşmiş Millətlər Təşkilatının müəyyən etdiyi Dayanıqlı İnkişaf Məqsədləri üzrə hədəflərə çatmaq üçün əsas vasitələrdən biri kimi müəyyən edilmişdir.

Dünya Bankının Fintex (yeni maliyyə texnologiyaları) hesabatına əsasən, 2025-ci ildə dünyada 1,3 milyard yetkinlik yaşına çatmış şəxs formal maliyyə xidmətlərindən kənarda qalmışdır ki, bunun da əsas hissəsi qadınlar, yoxsul əhali, aşağı təhsil səviyyəsinə malik olan və ya kənd yerlərində yaşayan şəxslərdir. İnkişaf etməkdə olan ölkələrdə bank sektorundan kənarda qalan əhalinin ümumi əhalidə payı daha yüksəkdir ki, bunun da səbəbi yoxsulluqla yanaşı, maliyyə xidmətlərinin xərcli olması, nəqliyyat xərcləri və maliyyəyə çıxış üzrə şərtlərin əlverişsiz olmasıdır.

Maliyyə İnklüzivliyi Birliyi qlobal səviyyədə tənzimləmə qurumlarının iştirak etdiyi əsas platformalardan biridir. Hazırda təşkilata 84 ölkə üzv olmuşdur. Təşkilatın əsas məqsədi maliyyə inklüzivliyinin artırılması üzrə yüksək təsirə malik siyasət tədbirlərinin hazırlanmasıdır. Təşkilata üzv olan 63 ölkə tərəfindən milli maliyyə inklüzivliyi strategiyası hazırlanmışdır, həmçinin 16 ölkədə isə mövcud strategiyalar yenilənməkdədir. Maliyyə inklüzivliyi strategiyalarında maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması, rəqəmsal maliyyə xidmətləri və maliyyə savadlılığı prioritet istiqamət kimi müəyyən edilmişdir. Bundan başqa, gender bərabərliyi, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşməsi, mikrosığorta və gənclərin maliyyə inklüzivliyi də əsas diqqət mərkəzində olan sahələrdəndir.

Fintexlər maliyyə xidmətlərindən kənarda qalan əhalinin maliyyə inklüzivliyinin artırılması üçün əsas amillərdən birinə çevrilmişdir. Rəqəmsal texnologiyaların maliyyə xidmətlərində tətbiqi maliyyə inklüzivliyinin artmasına əhəmiyyətli dərəcədə müsbət təsir etmişdir. Bir sıra yoxsul ölkələrdə əhalinin bir qismi maliyyə xidmətlərinə ilk dəfə elektron pullar vasitəsilə çıxış əldə etmişdir.

Rəqəmsal identifikasiya sistemi rəqəmsal kanallar vasitəsilə maliyyə xidmətlərinə çıxış üçün zərurətə çevrilmişdir. Maliyyə inklüzivliyinin artırılması məqsədilə Dünya Bankının da dəstəyi ilə bir sıra ölkələrdə rəqəmsal identifikasiya sistemi qurulmuşdur.

Maliyyə inklüzivliyi üzrə ümumi tendensiya qlobal səviyyədə müsbətə doğru dəyişməkdədir. Dünya Bankının Fintexhesabatına əsasən, Azərbaycanda, eləcə də digər bir sıra region ölkələrində maliyyə inklüzivliyi 2017-2024-cü illər arasında əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bununla yanaşı, müvafiq hesabatda Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin cari vəziyyəti real səviyyədən aşağı qiymətləndirilmişdir.

## 3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

Azərbaycan Respublikasında əhali və sahibkarlıq subyektlərinin maliyyə inklüzivliyi genişlənmişdir. 2011-ci ildə yetkinlik yaşına çatmış əhalinin yalnız 14,9 faizinin bank hesabı olduğu halda, 2025-ci ildə bu göstərici 70,7 faiz təşkil etmişdir. Bununla yanaşı, yetkinlik yaşına çatmış əhalinin 70 faizi azı bir maliyyə institutunun xidmətlərindən istifadə edir. Maliyyə xidmətlərinə çıxış səviyyəsi seçilmiş ölkələrə (Türkiyə, Polşa, Gürcüstan, Qazaxıstan və Rusiya) yaxın olduğu halda, maliyyə xidmətlərindən istifadə və maliyyə xidmətlərinin keyfiyyət göstəriciləri təkmilləşmə potensialının yüksək olduğunu göstərir. Bu, xüsusilə, kreditə çıxış səviyyəsi, yığım və investisiya alətləri, sığorta məhsullarının əhatə dairəsi, maliyyə texnologiyalarının tətbiqi, regional paylanma və digər məsələlər üzrə xarakterikdir.

Cədvəl 1. Maliyyə inklüzivliyi indikatorlarının seçilmiş ölkələrlə müqayisəsi

| Kateqoriya | İndikator | Azərbaycan | Seçilmiş ölkələr üzrə orta göstərici** |
|---|---|---|---|
| Xidmət nöqtələri | Hər 100.000 yetkin (15+) nəfərə düşən bank filiallarının sayı | 6,7[a] | 21,1[2] |
| Bankomatlar | Hər 100.000 yetkin nəfərə düşən bankomatlarınsayı | 43,9[a] | 97,2[2] |
| | Hər 1.000 km$^2$-ə düşən bankomatların sayı | 41,2[a] | 39,1[2] |
| Bank hesabları | Hesablar (yaş 15+) | 70,7faiz[a] | 82,6faiz[1] |
| Bankda əmanətlər | Bir il ərzində depozit qoyuluşları edən şəxslərin bank hesabı olan şəxslərə nisbəti | 77faiz[1] | 74faiz[1] |
| | Əmanət hesabı olan yetkinlik yaşına çatmış şəxslər | 17faiz[1] | 28,4faiz[1] |
| Yetkinlik yaşına çatmış şəxslərin kreditləşməsi | Hər hansı borc alan yetkinlik yaşına çatmış şəxslər | 63faiz[1] | 53,6faiz[1] |
| Pul köçürmələri | Ölkədaxili və ölkəxarici pul baratları qəbul edən və göndərən yetkinlik yaşına çatmış şəxslərin sayının yetkin əhalinin sayında payı | 22faiz[1] | 32,4faiz[1] |
| | Pul baratları qəbul edən yetkinlik yaşına çatmış şəxslərin sayının yetkin əhalinin sayında payı | 16faiz[1] | 22,4faiz[1] |
| | Pul baratları göndərən yetkinlik yaşına çatmış şəxslərin sayının yetkin əhalinin sayında payı | 11faiz[1] | 23,7faiz[1] |
| Tənzimlənən maliyyə institutlarında cari krediti və ya kredit xətti olan emal sənayesi müəssisələri | Cari krediti və ya kredit xətti olan emal sənayesi müəssisələri | 36,4faiz[3] | 33,5faiz[3] |
| Dövriyyə kapitalını maliyyələşdirmək üçün ticarət/təchizat kreditindən istifadə edən emal sənayesi müəssisələri | Dövriyyə kapitalını maliyyələşdirmək üçün ticarət/təchizat kreditindən istifadə edən emal sənayesi müəssisələri | 30,1faiz[3] | 27,5faiz[3] |
| Mobil əməliyyatlardan istifadə | Ödəniş üçün mobil cihazlardan istifadə edən unikal istifadəçilərin sayının yetkin əhalininsayında payı | 52faiz[1] | 78,8faiz[1] |

** Daxil edilən ölkələr: Türkiyə, Polşa, Gürcüstan, Qazaxıstan və Rusiya (2024)
1 Dünya Bankı Fintex hesabatı, 2024
2 BVF Maliyyəyə Çıxış hesabatı, 2024
3 Dünya Müəssisələr Sorğusu hesabatı, 2024
[a] Mərkəzi Bankın hesablaması

Maliyyə inklüzivliyinin əsas komponentləri üzrə cari vəziyyətin daha təfsilatlı təhlili və inkişaf perspektivləri aşağıda təqdim olunur:

**3.1. Maliyyə xidmətlərinə çıxış üzrə:**

**3.1.1. maliyyə institutlarının filial və digər fiziki xidmət şəbəkəsi genişlənmişdir.** 2025-ci ilin III rübünün sonunda bank və bank olmayan kredit təşkilatlarının (bundan sonra - BOKT) ümumilikdə 799 filialı mövcud olmuşdur(bank filialı - 499, BOKT filialı - 300) və onların 50 faizdən çoxu regionların payına düşmüşdür. Bununla yanaşı, POS-terminalların sayı 2018-2025-ci illər ərzində 2,6 dəfə artaraq 172,9 min ədədə çatmış, o cümlədən təmassız ödənişləri qəbul edən POS-terminalların sayı analoji dövr ərzində 7,8 dəfə artaraq 171,1 min ədəd olmuşdur. Poçt rabitəsinin milli operatorunun filial və poçt şöbəsi şəbəkəsindən maliyyə xidmətlərinin göstərilməsi məqsədilə istifadə ucqar bölgələrdə maliyyə xidmətlərinə əlçatanlığı artırır;

**3.1.2. bankomatlar və POS-terminalların əhatə dairəsi və istifadə səviyyəsi seçilmiş ölkələrlə müqayisədə aşağıdır.** Pərakəndə ticarət müəssisələrində quraşdırılmış POS-terminalların orta hesabla 50 faizi aktiv istifadə olunur. Aktiv istifadə dedikdə bir ay ərzində POS-terminal vasitəsilə 4-dən çox sayda tranzaksiyanın həyata keçirilməsi nəzərdə tutulur.Azərbaycan Respublikasında hər 1000 nəfərə düşən POS-terminal sayı 17olduğu halda, bu göstərici Qazaxıstanda 68, Türkiyədə 54, Gürcüstanda 32-dir. Müasir maliyyə texnologiyalarının tətbiqi, o cümlədən AZQR kod (Azərbaycan Respublikasının ərazisində malların, işlərin və xidmətlərin dəyərinin ödənilməsi üçün formalaşdırılan QR kod) vasitəsilə ödənişlərin aparılması bu istiqamətdə irəliləyiş üçün yeni perspektivlər yaradır;

**3.1.3. ödəniş terminallarının pərakəndə ödənişlərdə rolu artmışdır.** Kredit təşkilatları, sığorta şirkətləri, kommunal xidmət göstərən qurumlar və digər xidmət təchizatçıları ödəniş terminalları təchizatçıları ilə əməkdaşlıq etməklə müştərilərin ödənişlərini qəbul edir. Bu, bir tərəfdən maliyyə xidmətlərinə rahat çıxışı təmin edir, digər tərəfdən isə maliyyə institutlarının xərclərinin optimallaşdırılmasına xidmət edir. Ödəniş terminallarının imkanlarından istifadənin daha da genişləndirilməsi potensialı mövcuddur;

**3.1.4. rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi maliyyə inklüzivliyinin artırılmasını dəstəkləyir.** Maliyyə xidmətlərinin, o cümlədən kredit müraciətlərinin qəbulu, qiymətləndirilməsi və təsdiqi prosesləri əhəmiyyətli dərəcədə rəqəmsallaşdırılmışdır. Rəqəmsal texnologiyaların ödəniş xidmətlərində tətbiqi əhali və sahibkarlıq subyektlərinin ödənişlərini rahat, təhlükəsiz və daha aşağı xərclə aparmasına şərait yaratmaqla yanaşı, maliyyə institutları tərəfindən təklif olunan xidmət kanallarının genişləndirilməsinə və son nəticədə maliyyə vasitəçiliyinin artırılmasına imkan verir. Alternativ xidmət kanalları (internet bankçılıq, mobil bankçılıq və s.), müştəri ehtiyaclarına uyğunlaşdırılmış və sadələşmiş xidmət üsulları xərclərin azaldılmasına və müştəri məmnuniyyətinin artırılmasına şərait yaradır;

**3.1.5. regionlar, kənd və qəsəbələrdə maliyyə əlçatanlığı şəhər yerlərinə nisbətən aşağıdır.** Yetərli biznes həcminin formalaşmaması səbəbindən, maliyyə institutları müəyyən coğrafi ərazilərdə maliyyə xidmətləri göstərməkdə maraqlı olmur, bununla da kənd və ucqar yerlərdə maliyyə əlçatanlığında problemlər yaranır. Bəzi bölgələrdə isə internetə çıxışda çətinliklər mövcuddur və ya virtual xidmətlərdən istifadə üzrə savadlılıq səviyyəsi aşağıdır. Nəticədə, vətəndaşlar onlayn edə biləcəkləri əməliyyatlar üçün maliyyə qurumlarının ofislərinə gəlmək ehtiyacı duyurlar ki, bu da bəzən uzaq yol və nəqliyyat xərcləri baxımından maneələr yaradır.

**3.2. Maliyyə məhsulları və xidmətləri üzrə:**

**3.2.1. təhlükəsiz və keyfiyyətli ödəniş xidmətləri maliyyə inklüzivliyinin əsas sütunlarından biridir.** Son illərdə çoxsaylı təşəbbüslərin həyata keçirilməsinə baxmayaraq, istehlak xərclərinin dəyərinin ödənilməsi üzrə nağdsız ödənişlərin payı (2025-ci ilin II rübünün sonuna 45 faiz) seçilmiş ölkələrlə müqayisədə aşağı hesab olunur. Nağdsız ödənişlər əsasən kartlar vasitəsilə aparılır və hesab əsaslı ödənişlərin payı məhduddur. 2025-ci ilin yanvar-oktyabr ayları üzrə təmassız ödənişlərin sayı və həcmi isə əvvəlki ilin müvafiq dövrünə nəzərən müvafiq olaraq 21 faiz və 5 faiz artmışdır;

**3.2.2. maliyyə infrastrukturunun gücləndirilməsi, eləcə də pandemiya dövründə müştərilərin davranışlarında baş vermiş dəyişikliklərin nəticəsi olaraq, Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin həcmi sürətlə artmaqda davam etməkdədir.** 2025-ci ilin yanvar-oktyabr ayları üzrə ölkə daxilində debet və kredit kartları vasitəsilə aparılmış elektron ticarət əməliyyatlarının həcmi 70,6 milyard manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 32,7 faiz artım deməkdir. Qeyd edilən dövrdə POS-terminallar vasitəsilə aparılan əməliyyatların həcmi isə 2,3 faiz artmışdır. POS-terminal vasitəsilə edilmiş ödənişlərin 97 faizi təmassız formada aparılmışdır ki, bu da bank müştərilərinin təmassız ödənişləri dəstəkləyən həllərə keçid sürətinin yüksək olduğunun göstəricisidir. Əməliyyat sayının sürətli artımı isə, öz növbəsində, rəqəmsal dələduzluq risklərini artırır ki, bu da müştəri məlumatlılığının artırılması üzrə bütün bazar iştirakçıları tərəfindən koordinasiya edilmiş şəkildə tədbirlərin icrasını aktuallaşdırır;

**3.2.3. ölkədə maliyyələşmə sistemi bank əsaslı olub kapital bazarları vasitəsilə maliyyələşmə məhduddur.** Son 5 ildə kredit portfelinin həcminin 17 faizi illik mürəkkəb artım tempi ilə artmasına baxmayaraq, Dünya Bankının məlumatına görə Azərbaycanda özəl sektora verilmiş kreditlərin ümumi daxili məhsulda (bundan sonra - ÜDM) pay göstəricisi 2024-cü ilin sonuna 26,4 faiz olmaqla seçilmiş ölkələrdən geri qalır (Gürcüstan - 68,1 faiz, Qazaxıstan - 27,3 faiz, Türkiyə -43 faiz). Əsas çağırışlar sahibkarlıq subyektlərinin borc alətləri, kapital (səhm, vençur kapitalı) və alternativ maliyyələşmə mənbələrinə çıxışının məhdudluğu ilə xarakterizə olunur. Məhdudiyyətlər xüsusilə fəaliyyətin ilkin mərhələsində olan və inkişafyönümlü bizneslər üzrə daha aktualdır. İstehlak kreditləşməsi əlçatan olsa da, onun dayanıqlı çərçivəsinin təmin edilməsi istiqamətində işlər davam etdirilir. İpoteka kreditləri və digər spesifik maliyyələşmə növləri üzrə maliyyələşmə mənbələri uyğun deyildir. İnformasiya asimmetriyasının azaldılması məqsədilə daşınar əmlakın yüklülüyünün dövlətreyestrindən daha səmərəli istifadə, eləcə də əhali və sahibkarlıq subyektlərinin maliyyə əlçatanlığının artırılması üçün məlumat əsaslı maliyyələşmə məhsullarının tətbiqi üzrə daha əhatəli və səmərəli təşəbbüslərin icrasına ehtiyac vardır.

BOKT sektoru maliyyə xidməti məhsullarının diversifikasiyası və maliyyə inklüzivliyinin təşviqi üçün əhəmiyyətli potensiala malikdir. 2025-ci ilin III rübünün sonunda ölkədə 90 BOKT, o cümlədən 36 kredit ittifaqı fəaliyyət göstərsə də, onların ümumi aktivləri maliyyə sektorunun ümumi aktivlərinin payının1,8 faizidir ("Aqrarkredit" QSC-nin aktivləri nəzərə alınmadan). Maliyyə inklüzivliyinin genişləndirilməsində BOKT-ların potensialının reallaşdırılması əsas prioritetlərdən biridir. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş son dəyişikliklərə əsasən BOKT-ların kredit verilməsi məqsədilə ödəniş hesabları açmasına və aparmasına, kredit kartları emissiya etməsinə imkan yaradılmışdır. Bununla yanaşı, BOKT sektoru üzrə bir sıra əhəmiyyətli çağırışlar qalmaqdadır. Belə çağırışlara məhsulların məhdud şaxələndirilməsi, BOKT-ların məhsulları haqqında məlumatlılığın aşağı olması və BOKT-ların maliyyələşmə mənbələrinə çıxışının məhdudluğu daxildir. Yeni strateji dövrdə BOKT sektorunun rolunun artırılması, BOKT-ların strukturunun və məhsullarının diversifikasiyası ölkədə maliyyə inklüzivliyini artırmaq, o cümlədən bank xidmətləri ilə əhatə olunmayan və ya zəif əhatə olunan şəxslərin maliyyə xidmətlərinə çıxışı üzrə geniş imkanlar yarada bilər.

Maliyyə icarəsi əməliyyatlarının inkişafı üçün geniş potensial mövcuddur. 2026-cı il martın sonuna banklar və BOKT-lar tərəfindən təqdim edilmiş maliyyə icarəsi xidmətlərinin həcmi 46 mln. manat olmuşdur. Maliyyə icarəsi fəaliyyəti üzrə potensialın reallaşdırılması məqsədilə hüquqi və tənzimləmə sahəsində islahatların aparılması və maliyyə icarəsi sektorunun inkişafı üçün daha əlverişli mühitin yaradılması zəruri hesab edilir.

Mikro, kiçik və orta biznes (bundan sonra - MKOB) sektorunda sağlam kredit tələbinin genişlənməsi əsas fundamental məsələlərdən biridir. 2024-cü il üzrə MKOB-ların ÜDM-in formalaşmasında payı cəmi 16,3 faiz təşkil etmişdir (qeyri-neft-qaz sektoru üzrə 28,9 faiz) ki, bu göstərici seçilmiş ölkələrdə (məsələn, Gürcüstan, Qazaxıstan, Rusiya və Türkiyə) 22-61 faiz aralığındadır.MKOB-ların şəffaflığının aşağı olması, məlumat asimmetriyası və biznesin idarə edilməsi səriştəsində zəifliklər onların kredit və digər maliyyə resurslarına çıxışını məhdudlaşdırır. Kənd təsərrüfatı və regionlarda maliyyələşmə ehtiyacı daha yüksəkdir. Dövlət fondları tərəfindən sahibkarlığa dəstək məqsədilə ayrılan maliyyə vəsaitləri əsasən MKOB-lara yönəlmişdir. Belə ki, Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 2025-ci ilin 11 ayı ərzində 5812 layihənin maliyyələşdirilməsinə 341,8 mln. manat güzəştli kredit verilmişdir. Güzəştli kreditlərin layihə sayı üzrə 99,7 faizi, kredit məbləği üzrə isə 89,9 faizi MKOB subyektlərinə verilmişdir. Bununla yanaşı, dövlət fondları tərəfindən sahibkarlığa dəstək məqsədilə ayrılan maliyyə vəsaitlərinin (kreditlər, zəmanətlər və subsidiyalar daxil olmaqla) həcmi cəmi biznes kreditlərinin 7,6 faizini təşkil etməklə yetərli təsir yarada bilmir. Normativ hüquqi aktların tələbi olaraq kreditlərin yalnız nağdsız qaydada verilməsi mikro və kiçik sahibkarların kreditə çıxışını çətinləşdirir;

**3.2.4. kənd təsərrüfatı ilə məşğul olan, eləcə də kənd yerlərində fəaliyyət göstərən sahibkarların maliyyə mənbələrinə çıxışının məhdud olması onların məhsuldarlığını və investisiya imkanlarını azaldır.** 2025-ci il oktyabrın sonunda kənd təsərrüfatı ilə məşğul olan şəxslərə (fiziki şəxslər, ailə kəndli təsərrüfatları, fermerlər və s.) ayrılan kənd təsərrüfatı kreditlərinin həcmi ümumi kredit portfelinin 7 faizini təşkil etmişdir. 2025-ci ilin 11 ayı ərzində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən kənd təsərrüfatı istehsalı sahəsinə orta kredit məbləği 27,7 min manat olmaqla ümumilikdə 5184 layihəyə 143,5 mln. manat ayrılmışdır. Fond tərəfindən iqtisadiyyatın sahələri üzrə verilmiş kreditlərin layihə sayı üzrə 89,2 faizi (5184 layihə), kredit məbləği üzrə isə 42 faizi (143,5 mln. manat) kənd təsərrüfatı məhsulları istehsalının payına düşür. 2024-cü ildə Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən ortalama məbləğ 11,62 min manat olmaqla, aqrar sahədə çalışan 1791 hüquqi və fiziki şəxsə mikrokredit ayrılmışdır. Kənd təsərrüfatı istehsal vasitələrinin alışının maliyyələşdirilməsi məqsədilə ayrılan güzəştlərin və ödənilmiş ümumi subsidiyanın həcmi bu istiqamətdə ayrılan kredit (maliyyə icarəsi)məbləğlərindən təqribən 6 dəfə çox olmuşdur.

Ardı 15-ci səh.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı

*Əvvəli 14-cü səh.*

Məhdud dövlət resurslarından daha strateji istifadə edilməklə miqyas effektinə nail olunması vacib məsələlərdəndir. Ümumilikdə, kənd təsərrüfatı ilə məşğul olanların maliyyə əlçatanlığı ilə bağlı əsas problem onların ehtiyaclarına cavab verən məhsul növlərinin məhdud olmasıdır;

**3.2.5. fiziki şəxslərin yığıma meyilliyi yüksəkdir.** Maliyyə savadlılığı üzrə sorğu nəticələri respondentlərin 41 faizinin yığıma meyilli olduqlarını göstərmişdir. Dünya Bankının Fintex hesabatına əsasən, yetkinlik yaşına çatmış əhalinin 4,5 faizinin əmanət hesabı vardır. Bununla yanaşı, Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına əsasən,banklarda müddətli depozitə malik şəxslərin sayı aşağıdır (yetkinlik yaşına çatmış əhalinin 2,4 faizi). Maliyyə institutlarında yığımların aşağı mobilizasiyası tələb və təklifyönümlü amillərlə xarakterizə olunur. Tələbyönümlü amillərə ev təsərrüfatlarının yığım səviyyəsinin aşağı olması, kiçik və orta bizneslərin (bundan sonra - KOB) yığımlarını banklarda saxlamaqda maraqlı olmaması, mikro sahibkarların nağd vəsaitlə əməliyyatlara üstünlük verməsi və KOB-ların cari hesablarının əmanətlərin sığortalanması mexanizmi ilə əhatə olunmaması daxildir. Yalnız fiziki şəxslərin sahibkarlıq məqsədilə açdığı bank hesablarındakı 20 min manatadək pul vəsaiti sığortalanır. Qeyd edilənlər bir tərəfdən banklarda kiçik və orta həcmli yığımların artırılması üzrə potensialın olduğunu göstərir, digər tərəfdən isə çoxşaxəli fundamental islahatların həyata keçirilməsi zərurətini şərtləndirir. Təklifyönümlü amillərə sektorda yüksək likvidlik səbəbindən (xüsusilə iri dövlət neft-qaz şirkətlərinin korporativ depozitləri üzrə) sistem əhəmiyyətli bankların pərakəndə depozitlərin cəlb edilməsinə marağının aşağı olması, innovativ yığım məhsullarının məhdudluğu (məsələn, qızıl əmanət hesabları), hüquqi çərçivənin kiçik əmanətlərin stimullaşdırılması baxımından diferensial olmaması və s. aid edilə bilər. Xüsusilə, kiçik depozitlərin maliyyə sisteminə daxil edilməsi vacibdir. Hazırda bir çox banklar xərc baxımından effektiv olmadığı üçün əmanətlərin minimum məbləğinə limit müəyyən edir. Bu isə aşağı məbləğli əmanətlərin sektora cəlb edilməsinə və maliyyə inklüzivliyinə mənfi təsir edir;

**3.2.6. fərdi investorlar üçün maliyyə alətləri məhduddur.** Cari vəziyyət bir neçə amil ilə xarakterizə olunur. İlk növbədə, investisiya qoyuluşları üçün maliyyə alətləri məhduddur. Kapital bazarlarında əsas institusional investor kimi maliyyə institutları çıxış edir, fərdi investorların aktivliyi, eyni zamanda kapital bazarında investisiya imkanları barədə fərdi investorlar arasında məlumatlılıq səviyyəsi aşağıdır. Digər tərəfdən, tələb əsasən kredit məhsulları üzrə olub, kapital bazarı alətləri üzrə aşağıdır. Kapital bazarının maliyyələşmə mənbəyi olması ilə bağlı sahibkarlıq subyektlərinin məlumatlılığı aşağıdır. Fərdi investorların kapital bazarlarına çıxış kanalları məhduddur. Nəticədə, həm borc, həm də kapital bazarı üzrə ticarət dövriyyəsi aşağıdır. Ümumilikdə, fərdi investorlar üzrə kapital bazarında əsas çağırışlar alətlərin məhdudluğu, aşağı məlumatlılıq, investisiya alətlərinə çıxış kanallarının məhdudluğu və aşağı ticarət dövriyyəsi ilə xarakterizə olunur. Başlıca olaraq mobil platformalardan istifadə funksionallığının artırılması, ənənəvi bank məhsul və xidmətləri ilə yanaşı, qiymətli kağızlar bazarında kotirovka olunan maliyyə alətlərinə investisiya imkanının yaradılması zəruridir ki, bunun üçün kapital bazarının formalaşdırılması, həmçinin investisiya olunan alətlərin sadə və rahat şəkildə ilkin və təkrar bazarlarda alış və satışına şərait yaradılması vacibdir;

**3.2.7. sığorta bazarının genişlənməsi maliyyə xidmətlərinə çıxış imkanlarının artmasına zəmin yaradır.** Son illərdə sığorta bazarının həcmi genişlənmiş, sığorta haqlarının sabit inkişaf dinamikası davam etmiş və sığorta xidmətlərinin çeşidi artmışdır. Sığorta haqlarının həcmi 2025-ci ilin doqquz ayının nəticələrinə görə 1157,25mln. manata yüksəlmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə sığorta haqlarının həcmi 743 mln. manat və ya 179 faiz artmışdır. Bununla yanaşı, sığorta xidmətlərinin inklüzivliyi ilə bağlı bir sıra çağırışlar mövcuddur. Belə çağırışlara sığorta xidmətlərinin çatdırılmasının effektivliyi, icbari və könüllü sığorta növlərinin inkişafını ləngidən amillər, habelə sığorta üzrə məlumat bazası sistemində məhdud inteqrasiyalarla bağlı məsələlər daxildir.

Sığorta xidmətlərinin çatdırılma kanalları üzrə əsas amillərdən biri sığorta agenti şəbəkəsinin effektivliyi, o cümlədən lisenziyalaşdırma prosedurları, sığorta agentlərinin ixtisas səviyyəsi ilə bağlıdır. Digər ölkələrlə müqayisədə sektorda agentlərin sayının aşağı olmasının (məsələn, hər 1000 sakinə 0,05, Türkiyədə isə 0,2) səbəblərindən biri bu sahədə biznesə başlamağın cəlbedici olmamasıdır. Hazırda agentlər daha çox icbari sığorta məhsullarının satışına fokuslanır (ümumi agent şəbəkəsi üzrə satışın 56faizi, fiziki agentlər üzrə isə 72faizi), könüllü sığorta məhsullarının satışı isə (məsələn, həyat sığortası, tibbi sığorta) əsasən sığortaçılar tərəfindən birbaşa həyata keçirilir. Sığortaçılar birbaşa satış kanallarına üstünlük verməklə (həyat sığortası üzrə 71 faizi, qeyri-həyat sığortası üzrə isə 58 faizi) agent şəbəkələrinigenişləndirməkdə maraqlı olmurlar. Bu göstərici Türkiyədə müvafiq olaraq 12 faiz və 8faiz təşkil edir. Digər tərəfdənbanklar sığorta məhsullarının satışı üçün özlərinin geniş müştəri şəbəkələrindən effektiv istifadə etmirlər. Banklarda sığorta məhsullarının satışı üzrə bacarıqların və çarpaz satış potensialının aşağı olması sığorta məhsullarının satışlarını məhdudlaşdırır. Bununla yanaşı, sığorta müqavilələrinin birbaşa rəqəmsal satışı, habelə sığorta tələbi üzrə proseslərin rəqəmsal kanallar vasitəsilə aparılması səviyyəsi aşağıdır.

Tibbi sığorta sisteminin təkmilləşdirilməsi üçün imkanlar mövcuddur.Belə ki, həm icbari, həm də könüllü tibbi sığorta sistemində çətinliklər mövcuddur. İcbari sığorta sistemində xidmətlərin əhatə dairəsi, gözləmə müddətləri və müştəri məmnuniyyəti ilə bağlı təkmilləşdirmə imkanları mövcuddur. Digər tərəfdən isə könüllü tibbi sığorta, əsasən təşkilatların, o cümlədən kommersiya təşkilatlarının əməkdaşlarına fokuslanıbdır. Fərdi qaydada könüllü tibbi sığorta mexanizmi inkişaf etməmişdir. Könüllü tibbi sığorta qiymətləri seçilmiş ölkələrə nisbətən əhəmiyyətli dərəcədə yuxarıdır (fiziki şəxslər üçün ortalama 1900 manat, hüquqi şəxslərin işçiləri üçün isə 630 manat). Qeyd edək ki, könüllü tibbi sığortanın qiyməti Türkiyədə təqribən 500 ABŞ dolları təşkil edir. Bir sıra ölkələrdə tibbi sığorta qiymətləri Azərbaycan Respublikası ilə müqayisədə ucuz olmaqla yanaşı, orta əməkhaqqı daha yüksəkdir. Beləliklə, fiziki şəxslər üçün könüllü tibbi sığortanın baha olması vətəndaşların tibbi sığorta əldə etməsini çətinləşdirir. Könüllü tibbi sığorta növləri üzrə qiymətlərin hesablanması üzrə hüquqi çərçivə müəyyən olunmamışdır. Sığortaçılar tərəfindən innovativ və əlavə dəyər yaradan könüllü tibbi sığorta məhsullarının yaradılması bazarın inkişafına müsbət təsir edə bilər.

**3.3. Maliyyə infrastrukturu və rəqəmsallaşma üzrə:**

**3.3.1. maliyyə infrastrukturunun əhatə dairəsi artırılmışdır.** Geniş maliyyə infrastrukturu risklərin azalmasını və xidmətlərin keyfiyyətinin yüksəlməsini şərtləndirmişdir. Xüsusilə Elektron Hökumət İnformasiya Sistemindən fiziki şəxslərin identifikasiyası üçün lazımi məlumatların (iş yeri, gəlir və s. barədə) əldə olunması, eləcə də onlar üçün məsafədən hesabların açılması təcrübəsinin tətbiqinə başlanılması maliyyə xidmətlərinin rahatlığını artırır. Azərbaycan Respublikasında bank və bank olmayan ödəniş xidməti təchizatçılarının müştəriləri olan fiziki və hüquqi şəxslər arasında, həmçinin bu şəxslərlə dövlət orqanları arasında hesablaşmaların 24/7,365 rejimində aparıla bilməsinin təmin edilməsi məqsədilə Ani Ödənişlər Sistemi (bundan sonra - AÖS) yaradılmışdır. AÖS-ün imkanlarının tam reallaşdırılması maliyyə inklüzivliyinin artırılmasının vacib komponentlərindən biri hesab olunur;

**3.3.2. maliyyə xidmətlərinin rəqəmsallaşması müştəri identifikasiya infrastrukturunun yeni keyfiyyət müstəvisinə qaldırılmasını zəruri edir.** Maliyyə xidmətlərinin rəqəmsallaşmasının daha yuxarı müstəviyə çatdırılması üçün rəqəmsal identifikasiya sisteminin təkmilləşdirilməsi və paylanılmış "Öz müştərini tanı" yanaşmasının tətbiqi əsas amillərdən biridir. Rəqəmsal identifikasiya şəxsiyyəti müəyyənləşdirməyə imkan verən elektron məlumatları ehtiva edir və bu sahədə universal həllərin yaradılması qlobal trendlərdən biri kimi çıxış edir. Bir sıra ölkələr artıq rəqəmsal identifikasiya sistemlərini formalaşdırmış, eyni zamanda müştəri məlumatlarının təhlükəsiz mübadiləsi və təkrar istifadəsinə imkan verən yanaşmaları tətbiq etmişdir. Bir çox ölkələr isə bu istiqamətdə müvafiq infrastrukturun yaradılmasına və tətbiqinə hazırlıq mərhələsindədir. Eyni zamanda, biometrik identifikasiya alətlərinin (üz cizgilərinin tanınması və s.) geniş tətbiqi müştəri identifikasiyasının daha etibarlı və əlçatan olmasına imkan yaradır. Göstərilən qlobal trendlərin ölkəmizdə tətbiqi Dövlət Proqramının əsas hədəflərindən biri olacaqdır;

**3.3.3. ölkədə hərtərəfli ödəniş sistemi infrastrukturu formalaşdırılmışdır.** Milli Ödəniş Sistemi infrastrukturu real vaxt rejimində Banklararası Milli Hesablaşmalar Sistemi, Xırda Ödənişlər üzrə Hesablaşma-Klirinq Sistemi, Hökumət Ödəniş Portalı, AÖS və Banklararası Kart Mərkəzindən ibarətdir. Ödəniş sistemləri üzrə əsas qlobal trendlərdən biri real vaxt rejimində fəaliyyət göstərən AÖS-ün yaradılmasıdır. Azərbaycan Respublikası AÖS-ü tətbiq edən ilk ölkələr sırasındadır. Bununla yanaşı, ölkədə müasir ödəniş sistemi infrastrukturunun mövcudluğuna baxmayaraq, ondan istifadə səviyyəsi, xüsusilə AÖS üzrə aşağıdır. 2025-ci ilin oktyabrın sonunda AÖS üzrə ödənişlər nağdsız ödənişlərin say üzrə cəmi 4,8 faizini təşkil etmişdir. 2025-ci ilin əvvəli ilə müqayisədə AÖS əməliyyat sayı 35 dəfədən çox artaraq noyabr ayında 2,5 milyona çatmışdır. Bununla yanaşı, AÖS vasitəsilə ödənişlərin genişləndirilməsi üçün əhəmiyyətli inkişaf potensialı mövcuddur. Hazırda Hökumət Ödəniş Portalı ödənişlərinin AÖS üzərindən inteqrasiyası mərhələli şəkildə həyata keçirilir. Bununla yanaşı, fiziki şəxsdən fiziki şəxsə ödənişlər artıq AÖS vasitəsilə icra olunur. Əsas prioritetlərdən biri AZQRkod ödənişlərinin genişləndirilməsidir. Bu istiqamətdə bankların sistemə həm emitent, həm də ekvayerqismində qoşulması tələb olunur. AZQRkod ödənişlərinin geniş tətbiqi pərakəndə ödənişlərdə, dövlət və özəl sektor üzrə müxtəlif istifadə ssenarilərinin formalaşdırılmasına imkan yaradır. Bununla yanaşı, AÖS üzərindən biznes subyektləri arasında ödənişlərin genişləndirilməsi üçün əhəmiyyətli potensial mövcuddur. Beləliklə, AZQRkod ödənişlərinin istifadə sahələrinin genişləndirilməsi müxtəlif sektorlar və ödəniş ssenariləri üzrə tətbiqinin artırılması mümkündür. Bu potensialın tam reallaşdırılması üçün bankların texniki inteqrasiyalarının tamamlanması, eləcə də istehlakçıların və biznes subyektlərinin AÖS və AZQRkod ödənişimkanları barədə məlumatlılıq səviyyəsinin artırılması vacibdir;

**3.3.4. maliyyə infrastrukturunun təkmilləşdirilməsi və rəqəmsallaşmanın sürətləndirilməsi imkanları mövcuddur.** Məsafədən eyniləşdirmə üzrə ilkin hüquqi çərçivə artıq formalaşdırılmışdır. Son dövrlərdə geniş əhali kütləsi üçün əlçatan, istifadə baxımından rahat və rəqəmsal xidmətlərə inteqrasiya oluna bilən elektron imza həllərinin mövcudluğu bu sahədə əhəmiyyətli inkişaf yaratmışdır. Bununla belə, təcrübədə maliyyə institutları tərəfindən müştərinin eyniləşdirilməsi məqsədilə müxtəlif metodlardan (birdəfəlik məxfi söz), videozəng və s.) paralel şəkildə istifadə olunmaqdadır. Bu isə müəyyən pərakəndəlik və qeyri-bərabər rəqabət şərtlərini formalaşdırır, vahid standartın tətbiqini çətinləşdirir və müvafiq riskləri artırır. Məsafədən hesabların açılması və müştərinin eyniləşdirilməsi proseslərinin daha da təkmilləşdirilməsi, xüsusilə fərdi sahibkarlar üzrə rəqəmsal identifikasiya və elektron imzadan istifadə prosedurlarının optimallaşdırılması aktual olaraq qalır;

**3.3.5. qlobal trendlər ölkənin maliyyə sektorunda innovasiyaların tətbiqinin sürətləndirilməsini zəruri edir.** Bu xüsusda mövcud hüquqi çərçivənin təkmilləşdirilməsi və innovasiyaları həyata keçirmək üçün investisiya kapitalının mövcudluğu fintex sektorunun inkişafı üçün önəmli amillərdəndir. Fintex və digər maliyyə innovasiyalarının maliyyə inklüzivliyinin genişləndirilməsi üzrə yaratdığı imkanları nəzərə alaraq, texnologiyanın hər kəs üçün faydalılığını təmin etmək məqsədilə özəl sektor tərəfindən təklif edilən innovasiyaların dövlət siyasəti ilə dəstəklənməsi vacibdir. AÖS-ün potensialının tam realizasiyası rəqəmsal maliyyə üzrə geniş perspektivlər vəd edir.

Azərbaycan Respublikasında bank müştərilərinin yeniliyə açıq olması, eyni zamanda, ölkədə mobil və internet əhatə dairəsinin yüksək olması maliyyə sektorunda innovasiyaların tətbiqi üçün əlverişli şərait yaradır. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına əsasən, 2024-cü ilin sonunda Azərbaycan Respublikasında hər 100 nəfərə düşən internet istifadəçisinin sayı 91 nəfər olmuşdur. Dünya üzrə orta göstərici 63, o cümlədən Avropa üzrə orta göstərici 83 nəfərdir. "Google Pay" və "Apple Pay" kimi innovativ ödəniş həllərinin ölkədə tətbiq edilməsi və kütləviləşməsi istehlakçıların yeniliklərə açıq olmasının göstəricisidir. Qeyd edilənlər maliyyə xidmətlərinin tam rəqəmsallaşdırılması üçün aşağıdakı ikiistiqamət üzrə işlərin görülməsini zəruri edir:

3.3.5.1. müştərilərin eyniləşdirilməsivə verifikasiyası zamanı rəqəmsal paylanılmış "Öz müştərini tanı" sisteminin tətbiqi;

3.3.5.2. yeni müştərilərin qəbulu və işgüzar münasibətlərin rəqəmsal qaydada qurulması.

**3.4. Tənzimləmə və nəzarət sahəsində dövlət siyasəti üzrə:**

**3.4.1. inklüziv maliyyə sisteminin yaradılması müxtəlif maliyyə xidməti təminatçıları, yeni çatdırılma kanalları, maliyyə məhsulları və xidmətləri üzrə proporsional tənzimləmə yanaşmasını zəruri edir.** Hüquqi çərçivə maliyyə inklüzivliyinin genişləndirilməsi və maliyyə sabitliyinin qorunması hədəflərini balanslaşdırmalıdır. Əks halda, bu maliyyə institutları tərəfindən real sektorun kreditləşməsində daralma və ya aşağı gəlirli əhalinin izafi borclanması ilə nəticələnə bilər. Əlverişli hüquqi çərçivə prudensial siyasətin effektivliyini və səmərəliliyini artırmaqla ölkədə maliyyə inklüzivliyinin genişləndirilməsi baxımından vacibdir;

**3.4.2. rəqəmsal maliyyə xidmətləri üzrə hüquqi çərçivənin gücləndirilməsi zəruridir.** Açıq bankçılıq, rəqəmsal identifikasiya və paylanılmış "Öz müştərini tanı" sistemi, elektron imza, elektron müqavilə üzrə hüquqi çərçivənin yaradılması və ya təkmilləşdirilməsi tam maliyyə əlçatanlığının təmin edilməsi üçün vacib şərtlərdəndir. Bu istiqamətdə hüquqi və əməliyyat çərçivəsinin təkmilləşdirilməsi potensialı mövcuddur;

**3.4.3. maliyyə sabitliyi və maliyyə inklüzivliyi siyasətlərinin effektiv balanslaşdırılması vacibdir.** Makroprudensial siyasət bir tərəfdən maliyyə sabitliyinin, həmçinin məsuliyyətli kreditləşmə və məsuliyyətli borclanmanın təmin edilməsi, digər tərəfdən isə maliyyə inklüzivliyinin artırılması hədəflərinin təmin edilməsinə yönəlmişdir. Bununla yanaşı, makroprudensial siyasət istehlak kreditləşməsinin dayanıqlı və sağlam müstəviyə keçirilməsinə hədəflənmişdir. Bu tədbirlər istehlakçıların izafi borclanmasının qarşısını almaqla yanaşı, rəsmi gəliri olmayan şəxslərin maliyyə inklüzivliyinə mənfi təsir göstərir, onların maliyyə sektorundan kənar mənbələrdən yuxarı xərclə borclanmasına səbəb olur. Bu məsələ üzrə düzgün siyasətin formalaşdırılması çox sayda ölkələr, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün xarakterikdir;

**3.4.4. dövlət siyasəti maliyyə inklüzivliyinin və şəffaflığının artırılmasına istiqamətlənmişdir.** Ölkədə nağdsız ödənişlərin inkişafı, rəqəmsal kanallar vasitəsilə maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması, prudensial qaydalarla MKOB-ların maliyyələşməsinin təşviqi, habelə biznesin şəffaflaşması tədbirləri və dövlət dəstək mexanizmləri, ümumilikdə maliyyə inklüzivliyinin artımını şərtləndirir. Bununla yanaşı, mövcud siyasət çərçivəsinin bəzi aspektlərinin maliyyə inklüzivliyi kontekstində nəzərdən keçirilməsinə ehtiyac vardır. Pul və maliyyə sabitliyi siyasəti, habelə hüquqi çərçivə və digər əlaqəli istiqamətlər üzrə siyasət çərçivəsi maliyyə institutlarının dayanıqlılığına və maliyyə vasitəçiliyi funksiyasına təsir göstərir. Problemli aktivlərlə iş ekosisteminin təkmilləşdirilməsi kreditorların və debitorların hüquqlarının müdafiəsini təmin etməklə yanaşı, uzunmüddətli maliyyələşmə ehtiyacı olan və böyümə mərhələsində olan sahibkarlıq subyektləri üçün əlavə kapitala çıxış imkanı yarada bilər. Dövlət dəstək mexanizmləri (xüsusi maliyyələşmə proqramları və faiz subsidiyaları) vasitəsilə MKOB-ların, o cümlədən fərdi sahibkarların maliyyəyə çıxışını artırmaq üçün qeyri-bank maliyyə institutlarının imkanlarından daha səmərəli istifadə edilməsi imkanları vardır;

**3.4.5. sahibkarlığın inkişafına yönəlmiş geniş spektrli dövlət dəstək proqramları formalaşdırılmışdır.** Dəstək proqramları çoxsaylı dövlət təşkilatları, o cümlədən Azərbaycan Biznesinin İnkişafı Fondu, Azərbaycan İnvestisiya Şirkəti, Aqrar Kredit və İnkişaf Agentliyi, İpoteka və Kredit Zəmanət Fondu, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi, habelə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (özünüməşğulluq proqramı üzrə) tərəfindən həyata keçirilir. Bu proqramlar iqtisadiyyatın maliyyələşdirilməsində və risklərin bölüşdürülməsində mühüm rol oynayır. Bununla yanaşı, mövcud mexanizmlərin təkmilləşdirilməsi perspektivləri mövcuddur. İlk növbədə, bu mexanizmlərin konsolidasiyası məhdud dövlət vəsaitlərindən səmərəli istifadə baxımından əhəmiyyətli hesab olunur. Sektorlar üzrə və regional diversifikasiyanın isə daha da artırılmasına ehtiyac vardır. Bu mexanizmlərdən istifadə istiqamətləri ilə milli iqtisadi hədəflərin uzlaşdırılması vacibdir, eyni zamanda dövlət dəstək mexanizmlərinin institusional çərçivəsinin, o cümlədən daxili proseslərin səmərəliliyinin və effektivliyinin artırılması imkanları mövcuddur. Qeyri-kommersiya məqsədli kapital investisiyaları və vençur maliyyələşməsi kimi ixtisaslaşdırılmış mexanizmlər də daxil olmaqla MKOB-ların bütün inkişaf tsiklini əhatə edən mexanizmlərə ehtiyac vardır.

MKOB seqmenti üzrə məlumat əlçatanlığı aşağı səviyyədə olmaqla bizneslərin kreditə çıxışına təsir göstərir. Əsas məsələlərdən biri MKOB-ların kredit qabiliyyətini qiymətləndirmək üçün maliyyə institutlarına xidmət edən əlçatan mərkəzləşdirilmiş məlumat bazasının olmamasıdır. Hazırda maliyyə institutları yalnız kredit tarixçəsi məlumatlarını əldə edirlər ki, bu da sahibkarlıq subyektlərinin ümumi maliyyə sağlamlığı və fəaliyyəti haqqında məhdud məlumat verir. Geniş çeşiddə məlumatın olmaması səbəbindən banklar daxili məlumat mənbələrinə və MKOB-lar tərəfindən təqdim olunan sənədlərə əsaslanmalı olur, halbuki MKOB-ların yalnız 64 faizi banklar tərəfindən tələb olunan maliyyə hesabatlarını hazırlamağı bacarır ki, bu da maliyyə institutları üçün məlumatların əldə edilməsində əlavə məhdudiyyətlərlə nəticələnir. Etibarlı maliyyə məlumatlarının məhdudluğu bankların bu sahibkarlıq subyektlərinin kredit qabiliyyəti və risk profillərini düzgün qiymətləndirməsinə mane olur. Bu isə girovdan asılılığın artması və maliyyə institutları tərəfindən daha yüksək risk premiyalarının tətbiq edilməsi ilə nəticələnir. Sadalanan çatışmazlıqların həll edilməsi və MKOB seqmentinin kreditə çıxışının asanlaşdırılması üçün maliyyə institutlarına MKOB-larhaqqında əhatəli və ən son maliyyə və qeyri-maliyyə məlumatlarını əldə etməyə imkan verən mərkəzləşdirilmiş məlumat bazasının yaradılmasına ehtiyac vardır. Məlumatların əlçatanlığını artırmaqla maliyyə institutları daha dəqiq kredit qərarları qəbul edə, girovdan asılılığı azalda və aşağı faiz dərəcələri təklif edərək iqtisadiyyat üçün əhəmiyyət kəsb edən MKOB sektorunun böyüməsinə töhfə verə bilərlər.

Maliyyə institutları tərəfindənmüştərilərinin yerinə yetirilməyən öhdəlikləri müqabilində girovun reallaşdırılmasının həm xərc, həm də müddət baxımından optimallaşdırılması imkanları mövcuddur. Bununla əlaqədar əsas amillərə aşağıdakılar aiddir:

3.4.5.1. məhkəmə qərarlarının icrasına nəzarət prosedurlarının təkmilləşdirilməsi imkanları mövcuddur. Belə ki, icra sənədlərinin məhkəməyə qaytarılması və ona nəzarət mexanizmləri, habelə işin yenidən icraya göndərilməsi məsələləri üzrə qeyri-müəyyənliklər və çətinliklər qalmaqdadır;

3.4.5.2. girovun satışı üzrə hərrac prosedurlarında zəifliklər banklar tərəfindən ipotekanın balansa götürülməsini şərtləndirir, eyni zamanda bu prosesin izafi dərəcədə xərcli və vaxttutumlu olması maliyyə xidmətlərinin xərcinin artmasına və maliyyə əlçatanlığının zəifləməsinə səbəb olur. Bu istiqamətdə beynəlxalq təcrübə nəzərə alınmaqla müasir və effektiv mexanizmlərin tətbiqi imkanlarının nəzərdən keçirilməsinə ehtiyac vardır;

**3.4.6. 2015-2016-cı illərin iqtisadi və maliyyə böhranı istehlakçıların maliyyə institutlarına inamını azaltmışdır.** Hazırda sektora inam bərpa olunmaqdadır. Maliyyə sabitliyi və maliyyə sisteminin vasitəçilik funksiyasını effektiv yerinə yetirməsi üçün maliyyə institutlarına və bütövlükdə maliyyə sisteminə inam xüsusi əhəmiyyət kəsb edir. Son illərdə müşahidə edilən qlobal, regional və yerli səviyyədə maliyyə böhranları bank sisteminə olan inama mənfi təsir etmişdir. Ötən dövr ərzində banklara və digər maliyyə vasitəçilərinə inamın bərpası istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür və bu tədbirlərin davam etdirilməsinə ehtiyac vardır. Maliyyə institutlarına inama bir çox amillər təsir edir ki, onlardan yalnız bir qismi maliyyə sektoruna nəzarət orqanının və maliyyə institutlarının mandatına daxildir.

*Ardı 16-cı səh.*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı

*Əvvəli 15-ci səh.*

"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 fevral tarixli 551 nömrəli Fərmanının tələblərinə uyğun olaraq, fiziki şəxslərin xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsinə hesablanmış kompensasiyaların ödənilməsinə 2019-cu il aprel ayından etibarən başlanılmışdır və həmin Fərmanın icrası aşağıdakı iki istiqamət üzrə aparılmışdır:

3.4.6.1.məzənnə korreksiyası nəticəsində korreksiya tarixlərinə kredit təşkilatları qarşısında10 min ABŞ dollarına qədər qalıq borc üzrə kompensasiya ödənişləri (borcalanın sərəncamına veriləcək və 10 gündən artıq vaxtı keçmiş kreditin ödənişinə yönəldilən);

3.4.6.2. Fərmanın qüvvəyə mindiyi tarixə fiziki şəxslərin xarici valyutada əsas borc üzrə məbləği 10 min ABŞ dollarınadək, milli valyutada isə 17 min manatadək və gecikmə müddəti 1 ildən yuxarı olan borcların güzəştli şərtlərlə restrukturizasiyası (1faizlə 5 il müddətinə 1 il əsas borc üzrə güzəşt müddəti verilməklə). Fərmanın icrası ilə bağlı ümumilikdə vətəndaşların fəaliyyətdə olan banklar, ləğv prosesində olan banklar və BOKT-larda xarici valyutada kreditlərinə görə 644,5 mln. manat kompensasiya ödənilmiş, 242,3 mln. manat kredit isə güzəştli şərtlərlə restrukturizasiya edilmişdir. Fərmanın icrası istehlak kreditlərinin keyfiyyətinə müsbət təsir göstərmişdir;

**3.4.7. Azərbaycan Respublikasında maliyyə inklüzivliyi üzrə məlumatların toplanması sisteminin təkmilləşdirilməsinə ehtiyac vardır.** Maliyyə inklüzivliyi üzrə müəyyən edilmiş strateji baxış və hədəflərin reallaşdırılması üçün MKOB-lar, o cümlədən fərdi sahibkarların maliyyə xidmətlərindən istifadə vəziyyətinə dair müfəssəl məlumatlara çıxışın olması vacibdir. Hazırda maliyyə inklüzivliyinin cari vəziyyəti, o cümlədən maliyyə xidmətlərinə tələbat, istehlakçıların seçimlərini və ehtiyaclarını diaqnostika etməyə imkan verən məlumat bazası məhduddur. Belə ki, maliyyə xidmətlərindən faktiki istifadə ilə bağlı statistik məlumatlar tam və əhatəli deyil, habelə bu istiqamətdə müvafiq sorğular mütəmadi əsasda aparılmır. Bundan əlavə, hazırda mövcud olan məlumatlar cins, yaş, iqtisadi fəaliyyət növü və yaşayış yeri kimi əsas maliyyə inklüzivliyi meyarları üzrə əhatəli və dəqiq təhlillərin aparılmasına imkan vermir.

**3.5. Maliyyə xidmətləri istifadəçilərinin potensialının artırılması və hüquqlarının müdafiəsi üzrə:**

**3.5.1. istehlakçıların maliyyə savadlılığı və hüquqlarının müdafiəsi sistemi formalaşdırılmışdır.** Əhali və sahibkarlıq subyektlərinin maliyyə savadlılığının artırılması istiqamətində tədbirlər həyata keçirilmiş və nailiyyətlər əldə edilmişdir. Bununla yanaşı, maliyyə xidmətlərinin rəqəmsallaşması fonunda əhali və sahibkarlıq subyektlərinin bu istiqamətdə savadlılığının artırılması ilə bağlı işlərin davam etdirilməsi zəruridir. Maliyyə savadlılığı aşağı olan və müasir texnoloji yenilikləri tam olaraq mənimsəməmiş müəyyən yaş qrupu müştərilər üzrə bank xidmətlərinə çıxış əsasən fiziki xidmət nöqtələrində (filial, şöbə) mümkündür. Bu qəbildən olan müştərilərin bankomatlardan, pul qəbulu terminallarından və digər oxşar infrastruktur elementlərindən istifadəsində çətinlikləri mövcuddur ki, bu da fırıldaqçılıq risklərini artıra bilər;

**3.5.2. ümumilikdə Azərbaycan Respublikasında maliyyə üzrə bilik, davranış və bacarıq göstəriciləri nisbətən aşağıdır.** Belə ki, 2021-ci ilin məlumatına əsasən, Azərbaycan Respublikasında orta savadlılıq balı 9,6 olmuşdur ki, bu da Müstəqil Dövlətlər Birliyi ölkələrinin orta göstəricisindən (11,7 bal) aşağıdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının metodologiyasına əsasən, minimum bal 1, maksimum 21 bal təşkil edir. Maliyyə savadlılığı göstəricisinin alt göstəriciləri olan maliyyə biliyi, maliyyə davranışı və maliyyə bacarığı üzrə nəticələr müvafiq olaraq 2,4, 4,8 və 2,4 bal təşkil etmişdir ki, bu göstəricilərin hər biri Müstəqil Dövlətlər Birliyi ölkələri üzrə orta ballardan aşağıdır (müvafiq olaraq 3,6, 5,6 və 2,5);

**3.5.3. maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi sisteminin əsasları formalaşdırılmışdır.** Son dövrlərdə müvafiq sahədə normativ hüquqi bazanın yenilənməsi ilə istehlakçıların maliyyə xidmətləri barədə əvvəlcədən məlumatlandırılmasına dair tələblər gücləndirilmiş, rəqəmsal ödəniş xidmətləri zamanı zərərin həddi istehlakçıların xeyrinə tənzimlənmişdir. Bu yeniliklər istehlakçıların maliyyə xidmətlərindən istifadə zamanı qərarverməsi və bununla da maliyyə xidmətlərinə çıxış və istifadə səviyyəsinin artırılması, həmçinin rəqəmsal xidmətlərdən yararlanarkən istifadəçilərin əmlak mənafelərinin müdafiəsi üçün vacibdir.

Belə ki, maliyyə xidmətlərinin rəqəmsallaşması yeni imkanlarla yanaşı, maliyyə xidməti təchizatçıları və kənar şəxslər tərəfindən qeyri-şəffaf davranışlar üçün də imkanlar yaradır. Bu da rəqəmsallaşma maliyyə xidmətlərinin genişlənməsi ilə yanaşı, əlaqəli risklərin, habelə fırıldaqçılıq hallarının, izafi borclanmanın artması ilə nəticələnə bilər. Bu isə maliyyə inklüzivliyinin mahiyyəti ilə ziddiyyət təşkil edir. Bundan başqa, maliyyə institutlarının qeyri-sağlam davranışı maliyyə vasitəçilərinə inamın azalmasına və maliyyə sabitliyinə mənfi təsir göstərə bilər.

Ölkədə istehlakçıların hüquqlarının müdafiəsi üzrə mövcud sistem istehlakçıların üzləşdiyi əsas məsələləri əhatə etsə də, riskləri kompleks şəkildə həll etmək üçün təkmilləşdirilməsinə ehtiyac vardır. Bunun üçün hüquqi çərçivənin daha da təkmilləşdirilməsi, xüsusilə rəqəmsal maliyyə tətbiqləri ilə bağlı yaranan risklərin tənzimlənməsi məqsədilə alətlərin, habelə müştəriləri maddi zərərdən və sui-istifadə hallarından qoruyan mexanizmlərin yaradılması zəruri hesab olunur;

**3.5.4. əhalinin həssas qrupları üzrə maliyyə inklüzivliyi aktual məsələlərdən biridir.** Əlilliyi olan şəxslərin, yaşlı əhalinin, gənclərin, əcnəbilərin və qaçqınların maliyyə xidmətlərinə çıxışındakı çətinlikləri aradan qaldırmaq, müvafiq əhali qrupları üzrə maliyyə xidmətlərinə çıxışın artırılması imkanları araşdırılmalıdır. Aşağıdakı seqmentlər həssas qruplar kimi təsnifləşdirilmişdir:

3.5.4.1. əlilliyi olan şəxslər. Əlilliyi olan şəxslərin maliyyə xidmətlərindən istifadə imkanlarının artırılması istiqamətində bütün əlaqəli tərəflərin iştirakı ilə yeni təşəbbüslərin həyata keçirilməsinə ehtiyac vardır;

3.5.4.2. yaşlı əhali və təqaüdçülər. Özünəməxsus xüsusiyyətləri və maliyyə savadlılığı səviyyəsinin aşağı olması səbəbindən, yaşlı əhali qrupunun maliyyəyə çıxış imkanları ənənəvi maliyyə xidmət kanalları ilə məhdudlaşır. Sözügedən müştəri seqmenti maliyyə xidmətlərindən istifadə zamanı bir çox hallarda kənar şəxslərin köməyinə ehtiyac duyur ki, bu da bəzən onların fırıldaqçılıq halları ilə üzləşmələri ilə nəticələnir;

3.5.4.3. əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və qaçqınlar. Əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, qaçqınlar və qaçqın statusunun əldə edilməsi üçün müraciət etmiş şəxslərin ölkədə yaşadıqları müddətdə maliyyə xidmətlərindən istifadəsi zəruri əhəmiyyət kəsb edir. Son qlobal trendlər fonunda bu kateqoriyadan olan şəxslərin maliyyə xidmətlərindən istifadəsi ilə bağlı yaranan məsələlərin diaqnostikasına və təkmilləşdirilməsinə ehtiyac vardır.

## 4. DÖVLƏT PROQRAMININ HƏDƏF GÖSTƏRİCİLƏRİ

4.1. Dövlət Proqramının icrası nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. maliyyə xidməti kanallarının bütün iqtisadi rayonlarda mövcudluğunun təmin edilməsi sahəsində:

4.1.1.1. hər 100.000 yetkin (15+) nəfərə düşən POS-terminalların sayının 2400-ə çatdırılması (2025-ci ildə 2262);

4.1.1.2. hər 100.000 yetkin (15+) nəfərə düşən bankomatların sayının 46-ya çatdırılması (2025-ci ildə 43,9);

4.1.2. maliyyə məhsul və xidmətlərinin genişləndirilməsi sahəsində:

4.1.2.1. müddətli əmanət hesabı olan unikal yetkinlik yaşına çatmış əhalinin (15+) payının 2,8 faizə çatdırılması (2025-ci ildə 2,4 faiz);

4.1.2.2. tam və qismən təminatlı kreditlərin cəmi kreditlərdə payının 72 faizə endirilməsi (2025-ci ildə 75 faiz);

4.1.2.3. adambaşına düşən sığorta haqqının 220 manata çatdırılması (2025-ci ildə 147 manat);

4.1.2.4. paylanılmış "Öz müştərini tanı" sisteminə qoşulan maliyyə institutlarının payının 30 faizə çatdırılması (2025-ci ildə 0 faiz);

4.1.2.5. açıq bankçılıq modelini tətbiq edən bank olmayan ödəniş xidməti təchizatçılarının payının 10 faizə çatdırılması (2025-ci ildə 0 faiz);

4.1.2.6. adambaşına düşən nağdsız ödənişlərin sayının 250-ə çatdırılması (2025-ci ildə 228);

4.1.3. inklüziv siyasətlər və tənzimləmə sahəsində:

4.1.3.1. bank hesabı olan istifadəçilərin sayının yetkinlik yaşına çatmış bütün əhalinin sayına nisbətinin 85 faizə çatdırılması (2025-ci ildə 70,7 faiz);

4.1.3.2. maliyyə institutundan ən azı bir cari krediti və ya kredit xətti olan MKOB-ların bütün MKOB-ların sayına nisbətinin 36 faizə çatdırılması (2025-ci ildə 25 faiz);

4.1.3.3. unikal sığorta müqaviləsi sahiblərinin ümumi sayının (həyat və qeyri-həyat üzrə) yetkin əhalinin sayında payının 32 faizə çatdırılması (2025-ci ildə 25 faiz);

4.1.3.4. BOKT-lar üzrə aktivlərin həcminin,"Aqrarkredit" QSC və kredit ittifaqları istisna olmaqla, 1,5 milyard manata çatdırılması (2025-ci ildə 1 milyard manat);

4.1.4. məlumatlı istifadəçilər və maliyyə istehlakçılarının hüquqlarının qorunması sahəsində:

4.1.4.1. maliyyə savadlılığı balının 11,7-yə çatdırılması (2021-ci ildə 9,6);

4.1.4.2. kredit təşkilatlarına və sığorta şirkətlərinə müraciətlərin sayının bu xidmətlər üzrə istifadəçilərin sayına nisbətinin 0,46 faizə endirilməsi (2025-ci ildə 0,66 faiz).

## 5. DÖVLƏT PROQRAMININ MƏQSƏDLƏRİ

5.1. Dövlət Proqramının əsas məqsədləri aşağıdakılardır:

5.1.1. maliyyə xidmətlərinə rahat çıxışın təmin edilməsi, həmçinin əhali və MKOB-ların maliyyə sektorunda geniş iştirakının təmin edilməsi;

5.1.2. maliyyə xidmətləri haqqında məlumatlılıq səviyyəsinin artırılması;

5.1.3. maliyyə məhsullarının keyfiyyətinin və müştəri məmnuniyyətinin artırılması;

5.1.4. fiziki şəxslərin və sahibkarlıq subyektlərinin maliyyə xidmətlərindən bərabər və şəffaf şəkildə istifadə edə bilməsinin təmin edilməsi.

## 6. DÖVLƏT PROQRAMININ PRİORİTET İSTİQAMƏTLƏRİ

6.1. Dövlət Proqramı çərçivəsində aşağıdakı prioritet istiqamətlər üzrə işlər həyata keçiriləcəkdir:

6.1.1. maliyyə xidməti kanallarının bütün iqtisadi rayonlarda mövcudluğunun təmin edilməsi:

**6.1.1.1. əsaslandırma:** birinci prioritetin zərurəti bir sıra amillərlə şərtlənir.İlk növbədə,maliyyə inklüzivliyinin genişləndirilməsi məqsədilə maliyyə xidmətlərinin çatdırılma kanallarına çıxışın gücləndirilməsi istiqamətində Azərbaycan Respublikasında təqdirəlayiq irəliləyişlər əldə edilsə də, təkmilləşdirmə üçün əhəmiyyətli imkanlar qalmaqdadır. Bu, xüsusilə fiziki maliyyə infrastrukturunun daha aşağı əhatə dairəsinin olduğu regionlar və ucqar bölgələr üçün faydalı olacaqdır. Rəqəmsallaşma dövrü ənənəvi bank filial və şöbə şəbəkəsi modelindən kənar maliyyə xidmətlərinin çatdırılması üçün alternativ mexanizmlərin yaradılmasını şərtləndirir. Alternativ çatdırılma kanalları çoxfunksiyalı bankomatlar, maliyyə agentləri, mobil bankçılıq, internet bankçılıq, zəng mərkəzləri və digər alternativ kanalları ehtiva etməklə, müştərilər üçün daha çox əlçatanlıq və rahatlıq təqdim edir. Alternativ çatdırılma kanalları ənənəvi kanalları (bank filialları, şöbələri) tamamlamaqla müştəri məmnuniyyətini artırır, tranzaksiya xərclərini aşağı salır və daha çox istifadəni təşviq edir.Bununla yanaşı, təhlükəsiz və səmərəli ödəniş sisteminin mövcudluğu təkcə maliyyə inklüzivliyinin deyil, həm də maliyyə sabitliyinin əsasını təşkil edir. Ölkədə iri və pərakəndə ödənişlər üçün klirinq sistemləri, ani ödəniş kimi sistemlərdən ibarət əhatəli milli ödəniş infrastrukturunun əsasları formalaşdırılıb. Qeyd edilən irəliləyişlərə baxmayaraq, nağdsız ödənişlərin payı seçilmiş hesab olunan ölkələrin göstəricilərindən və ölkənin siyasət hədəflərindən (65-70faiz) geri qalır. Beləliklə, birinci prioritet çoxsaylı qarşılıqlı fəaliyyət göstərən kanalların harmoniyada işləməsinə, əlçatanlığın təmin edilməsi yolunda çatışmazlıqların aradan qaldırılmasına və maliyyə inklüzivliyi hədəflərinin gerçəkləşdirilməsinə və son nəticədə, ölkənin sosial-iqtisadi tərəqqisinə töhfə verən maliyyə xidmətləri ekosisteminin inkişaf etdirilməsini hədəfləyir;

**6.1.1.2. görüləcək tədbirlər:**

6.1.1.2.1. maliyyə xidmətləri üzrə çeşidli çatdırılma kanallarının optimal səviyyəsinə dair metodologiyanın müəyyən edilməsi;

6.1.1.2.2. AÖS-ün əhatə dairəsinin genişləndirilməsi;

6.1.1.2.3. təsərrüfat subyektləri tərəfindən nağdsız ödənişlərin qəbulu imkanlarının genişləndirilməsi;

**6.1.1.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. maliyyə xidmətlərinin çatdırılma kanallarının optimal səviyyəsinə dair meyarların müəyyən edilməsi və alternativ xidmət kanallarının yaradılması;

6.1.1.3.2. bankların AÖS-ə tam inteqrasiya olunması;

**6.1.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1.maliyyə xidmətlərinin rəqəmsallaşması fonunda bank və qeyri-bank maliyyə təşkilatları tərəfindən fiziki maliyyə infrastrukturu şəbəkəsinin azaldılması baş verə bilər. Bu riskin azaldılması məqsədilə fiziki maliyyə kanallarının paylanmasının mütəmadi monitorinqinin aparılması və tənzimləmə, nəzarət və dialoq mexanizmləri vasitəsilə maliyyə xidmətləri şəbəkəsinin optimal səviyyəsi təmin ediləcəkdir;

6.1.1.4.2. istehlakçıların rəqəmsal kanallar və rəqəmsal maliyyə xidmətlərindən istifadəyə yönəlməsi daha aşağı templə baş verə bilər. Bu baxımdan rəqəmsal maliyyə sisteminin etibarlılığı və təhlükəsizliyi təmin edilməklə rəqəmsal maliyyə infrastrukturundan istifadə üzrə inamın artırılması, əhali və kiçik biznes sahibləri arasında maliyyə savadlılığını yüksəltməklə potensial maneələrin azaldılması təmin ediləcəkdir;

6.1.1.4.3. ödəniş xidməti təchizatçıları AÖS ilə müqayisədə ənənəvi ödəniş sistemindən istifadəyə üstünlük verə bilər. Bu səbəbdən ödəniş xidməti təchizatçılarının bərabər şərtlərlə AÖS-ə qoşulmasının təmin edilməsi, AÖS-dən istifadənin faydaları haqqında maarifləndirmə və təşviqedici tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur;

6.1.2. fiziki şəxslərin və MKOB-ların ehtiyaclarına cavab verən maliyyə məhsul və xidmətlərinin genişləndirilməsi:

**6.1.2.1. əsaslandırma:** Keyfiyyətli maliyyə məhsulları və xidmətləri maliyyə inklüzivliyi məqsədlərinə nail olmaq üçün təməl sütunlardan biridir. Bu, təkcə dar çərçivədə maliyyə xidmətlərinə çıxışı deyil, bütün fiziki şəxslər və sahibkarlıq subyektlərinin maliyyə rifahını şərtləndirən müfəssəl layihələndirilmiş, sərfəli və əlçatan maliyyə xidmətlərini ehtiva edir.Hazırda fiziki şəxslərin və MKOB-ların kreditə çıxışı ilə bağlı bir sıra çağırışlar mövcuddur. MKOB-ların kreditlə yanaşı, kapitalın digər formalarına çıxışı məhduddur. Maliyyə məhsulu və xidmətlərinin çeşidi, xüsusilə, məlumat əsaslı maliyyələşmə məhsulları məhduddur və mövcud infrastrukturun imkanlarından yetərincə istifadə edilmir. İpoteka, kənd təsərrüfatı, turizm kimi digər spesifik sahələrə, habelə ilkin inkişaf mərhələsində olan və ya inkişafyönümlü şirkətlərə istiqamətlənmiş xüsusi maliyyələşmə mexanizmləri azdır. Ümumilikdə, əhalinin yığıma meyilliyi yüksək olsa da, maliyyə institutları və ya maliyyə alətləri üzrə yığım aşağı səviyyədədir. Bu səbəbdən, daha cəlbedici maliyyə məhsullarının və investisiya alətlərinin inkişaf etdirilməsinə ehtiyac vardır. Bundan əlavə, fiziki və hüquqi şəxslər üzrə sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi üçün ardıcıl və əhatəli tədbirlərə, innovativ məhsullara zərurət vardır. Ümumilikdə, MKOB-ların potensialını reallaşdıra bilməsi və ÜDM-in formalaşmasında payının artırılması üçün kredit və digər maliyyələşmə mənbələrinə çıxışın optimallaşdırılması zəruri hesab olunur. Nəhayət, kənd təsərrüfatı sektorunda maliyyə məhdudiyyətinin aradan qaldırılması olduqca aktualdır.Beləliklə, bu tədbir yuxarıda göstərilən çoxşaxəli çətinliklərin hərtərəfli həllinə dair kompleks islahatları formalaşdırır. Əsas məqsəd fiziki şəxslərin və sahibkarlıq subyektlərinin maliyyə xidməti ehtiyaclarına dərindən fokuslanmış, iqtisadi artımı stimullaşdıran və ölkənin milli prioritetlərinə söykənən firavan cəmiyyətin formalaşdırılması yolunda heç kəsi kənarda qoymayan maliyyə ekosistemini yaratmaqdır;

**6.1.2.2. görüləcək tədbirlər:**

6.1.2.2.1. ölkədaxili və xarici pul köçürmələri üzrə imkanların genişləndirilməsi;

6.1.2.2.2. kiçik və orta həcmli yığımların maliyyə sektoruna cəlb edilməsi üçün əlverişli mühitin yaradılması;

6.1.2.2.3. xüsusi investisiya alətlərinin yaradılması yolu ilə kiçik miqyaslı investisiya imkanlarının inkişaf etdirilməsi;

6.1.2.2.4. rəqəmsal broker platformalarının tətbiqinin təşviq edilməsi;

6.1.2.2.5. bankların kapital bazarlarında birbaşa iştirakının təşviq edilməsi;

6.1.2.2.6. sığorta xidmətlərinin çatdırılması üzrə sığorta agentləri şəbəkəsinin keyfiyyətinin və effektivliyinin artırılması;

6.1.2.2.7. bank-sığorta tərəfdaşlığı modelinin inkişaf etdirilməsi;

6.1.2.2.8. sığorta məhsullarının çatdırılma kanallarının rəqəmsallaşdırılması;

6.1.2.2.9. açıq sığorta modelinin tətbiq edilməsi;

6.1.2.2.10. mikrosığorta bazarının yaradılması və inkişaf etdirilməsi;

6.1.2.2.11. könüllü sığorta növləri üzrə yığımların artırılması;

6.1.2.2.12. tamamlayıcı könüllü tibbi sığorta mexanizminin yaradılması;

6.1.2.2.13. icbari sığorta növləri üzrə şəhadətnamə buraxılışının tam elektronlaşdırılmasının tamamlanması;

6.1.2.2.14. kənd təsərrüfatı sığortasının əhatə dairəsinin sığorta predmetləri və risklər üzrə genişləndirilməsi, həmçinin yeni sığorta predmetləri və risklər üzrə təkrarsığorta təminatının alınması imkanlarının dəyərləndirilməsi;

6.1.2.2.15. kənd təsərrüfatı sığortası sahəsində innovativ yeniliklərin tətbiqi imkanlarını dəyərləndirməklə institusional potensialın gücləndirilməsi;

6.1.2.2.16. kənd təsərrüfatı kreditləşməsi üzrə alternativ girov mexanizmlərinin tətbiqi;

6.1.2.2.17. maliyyə institutları tərəfindən anbar və məhsul şəhadətnaməsindən alternativ girov aləti kimi istifadənin təmin edilməsi;

6.1.2.2.18. fermerlərin maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsi;

6.1.2.2.19. mikrokreditlərin nağd şəkildə verilməsi imkanının yaradılması;

6.1.2.2.20. maliyyə institutlarının və sahibkarların kənd təsərrüfatı məhsullarının real bazar qiymətləri barədə məlumatlarla təmin olunması;

6.1.2.2.21. kənd təsərrüfatı məhsullarının istehsalı üzrə aqrotexniki xəritələrə və xərclərə dair məlumat bazasının hazırlanması, mütəmadi yenilənməsi və həmin bazaya onlayn çıxış imkanının təmin edilməsi;

6.1.2.2.22. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, MKOB-lar tərəfindən tətbiq olunan standartlar, uçotun aparılması qaydaları və qəbul edilən uçot siyasəti əsasında onlarda mühasibat uçotunun aparılmasının, hesabatlılığın, habelə maliyyə şəffaflığının təmin edilməsi;

6.1.2.2.23.informasiya asimmetriyasını aradan qaldırmaq və pulaxınları əsaslı kreditləşməni artırmaq məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzinin, peşəkar mühasib təşkilatlarının və sahibkarlıq subyektlərinin MKOB-lara mühasibat uçotu xidmətləri göstərməyə həvəsləndirilməsi;

6.1.2.2.24. elektron qaimələr və digər təşəbbüslər vasitəsilə aktiv əsaslı maliyyələşdirmənin təşviqi (maliyyə icarəsi, faktorinq, invoys maliyyələşməsi);

6.1.2.2.25. kənd təsərrüfatı müəssisələri üçün spesifik maliyyələşmə məhsullarının yaradılmasının dəstəklənməsi;

6.1.2.2.26. kredit resurslarına çıxışı məhdud olan, lakin perspektivli layihələrə malik MKOB-ların kreditə çıxışını təmin etmək üçün kredit zəmanəti mexanizmlərinin effektivliyinin araşdırılması və təkmilləşdirilməsi;

6.1.2.2.27. yerli alternativ maliyyə institutlarının inkişafının təşviq edilməsi;

6.1.2.2.28. sahibkarlığın inkişafını dəstəkləmək məqsədilə startaplar, ilkin inkişaf mərhələsində olan sahibkarlıq subyektləri və böyümə hədəfli MKOB-lar üçün maliyyə mənbələrinə (borc və kapital) çıxış imkanının artırılması;

6.1.2.2.29. borc alanların kreditə çıxışının asanlaşdırılması məqsədilə kreditə müraciət və kreditin əldə edilməsi prosesinin təhlili və optimallaşdırılması üzrə təkliflərin hazırlanması;

6.1.2.2.30. kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarların kreditləşməsi üzrə maliyyə institutları əməkdaşlarının, sahibkarların və sahibkarlıq subyektlərini özündə birləşdirən assosiasiyaların elmi və texniki biliklərinin, habelə praktiki bacarıqlarının artırılması;

6.1.2.2.31.ipoteka kreditlərinə çıxış və ipoteka kreditlərindən istifadənin genişləndirilməsi;

6.1.2.2.32. az miqdarda nağd pula ehtiyacı olan fiziki şəxslər üçün qısamüddətli təcili kreditləşmə alətlərinin təşviq edilməsi;

6.1.2.2.33. qadınlar üçün maliyyə məhsullarının təqdim edilməsinin və bu istiqamətdə bazar təhlilləri aparılmasının təşviq edilməsi;

**6.1.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. maliyyə xidməti təminatçıları tərəfindən əlverişli şərtlərlə rəqəmsal ödəniş və pul köçürmə xidmətlərinin xüsusi tənzimləmə rejimində test olunması;

6.1.2.3.2. kiçik və orta həcmli yığımların artırılması ilə bağlı təkliflər paketinin hazırlanması;

*Ardı 17-ci səh.*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı

*Əvvəli 16-cı səh.*

6.1.2.3.3. icbari və könüllü sığortanın əhali və bizneslərin yeni risk və istifadəçi qrupları üzrə əhatə dairəsinin artması;

6.1.2.3.4. kənd təsərrüfatı sığortası sisteminin təkmilləşdirilməsi, fermerlər və kənd təsərrüfatı məhsulu istehsalçıları tərəfindən kənd təsərrüfatı sığortasından istifadənin artması;

6.1.2.3.5. MKOB və kənd təsərrüfatı üzrə maliyyə məhsullarının çeşidliliyinin artması (o cümlədən diversifikasiya edilmiş borclanma alətləri, maliyyə icarəsi və faktorinq);

6.1.2.3.6. əhali üçün sərfəli istehlak və ipoteka kreditləri imkanlarının genişləndirilməsi;

6.1.2.3.7. qadınlara yönəlmiş maliyyə məhsulları təklifinin artması;

**6.1.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. müştərilərin mal və xidmətlərin rəqəmsal vasitələrlə ödənişinə hazır olmaması riski mövcuddur. Bununla əlaqədar, aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən rəqəmsal ödənişlərdən istifadənin artırılması məqsədilə pərakəndə ticarət obyektlərində həm nağd, həm də nağdsız ödənişlərin qəbul edilməsi üzrə normativ hüquqi aktların tələblərinə riayət olunmasına nəzarətin gücləndirilməsi nəzərdə tutulur;

6.1.2.4.2. yığımların maliyyə institutlarında və maliyyə alətlərində saxlanılmasının riskli olmasına dair təsəvvürlərin davam etməsi riski mövcuddur. Bununla əlaqədar, bank sektoruna inamın gücləndirilməsi üzrə çoxşaxəli və ardıcıl tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur;

6.1.2.4.3. könüllü sığortanın dəyəri və faydaları haqqında yanlış təsəvvürlər onun geniş mənimsənilməsini məhdudlaşdıra bilər.Sığorta sektorunun maraqlı tərəfləri arasında əməkdaşlıq vasitəsilə sığortanın faydasının yüksəldilməsi və ondan istifadənin artırılması üçün əlavə stimulların təqdim edilməsi nəzərdə tutulur;

6.1.2.4.4. qeyri-müəyyənliklər və innovativ xassəli olması səbəbindən, MKOB-ların alternativ maliyyələşmə mənbələrindən istifadə səviyyəsinin aşağı qalması riski mövcuddur. MKOB-ların alternativ maliyyələşmə alətləri (maliyyə icarəsi, faktorinq, TZM və s.) ilə əlverişli şərtlərlə təmin edilməsi üçün tənzimləmə sahəsində stimullarının nəzərdən keçirilməsi, alternativ maliyyələşmə mexanizmlərinin dövlət dəstək fondlarının proqramlarına inteqrasiya edilməsi vasitəsilə bu risklər azaldılacaqdır;

6.1.2.4.5. özünüməşğul əhalinin və MKOB-ların kreditə çıxışının girov tələbləri və zəif kredit qabiliyyətinin qiymətləndirilməsi praktikasındakı zəifliklər səbəbindən məhdud olaraq qalması riski mövcuddur. Maliyyə institutlarına MKOB-lar və özünüməşğul əhali üzrə girov tələblərinə dair çətinliklərin cavablandırılması üçün alternativ maliyyə qiymətləndirmə üsulları üzrə təlimlər keçiriləcəkdir;

6.1.2.4.6. maliyyə sektorunda kadr potensialı nəzərdə tutulan tədbirlərinreallaşdırılmasını məhdudlaşdıra bilər. Bununla əlaqədar, maliyyə sektorunda işləyən kadrlar üçüntəlim proqramlarının tətbiqi nəzərdə tutulur;

6.1.3. müxtəlif maliyyə xidmətləri təchizatçılarının dəstəklənməsi və müasir maliyyə infrastrukturunun qurulması vasitəsilə maliyyə sektorunda effektivliyin və inklüzivliyin artırılması;

**6.1.3.1. əsaslandırma:** maliyyə xidmətlərinin rəqəmsal transformasiyası maliyyə xidmətləri landşaftının yenidən qurulmasını şərtləndirir. Bununla yanaşı, Azərbaycan Respublikasının maliyyə sektorunun qlobal transformasiya proseslərinə inteqrasiyası nisbətən ləng baş verir. Yeni formalaşmaqda olan fintexsektoru geniş perspektivlərə malik olmasına baxmayaraq, dəstəkləyici hüquqi çərçivənin olmaması və innovasiyaları təşviq etmək üçün tələb olunan investisiya kapitalının məhdudluğu səbəbindən inkişaf problemləri ilə üzləşir. Fintex və digər maliyyə innovasiyalarının maliyyə inklüzivliyinin artırılmasında böyük potensialını nəzərə alaraq, texnologiyanın hər kəsə fayda verməsini təmin etmək üçün dövlət siyasətinin özəl sektor innovasiyaları ilə uzlaşdırılması vacibdir. Bundan əlavə, məlumatlar (verilənlər bazası) maliyyə xidmətlərinin layihələndirilməsində və çatdırılmasında, xüsusən də maliyyə xidmətləri ilə kifayət qədər əhatə olunmayan fiziki və hüquqi şəxslər üçün həlledici rola malikdir. Hazırda maliyyə institutları özünüməşğul əhali, MKOB-lar haqqında məlumatların toplanmasında böyük çətinliklərlə qarşılaşır. Bu problemlərin bir qismi qeyd edilən seqmentlər üzrə hüquqi anlayışların mürəkkəb və bəzi hallarda ziddiyyətli olmasından, "Öz müştərini tanı" proseslərini asanlaşdıra biləcək mərkəzləşdirilmiş verilənlər bazalarının olmamasından və digər amillərdən irəli gəlir. Beləliklə, üçüncü prioritet rəqəmsal innovasiyaları əhatə edən, maliyyə xidmətləri təminatçıları arasında müxtəlifliyi təşviq edən və maliyyə xidmətləri ilə zəif əhatə olunan təbəqələrə daha yaxşı xidmət göstərmək üçün məlumat potensialından səmərəli istifadə edən dinamik maliyyə ekosisteminin yaradılmasına hədəflənmişdir;

**6.1.3.2. görüləcək tədbirlər:**

6.1.3.2.1. rəqəmsal identifikasiya və rəqəmsal profilin yaradılması;

6.1.3.2.2. paylanılmış elektron "Öz müştərini tanı" sisteminin tətbiq edilməsi;

6.1.3.2.3. fintexlər üçün hüquqi çərçivənin inkişaf etdirilməsi;

6.1.3.2.4. MKOB-ların, ailə kəndli təsərrüfatlarının və fermerlərin identifikasiyası üzrə hüquqi çərçivənin təkmilləşdirilməsi və mərkəzləşdirilmiş məlumat bazasının yaradılması;

6.1.3.2.5. yerli kredit reytinqi mexanizminin yaradılması;

**6.1.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. bütün maliyyə xidmətləri təminatçıları tərəfindən tətbiq olunan universal identifikasiya sistemi və elektron "Öz müştərini tanı" sisteminin yaradılması;

6.1.3.3.2. fintexlərin maliyyə bazarlarına çıxışı üçün əlverişli şərait yaradılması və səmərəli texnoloji həllərin tətbiqinin genişləndirilməsi;

6.1.3.3.3. maliyyə sektorunu dəstəkləyən informasiya infrastrukturunun təkmilləşdirilməsi və gücləndirilməsi;

**6.1.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. universal identifikasiya sisteminin daha mürəkkəb olması və tətbiqinin daha uzun müddət tələb etməsi səbəbindən maliyyə institutları tərəfindən universal elektron "Öz müştərini tanı" sisteminin tətbiqi ləngiyə bilər. Qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi və daha sürətlə tətbiq oluna bilən özünü doğrultmuş həllər tətbiq ediləcəkdir;

6.1.3.4.2. MKOB-lar üzrə mərkəzləşdirilmiş məlumat bazalarının aidiyyəti dövlət orqanlarının məlumat bazaları ilə inteqrasiyasında çətinliklər və ya ləngimələr baş verə bilər. Sahibkarlıq subyektləri haqqında məlumatların düzgün və vaxtında toplanılmasını təmin etmək üçün müvafiq maraqlı tərəflər arasında əməkdaşlıq gücləndiriləcək, o cümlədən birgə işçi qruplar yaradılacaq;

6.1.4. hüquqi və digər dövlət siyasətləri çərçivəsinin əhalinin və MKOB-ların maliyyə inklüzivliyinin artırılması məqsədləri ilə uzlaşdırılması;

**6.1.4.1. əsaslandırma:** inklüziv siyasətin və hüquqi çərçivənin mövcudluğu maliyyə sabitliyinə və istehlakçıların hüquqlarının qorunmasına xidmət edən maliyyə sektoru landşaftının əsas sütunlarından biridir. Bu istiqamətdə tənzimləmə mühitinin inklüziv olması olduqca əhəmiyyətlidir. Belə ki, inklüziv tənzimləmə mühiti maliyyə xidməti təchizatçıları üçün inkişafyönümlü fəaliyyət mühitini təmin edir və yeni innovativ çatdırılma kanallarının yaradılmasını təşviq edir. Bununla yanaşı, hüquqi çərçivə maliyyə sabitliyi və maliyyə inklüzivliyi məqsədləri arasında həssas tarazlığı təmin etməlidir. Qeyd edilənlər nəzərə alınaraq, proporsional tənzimləmə yanaşmasının qəbulu inklüziv tənzimləmənin təmin edilməsi üçün vacib amildir. Bu yanaşma e-müqavilədən və e-imzadan istifadə, informasiya sistemlərinin qarşılıqlı əlaqəsi və elektron "Öz müştərini tanı" protokolları kimi məsələləri əhatə edir. Beləliklə, dördüncü prioritet siyasət və hüquqi çərçivənin yenidən kalibrasiyasını və maliyyə inklüzivliyi siyasətinin maliyyə sabitliyi ilə həmahəng şəkildə inkişaf etdirmək hədəflərini ehtiva edir. Proporsional tənzimləməni təmin etmək və dövlət dəstək proqramlarının effektivliyini və miqyasını artırmaqla real sektorun ehtiyaclarına istiqamətlənmiş maliyyə sektoru eko sistemi formalaşdırılacaqdır;

**6.1.4.2. görüləcək tədbirlər:**

6.1.4.2.1. MKOB-lar, o cümlədən fərdi sahibkarlar üçün hesabların (yerində və məsafədən) açılması ilə bağlı qaydaların optimallaşdırılması;

6.1.4.2.2. rəqabəti stimullaşdırmaq və fintex təşkilatları tərəfindən yeni maliyyə xidmətlərinin inkişafına imkan yaratmaq məqsədilə açıq bankçılığın funksionallığının genişləndirilməsi;

6.1.4.2.3. fiziki və hüquqi şəxslər tərəfindən valyuta köçürmələrinin aparılması qaydalarının və prosedurlarının optimallaşdırılması;

6.1.4.2.4. faktorinq və invoys maliyyələşməsinin inkişafının stimullaşdırılması məqsədilə hüquqi çərçivənin təkmilləşdirilməsi;

6.1.4.2.5. girovun realizasiyası mexanizmləri üzrə hüquqi çərçivənin təkmilləşdirilməsi;

6.1.4.2.6. problemli aktivlərin satışı üzrə əlverişli ekosistemin formalaşdırılması;

6.1.4.2.7. alternativ maliyyə məhsullarının və xidmətlərinin təhlili və seçilmiş istiqamətlər üzrə hüquqi çərçivənin formalaşdırılması;

6.1.4.2.8. maliyyə sektorunun tənzimlənməsi üzrə normativ xarakterli aktların maliyyə inklüzivliyinə təsirinin qiymətləndirilməsi mexanizminin yaradılması;

6.1.4.2.9. istehlakçılara əməkhaqlarının ödənilməsində banklar arasından seçim etmək imkanının təmin olunması;

6.1.4.2.10. Milli Ödəniş Sistemi komponentlərinin funksional imkanlarının genişləndirilməsi yolu ilə əlçatanlığın artırılması;

6.1.4.2.11. mövcud dövlət dəstək mexanizmlərinin effektivliyinin qiymətləndirilməsi və konsolidasiyası üzrə təkliflərin hazırlanması;

6.1.4.2.12. aidiyyəti dövlət fondlarının (Azərbaycan Biznesinin İnkişafı Fondu, İpoteka və Kredit Zəmanət Fondu), Aqrar Kredit və İnkişaf Agentliyinin və müvəkkil kredit təşkilatlarının fəaliyyətində təkrarçılığın aradan qaldırılması və digər təkmilləşdirmələr vasitəsilə MKOB-ların maliyyələşməsi müddəti və xərcinin azaldılması;

6.1.4.2.13. MKOB-ların bütün seqmentlərinin maliyyəyə bərabər çıxışının təmin edilməsi, həmçinin potensial bazar uğursuzluqlarının və maliyyə resurslarının təklifi ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması üçün mexanizmlərin müəyyənləşdirilməsi;

6.1.4.2.14. MKOB-ların maliyyəyə çıxışının yaxşılaşdırılması məqsədilə faiz subsidiyalarından effektiv istifadə edilməsi;

6.1.4.2.15. MKOB-ların müvəkkil kredit təşkilatları ilə əlaqə yaratması və güzəştli mexanizmlərə müraciət etməsinə imkan verən platformanın yaradılması;

6.1.4.2.16. dayanıqlı mikromaliyyə modelinin müəyyən edilməsi və həyata keçirilməsi;

6.1.4.2.17. mikromaliyyə kreditlərinin sekyuritizasiyası və milli valyutada istiqraz kimi buraxılmasının mümkünlüyünün araşdırılması;

6.1.4.2.18. mikromaliyyə təşkilatlarının yerli maliyyə resurslarına çıxışının artırılması məqsədilə effektiv kredit zəmanəti sisteminin yaradılması;

**6.1.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. maliyyə inklüzivliyi amillərinin maliyyə sektorunun hüquqi çərçivəsinə və dövlət siyasətinə tam inteqrasiya olunması;

6.1.4.3.2. banklar, fintexlər və BOKT-lar üçün bərabər şəraitin təmin olunması, innovasiyaya əsaslanan dinamik maliyyə sektorunun formalaşdırılması və yeni iştirakçıların, eləcə də biznes modellərinin tətbiqinin dəstəklənməsi;

6.1.4.3.3. maliyyə sisteminə etimadı gücləndirən güclü hüquqi və institusional infrastrukturun formalaşdırılması, kreditor hüquqları, müqavilələrin icrası və məlumat mübadiləsi çərçivələri vasitəsilə məsuliyyətli kreditləşmənin və borclanmanın təşviq edilməsi;

6.1.4.3.4. sahibkarlıq və maliyyə inklüzivliyi üzrə koordinasiyalı və yüksək təsirli dövlət dəstək mexanizmləri arxitekturasının qurulması, dövlət resurslarından səmərəli və strateji istifadənin təmin olunması;

6.1.4.3.5. həssas qruplara yönəlmiş dayanıqlı mikromaliyyə sektorunun inkişaf etdirilməsi, qeyri-formal və aşağı gəlirli iqtisadi subyektlərin formal maliyyə sisteminə inteqrasiyası;

**6.1.4.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1.dövlət dəstək mexanizmlərinin maliyyə sektorunun inkişafı və bizneslərin maliyyə inklüzivliyinin təmin olunması siyasəti ilə adekvat səviyyədə uzlaşdırılmaması riski mövcuddur. Bununla əlaqədar, MKOB-ların maliyyələşdirilməsi ilə bağlı siyasət və hüquqi çərçivə üzrə tədbirlər baxımından aidiyyəti qurumlar arasında koordinasiyanın gücləndirilməsi nəzərdə tutulur;

6.1.5. fiziki şəxslərin və MKOB-ların maliyyə xidmətlərindən məlumatlı və təhlükəsiz şəkildə istifadəsi üçün imkanlar yaradılması;

**6.1.5.1. əsaslandırma:** maliyyə inklüzivliyi məqsədlərini reallaşdırmaq üçün təkcə maliyyə xidmətlərinə çıxışı genişləndirmək kifayət deyil, həmçinin bunun şəffaf və məsuliyyətli şəkildə edilməsi vacibdir. Maliyyə sektoru landşaftı inkişaf etdikcə, xüsusən də rəqəmsal maliyyə xidmətlərinin sürətli genişlənməsi ilə maliyyəyə çıxışın genişləndirilməsinə paralel risklər artır. Rəqəmsallaşma dövrü bir tərəfdən məsuliyyətli innovasiyalar üçün imkanlar, digər tərəfdən isə maliyyə xidməti təminatçıları tərəfindən potensial pozuntular üçün imkanlar yaradır. Bu isə fırıldaqçılıq hallarının artmasını və həddindən artıq borclanmanı şərtləndirə bilər. Yuxarıda göstərilən amillər istehlakçıların hüquqlarının qorunması üçün işlək mexanizmlərin yaradılmasını şərtləndirir. Ölkədə mövcud maliyyə xidməti istehlakçılarının hüquqlarının müdafiəsi sistemi əsas çağırışlara cavab versə də, yaranan risklərin, xüsusən də rəqəmsal maliyyə sahəsində yaranan risklərin kompleks həlli üçün kifayət etmir. Hüquqi çərçivənin gücləndirilməsi, yaranan risklərin monitorinqi üçün alətlərin yaradılması və maliyyə institutlarının öz davranışlarına görə məsuliyyət daşıması üçün mexanizmlərin işlənib hazırlanması istehlakçıların zərərdən və sui-istifadədən qorunması istiqamətində mühüm addımlardır. Bununla yanaşı, istehlakçıların maliyyə savadlılığı sahəsində ümumi təkmilləşdirmələrə baxmayaraq, təkmilləşmə imkanları genişdir. Hazırda Azərbaycan Respublikasının orta maliyyə savadlılığı balı beynəlxalq meyarlardan aşağıdır. Maliyyə savadlılığının aşağı olması istehlakçılar tərəfindən yanlış qərarlar verilməsi və dolayısı ilə izafi borclanma və s. kimi digər problemlərin yaranmasına səbəb olmaqla maliyyə sektorunun sağlam böyüməsinə mane ola bilər. Beləliklə, beşinci prioritet maliyyə xidməti istehlakçılarını məlumatlı maliyyə seçimləri etmək üçün lazım olan bilik, alətlər və çıxış imkanları ilə təmin etməyə yönəlmişdir. Həyata keçiriləcək təşəbbüslər maliyyə sisteminə inamı qorumaqla bərabər, maliyyə inklüzivliyinin maliyyə rifahına və iqtisadi artıma çevrilməsini təmin etmək məqsədinə xidmət edəcəkdir. Tam maliyyə inklüzivliyinin təmin olunması məqsədilə xüsusi həssas qrupların ehtiyaclarının öyrənilməsi və müvafiq tədbirlər görülməsi zəruridir. Fiziki maliyyə infrastrukturunun əlilliyi olan şəxslərin ehtiyaclarına uyğunlaşdırılması, yaşlı əhalinin yeni rəqəmsal texnologiyalardan istifadə bacarıqlarının artırılması, gənclərdə erkən yaşdan baza maliyyə bacarıqlarının formalaşdırılması, habelə miqrantların və qaçqınların maliyyə xidmətlərinə çıxışla bağlı üzləşdikləri çətinliklərin aradan qaldırılması ölkədə tam maliyyə inklüzivliyinə nail olunmasına imkan verə bilər;

**6.1.5.2. görüləcək tədbirlər:**

6.1.5.2.1. maliyyə savadlılığı təşəbbüslərinin effektiv koordinasiya sisteminin yaradılması;

6.1.5.2.2. fiziki şəxslər və MKOB-lar üçün əsas maliyyə kompetensiyalarının müəyyənləşdirilməsi və təlim materiallarının hazırlanması;

6.1.5.2.3. maliyyə savadlılığının ümumi təhsil müəssisələrində dərsdənkənar məşğələlər, ali təhsil müəssisələrində seçmə fənlər çərçivəsində tədrisinin təşkil edilməsi;

6.1.5.2.4. işəgötürənlər tərəfindən işçilərin yerində maliyyə təhsili proqramları ilə təmin edilməsi və onların maliyyə xidmətlərindən istifadəyə təşviq edilməsi;

6.1.5.2.5. maliyyə institutlarının müştərilərlə kommunikasiya zamanı onların maarifləndirilməsinin (satışyönümlü olmayan maliyyə məhsulları və xidmətləri haqqında qərəzsiz şəkildə müvafiq məlumatların təqdim olunması) təşviq edilməsi;

6.1.5.2.6. sığorta ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

6.1.5.2.7. MKOB-ların sığorta ehtiyaclarının müəyyən edilməsinə kömək məqsədilə risklərin qiymətləndirilməsi üçün müvafiq alətin hazırlanmasının təşviq olunması;

6.1.5.2.8. ictimaiyyət üçün effektiv maliyyə savadlılığı təcrübələrinin müəyyənləşdirilməsi;

6.1.5.2.9. maliyyə bazarlarında istehlakçıların hüquqlarının qorunması qaydalarının hazırlanması;

6.1.5.2.10. maliyyə bazarlarında istehlakçıların hüquqlarının qorunması üzrə nəzarət mexanizminin qurulması;

6.1.5.2.11. maliyyə institutlarında şikayətlərin idarə olunması üzrə effektiv daxili elektron sistemin qurulmasının təşviq edilməsi;

6.1.5.2.12. maliyyə xidmətlərində mübahisələrin alternativ (məhkəməyədək) həlli imkanlarının genişləndirilməsi;

6.1.5.2.13. maliyyə institutları üçün məsuliyyətli kreditləşmə proqramının tətbiq edilməsi;

6.1.5.2.14. istehlakçılara maliyyə xidmətlərindən istifadə ilə bağlı potensial riskləri müəyyən etməkdə və yanlış qərarların (koqnitiv qərəz, irrasional qərar və s.) nəticələrinin aradan qaldırılmasında dəstək göstərilməsi;

6.1.5.2.15. maliyyə institutlarının yanlış davranışlarının potensial riskləri və mənfi nəticələrinin aradan qaldırılması məqsədilə maraqlı tərəflərlə əməkdaşlığın genişləndirilməsi;

6.1.5.2.16. əlilliyi olan şəxslərə ehtiyaclarına uyğun maliyyə xidmətlərindən istifadə etməyə imkan verən müvafiq texnoloji həllərin hazırlanması;

6.1.5.2.17. əlilliyi olan şəxslərin maliyyə institutlarında lazımi səviyyədə xidmətlə təmin edilməsi üçün işçi heyətinə zəruri olan bacarıqların inkişaf etdirilməsi istiqamətində təlimlər keçirilməsi;

6.1.5.2.18. əlilliyi olan şəxslərin hüquqi çərçivədə hüquqlarının tanınmasının və lazımi şəkildə qorunmasının təmin edilməsi;

6.1.5.2.19. yaşlı əhalinin maliyyə savadlılığının və rəqəmsal bacarıqlarının artırılması istiqamətində işlər görülməsi;

6.1.5.2.20. yaşlı əhalinin ehtiyaclarına uyğunlaşdırılmış məhsul və xidmətlərin yaradılmasının təşviq edilməsi;

6.1.5.2.21. yaşlı əhalinin maliyyə xidmətlərindən istifadə zamanı sui-istifadə və fırıldaqçılıq hallarından qorunması;

6.1.5.2.22. əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin, qaçqınların və qaçqın statusunun əldə olunması üçün müraciət etmiş şəxslərin müvafiq maliyyə xidmətlərinə çıxışlarının optimallaşdırılması və bu istiqamətdə məlumatlandırma tədbirlərinin icra edilməsi;

**6.1.5.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. fiziki şəxslərin və MKOB-ların maliyyə idarəetməsi səriştəsinin yaxşılaşması, maliyyə savadlılığı səviyyəsinin orta statistik İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri səviyyəsinə yüksəldilməsi;

6.1.5.3.2. maliyyə xidməti istehlakçılarının hüquqlarının müdafiəsi sisteminin maliyyə sektorunun yeni ekosisteminə, o cümlədən maliyyə xidmətlərinin çeşidli kanallar və institutlar tərəfindən göstərilməsinə uyğun təkmilləşdirilməsi;

6.1.5.3.3. maliyyə xidməti ilə əhatə olunmayan fiziki şəxslərin və MKOB-ların sayının azaldılması və maliyyə xidmətləri ilə aşağı səviyyədə əhatə olunan qruplara, o cümlədən qadınlar, yaşlılar, gənclər, miqrantlar və azad edilmiş ərazilərə qayıdan şəxslərə münasibətdə maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi;

**6.1.5.4. gözlənilən risklər və neytrallaşdırılma tədbirləri:**

6.1.5.4.1. maliyyə savadlılığı təşəbbüslərinin həyata keçirilməsinin daha mürəkkəb olması və maraqlı tərəflərin zəif əməkdaşlığı müəyyən edilmiş hədəflərə nail olunmanı çətinləşdirə bilər. Bu baxımdan, maliyyə savadlılığı ilə bağlı təşəbbüs və proqramların həyata keçirilməsi üçün maraqlı tərəflərlə fəaliyyətin hərtərəfli əlaqələndirilməsi təmin ediləcəkdir;

6.1.5.4.2. maliyyə xidməti istehlakçılarının onların hüquqlarının müdafiəsi haqqında yetərli qədər məlumatlı olmaması gözlənilən nəticələrə nail olunma üçün maneə yarada bilər. Maliyyə xidməti istehlakçılarının hüquqlarına dair məlumatların açıqlanması və istehlakçı hüquqları üzrə potensial sui-istifadə hallarını aradan qaldırmaq üçün maliyyə xidmətləri təminatçılarının davranışları mütəmadi olaraq nəzarət tədbirləri ilə əhatə ediləcəkdir;

6.1.5.4.3. maliyyə institutları tərəfindən maliyyə xidmətlərinin xüsusi həssas qrupların ehtiyaclarına uyğunlaşdırılmasında ləngimələrin olması riski mövcuddur. Bu səbəbdən, maliyyə xidmətləri təminatçıları tərəfindən xüsusi həssas qruplara aid fiziki şəxslərin və bizneslərin maliyyə xidmətlərinə spesifik ehtiyaclarının effektiv şəkildə təmin edilə bilməsinin monitorinqinin həyata keçirilməsi nəzərdə tutulur.

## 7. DÖVLƏT PROQRAMININ MALİYYƏLƏŞDİRİLMƏSİ

Dövlət Proqramında qeyd edilən tədbirlərin icrası ilə bağlı xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait, dövlət orqanlarının (qurumlarının) büdcədənkənar vəsaiti, Azərbaycan Respublikası Mərkəzi Bankının vəsaiti, yerli və xarici investisiyalar, kredit və qrantlar, hüquqi və fiziki şəxslərin ianələri, eləcə də qanunla nəzərdə tutulan digər mənbələr hesabına, habelə özəl sektorun vəsaiti və dövlət-özəl tərəfdaşlığı layihələri vasitəsilə maliyyələşdirilir.

*Ardı 18-ci səh.*

# Zəngilanlı məktəblinin dünya universitetlərinə uzanan yolu

**Bakının fizika-riyaziyyat təmayüllü liseyində oxuyan 11-ci sinif şagirdi Yusif Yaqubov üçün bu yaz fərqli başladı. O, bir tərəfdən ailəsi ilə birlikdə illərlə həsrətində olduqları doğma Zəngilana qayıdış sevinci yaşayırdı, digər tərəfdən isə dünyanın müxtəlif ölkələrindən gələn qəbul məktubları həyatında yeni bir mərhələnin qapısını açırdı. Cəmi 16 yaşında olan Yusif artıq Böyük Britaniya, ABŞ, Çin, Türkiyə və Cənubi Koreyanın nüfuzlu universitetlərinə qəbul olunaraq həm öz ailəsinin, həm müəllimlərinin fəxrinə, qüruruna çevrilib. Qəbul məktubları arasında Böyük Britaniyanın Edinburq Universiteti, Çinin Şanxay Jiao Tonq Universiteti, Çinin Harbin Texnologiya İnstitutu, Türkiyənin Bilkənt, Sabancı və Koç universitetləri, ABŞ-nin Arizona Dövlət və Peys universitetləri, həmçinin Cənubi Koreyanın Seul Milli Universiteti yer alır.**



2009-cu il təvəllüdlü Yusifin məktəb illərindən riyaziyyata xüsusi marağı olub. Hələ kiçik yaşlarından rəqəmlərlə işləməyi, məntiqi məsələləri həll etməyi və texniki sahələr haqqında araşdırmalar aparmağı sevən gənc üçün riyaziyyat sadəcə məktəb fənni olmayıb. Bu elm onun gələcəyini müəyyənləşdirən əsas istiqamətə çevrilib. O, Azərbaycan üzrə keçirilən riyaziyyat fənn olimpiadalarının qaliblərindən biridir. Buna görə də ADA, Bakı Ali Neft Məktəbi, UNEC və digər yerli ali təhsil müəssisələrinə imtahansız qəbul hüququ qazanıb.

Bu uğurlar ilk baxışda parlaq akademik nəticələrin təbii davamı kimi görünə bilər. Lakin Yusifin hekayəsi yalnız yüksək ballardan və beynəlxalq universitetlərə qəbul məktublarından ibarət deyildi. Bu hekayənin arxasında illərlə davam edən çətin məcburi köçkün həyatı, hədəflər uğrunda yorulmadan çalışma və ailənin təhsilə verdiyi böyük önəm dayanırdı. Yaqubovlar ailəsi Zəngilan işğal olunduqdan sonra minlərlə azərbaycanlı ailə kimi doğma yurdlarından didərgin düşərək paytaxta köçmək məcburiyyətində qalıblar. Ailə uzun müddət peşə məktəbinin yataqxanasında yaşayıb. Yusifin uşaqlığının və yeniyetməlik dövrünün böyük hissəsi həmin yataqxana şəraitində keçib. Məhdud imkanlar və sosial çətinliklər onun təhsilə olan marağını azaltmayıb. Əksinə, bu çətinlikləri gələcəyə gedən yolda motivasiya mənbəyinə çevirib.

Yusifin atası Yaqub Yaqubov da Zəngilanda doğulub böyüyüb. Oğlunun uğurları barədə danışarkən bildirir ki, ailədə hər zaman övladlarının təhsilinə xüsusi diqqət göstərilib. Maddi və məişət problemlərinə baxmayaraq, əsas məqsəd uşaqların yaxşı təhsil alması olub. Ailə inanıb ki, elm və bilik insanın həyatını dəyişə biləcək ən güclü vasitədir. Yusif də bu düşüncə ilə böyüyüb. Onun uğurlarında müəllimlərinin də rolu böyükdür. Fizika-riyaziyyat təmayüllü liseydə aldığı təhsil Yusifin bilik potensialının inkişaf etməsinə mühüm təsir göstərib. Müəllimləri onun riyazi düşüncə qabiliyyətinin və analitik yanaşmasının yaşına görə fərqləndiyini deyiblər. O, dərslərlə kifayətlənməyib, əlavə elmi mənbələrə müraciət edib, beynəlxalq proqramları araşdırıb, müxtəlif universitetlərin qəbul şərtlərini öyrənib və gələcəyini planlı şəkildə qurmağa çalışıb.

Yusif universitet seçimində də təsadüfi qərarlar verməyib. O, müasir dövrün tələblərinə uyğun ixtisaslar seçdiyini deyir. Əsas maraq dairəsi süni intellekt, informasiya texnologiyaları və kiber təhlükəsizlikdir. Onun fikrincə, texnologiyanın sürətlə inkişaf etdiyi bir dövrdə bu sahələr gələcəyin ən vacib istiqamətləri hesab olunur. Riyaziyyata olan sevgisi də onu məhz bu sahələrə yönəldib.

"Texnologiya dövrüdür. Müasir dövrün tələblərinə uyğun ixtisas seçmək lazımdır", - deyən Yusif hesab edir ki, gələcəyin uğurlu mütəxəssisi olmaq üçün yalnız universitetə qəbul olmaq kifayət deyil. Daim öyrənmək, yenilənmək və öz üzərində işləmək vacibdir. Onun sözlərinə görə, uğurun əsas sirri intizamlı olmaqdan keçir. Yusif düşünür ki, müəllimlərin istiqamətləndirməsi və dəstəyi nə qədər önəmlidirsə, insanın öz üzərində işləməsi də bir o qədər vacibdir. O, məktəb illərində vaxtını planlı şəkildə bölüb, həm dərslərinə, həm olimpiadalara hazırlığa, həm də xarici universitetlər üçün sənədləşmə prosesinə ciddi yanaşıb.

Bütün bunların fonunda onun həyatında başqa bir mühüm hadisə də baş verib. Mayın 12-də Yaqubovlar ailəsi uzun illərdir həsrət qaldıqları Zəngilana köçüblər. Onlar doğma yurda qayıdan ilk 104 ailədən biridir. Ata-baba torpağına dönüş ailə üçün böyük mənəvi anlam daşıyır. Maraqlıdır ki, Yusif universitetlərdən gələn sevindirici xəbərləri məhz Zəngilana köçdükdən bir neçə gün sonra alıb. Bu hadisə həmişə ailənin yaddaşında xüsusi bir təsadüf və simvolik başlanğıc kimi yadda qalacaq.

Bir tərəfdə işğaldan azad edilmiş yurdlarına qayıdış, digər tərəfdə isə dünyanın ən nüfuzlu universitetlərinə açılan qapılar əlbəttə ki, böyük fəxarət yaradır. Yusifin hekayəsi sanki iki fərqli dövrün kəsişməsində dayanır. O həm keçmişin çətinliklərini yaşamış bir ailənin övladıdır, həm də gələcəyin texnologiya dünyasına hazırlaşan yeni nəslin nümayəndəsi.

Yusif yalnız dərslərlə məşğul olan şagird deyil. O, boş vaxtlarında rəsm çəkməyi sevir, şahmat oynayır və futbola maraq göstərir. Şahmatın onda məntiqi düşüncə və səbir formalaşdırdığını deyir. Rəsm isə onun üçün istirahət və yaradıcılıq vasitəsidir. Bu maraqlar onun yalnız akademik uğurlara fokuslanan gənc olmadığını, müxtəlif sahələrə maraq göstərdiyini də ortaya qoyur. Yusifin uğur hekayəsi sosial şəbəkələrdə və ictimaiyyət arasında da maraqla qarşılanıb. Bir çox insanlar onun timsalında əzmkarlığın və məqsədyönlülüyün nəticəsini gördüklərini bildirirlər. Xüsusilə məcburi köçkün ailəsində böyüyən bir gəncin dünya universitetlərindən bu qədər qəbul alması cəmiyyət üçün motivasiya nümunəsinə çevrilib.

Yusif həyatda öz yolunu tapa bilən, hədəflərinə doğru inamla irəliləyən gənclərdən biridir. O, gələcəkdə texnologiya və riyaziyyat sahəsində güclü mütəxəssis olmaq, bilik və bacarıqları ilə faydalı işlər görmək istəyir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Qadınlar arasında karate üzrə Avropa çempionu Mədinə Sadıqova vətənə qayıdıb

**Almaniyada keçirilən karate üzrə Avropa çempionatında 55 kiloqram çəki dərəcəsində qızıl medal qazanan idmançı Mədinə Sadıqova Vətənə qayıdıb.**





Heydər Əliyev Beynəlxalq Aeroportunda karate üzrə milli yığmamızın üzvlərini qarşılayanlar arasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının və onun tabe təşkilatı Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının nümayəndələri də olub.

Mədinə Sadıqova ölkəmizdə idmanın inkişafına göstərilən diqqət və qayğı üçün dövlətimizə, dövlətimizin başçısına idmançılar adından minnətdarlığını ifadə edib və yarışlara hazırlıq prosesində ona dəstək olan hər kəsə təşəkkürünü bildirib: "Mən həm də Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasında məşqçi-müəllim kimi fəaliyyət göstərirəm. Yarışlara ciddi şəkildə hazırlaşmışdım. İslam Oyunlarında qazandığım uğurdan sonra növbəti hədəfim Avropa çempionu olmaq idi. Hədəfimə nail oldum. Mənə dəstək olan məşqçilərimə, komanda yoldaşlarıma, Azərbaycan Karate Federasiyasına və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına təşəkkürümü bildirirəm. Vətənimdə bu cür coşğu ilə qarşılanmaq mənim üçün qürurvericidir".

Qadınlar arasında karate üzrə 55 kiloqram çəki dərəcəsində ilk dəfə qızıl medal qazanan idmançımız final görüşünün çətin keçdiyini deyib: "Rəqibimə bələd idim, bir-birimizi yaxşı tanıyırdıq. Görüşün əvvəlində hesabda geri olsam da, sonda 9:6 hesabı ilə qalib gələrək Avropa çempionu titulunu qazanmağa nail oldum".

Avropa çempionunun məşqçisi Seymur Xudaverdiyev gənc idmançının uğurlarının davamlı olacağına inandığını bildirib: "Mədinə çox intizamlı idmançımızdır. Onun Avropa çempionu olacağına hamımız inanırdıq. O da bu ümidlərimizi doğrultdu. Dünya çempionatında da idmançımızın uğur qazanacağına inanırıq".

Qeyd edək ki, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının təmsilçisi olan Mədinə Sadıqova 55 kiloqram çəki dərəcəsində böyüklər arasında Avropa çempionu titulunu qazanan ilk azərbaycanlı qadın karateçidir.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Yaxın Şərqdəki gərginlik bir sıra şirkətlərin gəlirini artırıb

**Yaxın Şərqdəki gərginlik bütün dünyanın iqtisadi gündəmini dəyişdirib. Müharibə təhlükəsi, enerji yollarının bağlanması riski və maliyyə bazarlarındakı qeyri-müəyyənlik milyonlarla insan üçün yaşayış xərclərini artırsa da, bəzi şirkətlər üçün yeni qazanc imkanları yaradıb. Xüsusilə neft-qaz, bank, müdafiə sənayesi və bərpaolunan enerji sektorlarında fəaliyyət göstərən korporasiyalar bu böhrandan əlavə gəlir əldə edirlər.**



Münaqişənin ən böyük iqtisadi təsiri enerji bazarlarında hiss olunur. Dünyanın ən strateji enerji marşrutlarından biri hesab olunan Hörmüz boğazı üzərindən dünya neft və mayeləşdirilmiş qaz tədarükünün mühüm hissəsi həyata keçirilir. Regionda hərbi risklərin artması bu marşrutun təhlükəsizliyini sual altına salıb və nəticədə neft qiymətləri sürətlə yüksəlib.

Neftin bahalaşması ilk növbədə qlobal enerji nəhənglərinin gəlirlərini artırıb. Dünyanın aparıcı enerji şirkətlərindən olan BP ilin ilk rübündə mənfəətini iki dəfə artıraraq 3,2 milyard dollara çatdırıb. Şirkət bunu enerji bazarlarındakı yüksək dəyişkənlik və ticarət əməliyyatlarındakı uğurlu nəticələrlə əlaqələndirib. Digər böyük enerji şirkəti "Shell" isə 6,92 milyard dollar mənfəət əldə edərək bazar proqnozlarını üstələyib. Fransanın enerji nəhəngi "TotalEnergies" də neft və qaz qiymətlərindən faydalanaraq gəlirlərini əhəmiyyətli şəkildə artırıb. ABŞ şirkətləri "ExxonMobil" və "Chevron" bəzi logistika çətinlikləri ilə üzləşsələr də, enerji qiymətlərinin yüksək qalmasının onların gəlirlərinə müsbət təsir göstərəcəyi gözlənilir.

Gərginlik şəraitində investorlar enerji sektorunu daha təhlükəsiz və gəlirli sahə hesab edirlər. Bu isə neft şirkətlərinin səhmlərinin dəyərinin yüksəlməsinə səbəb olur. Lakin yüksək enerji qiymətləri bir sıra ölkələrdə inflyasiyanı sürətləndirir, əhalinin gündəlik xərclərini artırır. Bundan başqa, müharibənin yaratdığı qeyri-sabitlik maliyyə bazarlarında da ciddi dalğalanmalara səbəb olur. İnvestorlar riskli aktivlərdən uzaqlaşaraq daha təhlükəsiz hesab edilən investisiya vasitələrinə yönəlirlər. Bu vəziyyət isə iri bankların ticarət əməliyyatlarından əldə etdikləri gəlirləri artırır. ABŞ-nin ən böyük maliyyə holdinqlərindən olan "JPMorgan Chase" ilin ilk üç ayında ticarət əməliyyatlarından rekord həddə, yəni 11,6 milyard dollar gəlir əldə edib. Bu nəticə bankın tarixində ən yüksək göstəricilərdən biri hesab olunur. "Goldman Sachs", "Morgan Stanley", "Citigroup" və "Bank of America" kimi maliyyə nəhəngləri də mənfəətlərinin artdığını açıqlayıblar.

Yaxın Şərqdəki böhran səbəbindən bazarlarda yaranan panika və sürətli qiymət dəyişiklikləri bankların valyuta, istiqraz və səhm ticarətindən daha çox gəlir əldə etməsinə imkan yaradıb. Bəzi investorlar səhmlərini sataraq bazardan çıxmağa çalışarkən, digərləri qiymətlərin enməsini fürsət hesab edib yeni alışlar həyata keçirirlər. Bu isə ticarət həcmlərini rekord səviyyəyə çatdırır. Münaqişələrdən ən çox qazanan sahələrdən biri də hər zaman müdafiə sənayesi olub.

Yaxın Şərqdəki gərginlik hökumətləri müdafiə büdcələrini artırmağa və yeni silah sistemləri almağa sövq edir. Belə ki, Britaniyanın müdafiə şirkəti "BAE Systems" bu il satış və mənfəətində ciddi artım gözlədiyini açıqlayıb. Şirkət bildirib ki, qlobal təhlükəsizlik risklərinin artması hökumətlərin hərbi xərclərini sürətlə yüksəldir. ABŞ müdafiə sənayesinin əsas oyunçuları olan "Lockheed Martin", "Boeing" və "Northrop Grumman" də rekord sayda sifariş aldıqlarını açıqlayıblar. Xüsusilə, hava hücumundan müdafiə sistemləri, pilotsuz uçuş aparatları və raket texnologiyalarına tələbatın sürətlə artdığı qeyd olunur. Görünür, Yaxın Şərqdəki gərginlik yaxın illərdə də müdafiə sektorunun böyüməsinə səbəb olacaq.

Müharibə həm də alternativ enerji mənbələrinin əhəmiyyətini gündəmə gətirib. Enerji təhlükəsizliyi məsələsi bir çox ölkəni neft və qaz asılılığını azaltmağa istiqamətləndirir. ABŞ-nin "NextEra Energy" şirkətinin səhmləri bu il 17 faiz artıb. Danimarkanın külək enerjisi şirkətləri "Vestas" və "Orsted" də mənfəətlərində yüksəliş olduğunu açıqlayıblar. Böyük Britaniyada fəaliyyət göstərən "Octopus Energy" isə günəş panelləri və istilik nasoslarına tələbin sürətlə artdığını bildirib. Şirkətin məlumatına görə, son aylarda günəş paneli satışları 50 faiz yüksəlib. Bundan əlavə, yanacaq qiymətlərinin bahalaşması elektrikli avtomobillərə marağı da artırır. Xüsusilə, Çin istehsalçıları bu prosesdən böyük iqtisadi fayda əldə edirlər.

Müharibələr siyasi və humanitar nəticələrlə yanaşı, böyük iqtisadi maraqlar da yaradır. Bir tərəfdən, milyonlarla insan yüksək inflyasiya, bahalaşma və iqtisadi qeyri-sabitliklə üzləşir, digər tərəfdən isə iri korporasiyalar rekord gəlirlər açıqlayırlar. Bu vəziyyət iqtisadi sistemdə böhranların necə qeyri-bərabər təsir yaratdığını göstərir. Münaqişələr bəzi dövlətlər və şirkətlər üçün böyük maliyyə yükü yaratsa da, digərləri üçün yeni qazanc imkanlarına çevrilir. Yaxın Şərqdə gərginlik davam etdikcə enerji, müdafiə və maliyyə sektorlarında fəaliyyət göstərən şirkətlərin gəlirlərinin daha da artacağı ehtimal olunur. Bu isə qlobal iqtisadiyyatda qeyri-sabitliyin uzun müddət davam edəcəyini göstərir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# ABŞ ordusu İranın qayıqlarına və zenit-raket qurğusuna zərbə endirib

## CENTCOM bu zərbələri atəşkəsin pozulması deyil, özünümüdafiə hesab edir

**ABŞ ordusu İranın cənubunda yerləşən Bəndər Abbasda İslam İnqilabı Keşikçiləri Korpusunun (SE PAH) iki qayığını və yer-hava raket meydançasını vurub. Bu barədə "Fox News" telekanalı xəbər verib.**



Məlumata əsasən, "İranın iki qayığı Hörmüz boğazında mina yerləşdirərkən yaxalanıb... ABŞ ordusu hər iki gəmini məhv edib və Bəndər Abbasda Amerika hərbi təyyarələrini hədəf alan zenit-raket kompleksinin meydançasını vurub". Bu, ABŞ Prezidenti Donald Trampın Tehranla danışıqlarda irəliləyiş barədə son açıqlamalarından bir neçə saat sonra baş verib. Amma, bildirildiyinə görə, ordu zərbələrin müdafiə xarakterli olduğunu və ABŞ ilə İran arasında atəşkəsin pozulması olmadığını iddia edir. Məlumatda vurğulanıb ki, "zərbələr hücum deyil, müdafiə xarakterli idi və atəşkəsi pozmaq cəhdi deyildi". CENTCOM (ABŞ Silahlı Qüvvələri Mərkəzi Komandanlığı) sözçüsü kapitan Tim Hokins də açıqlamasında hadisəni təsdiqləyərək hərbçilərin zərbələri "qüvvələrimizi İran qüvvələrinin yaratdığı təhlükədən qorumaq üçün" özünümüdafiə məqsədilə həyata keçirdiyini açıqlayıb.

Eyni zamanda ABŞ dövlət katibi Marko Rubio bildirib ki, Tehranla danışıqlar davam edir və tərəflər konkret detalların müzakirəsini aparırlar.

Bu arada "Fars" agentliyinin verdiyi məlumata görə, İran ordusu Amerikanın yeni hücumunun cavabsız qalmayacağı barədə xəbərdarlıq edib. İranın yüksəkvəzifəli hərbi rəsmisi Əbülfəzl Şəkərçi bildirib ki, İrana qarşı hər hansı yeni təcavüz regiondan kənara çıxacaq daha sərt cavabla qarşılanacaq. O, müharibənin yenidən qızışacağı halda İranın hücumlarının regiondan kənara çıxacağını və əvvəlki mərhələlərdən daha geniş və qəddar olacağını bildirib.

"CBS News" telekanalının məlumatına görə, Amerika kəşfiyyatı hesab edir ki, danışıqlar müharibənin ilk günündə İsrailin hücumunda ağır yaralanan İranın Ali Lideri Müctəba Xameneinin harada olduğu bilinməməsi səbəbindən gecikir. Bu, onun elçiləri ilə ünsiyyətə mane olur.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3817
Sifariş 682

Qiyməti 60 qəpik